www.kitabxana.net

YAQUB DƏLİÖMƏROĞLU

TÜRKİSTAN

YESƏVİNİN ŞƏHƏRİ YESİYƏ DAİR

Milli Virtual Kitabxananın təqdimatında

2011

MİLLİ VİRTUAL KİTABXANA

www.kitabxana.net
Milli Virtual Kitabxananın təqdimatında

YAQUB DƏLİÖMƏROĞLU

TÜRKİSTAN

YESƏVİNİN ŞƏHƏRİ YESİYƏ DAİR

Azərbaycan Türkcəsinə uyğunlaşdıran: RƏSMİYYƏ SABİR

YYSQ - Milli Virtual Kitabxananın
e-nəşri N 72 (2011)

Şəbəkə redaktoru və e-nəşrə hazırlayanı:
Aydın Xan (Əbilov) - yazar-kulturoloq

YYSQ - Milli Virtual Kitabxana

Bakı - 2011

YAQUB DƏLİÖMƏROĞLU

TÜRKİSTAN

YESƏVİNİN ŞƏHƏRİ YESİYƏ DAİR

Redaktorlar:

AMEA-nın müxbir üzvü, fil. e.d. millət vəkili NİZAMİ CƏFƏROV,

Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı ƏKBƏR QOŞALI

Azərbaycan Türkcəsinə uyğunlaşdıran: RƏSMİYYƏ SABİR

TÜRKİSTANIN TARİX SƏHNƏSİNƏ ÇIXIŞI VƏ XOCA ƏHMƏD YESƏVİ

Türkistan sözü, Türkiyə türkcəsində eyni zamanda iki mənada istifadə olunur. Bunlar Türkistan bölgəsi və Türkistan şəhəridir. İkisinə də Türkistan deyirik. Bunu qarışdırmaq istəməyənlər, Türkistan şəhərinə, keçmiş adıyla Yesi deyərək məsələni həll etməyə çalışırlar. Eyni anlayışları bizdən daha çox istifadə etmək məcburiyyətində olan Türkistanlı qardaşlarımızın tapdıqları çıxış yolu isə daha fərqlidir: Türkistan bölgəsinə Ulu Türkistan, digərinə isə, Özbəklər Türkistan şəhəri, Qazaxlar Türkistan Qalası deyərək, dillərindəki çaşqınlığın qarşısını alırlar.

Hər iki isim tarixi həqiqətlərlə qarşımızda dayanır: tarixdə, Türkistan anlayışına ilk dəfə 7-ci əsr mənbələrində rast gəlinir. Bu əsrdə ərəb və fars tarixçilər, Türkistan sözünü, Türk ölkəsi, Türk yurdu mənasında istifadə edirlər. "Türk Divanı Lüğəti" adlı böyük əsərində Kaşqarlı Mahmud, Türkistanı yenə Türk ölkəsi olaraq, Xəzərin üzərindən qıvrılıb qərbdə Rumelinə, şərqdə isə Çinə qədər uzanan bölgə olaraq tərif edir. Məşhur rus tarixçisi B.B.Bartodun əsərlərində də Türkistan anlayışına tez-tez rast gəlmək olar. Kaşqarlı Türkistanın sərhədlərini bir az daraldaraq Xəzərdən-Çinə qədər uzanan bölgə olaraq təsvir edir. Türkcəmizdə isə Türkistan anlayışı, Bartodun tərifinə yaxın - qərbdə Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan və Tacikistanı, cənubda Əfqanıstanın şimalını, şərqdə Şərqi Türkistanı əhatə edən, qədim Türk yurdlarını ifadə etmək üçün istifadə olunur.

Türkistan sözünə verilən ikinci məna, Ulu Türkistanın mənəvi özəyi olan, Qazaxıstan sərhədləri içərisində yerləşən kiçik bir şəhər - Türkistan üçün istifadə edilir. Bu kiçik şəhər, əslində ölkələrə verilən böyük ismini, Orta Asiya coğrafiyasında qəbul etdirmiş olsa da, Anadoluda, hələ köhnə adı Yesini unutdura bilməmişdir. Yesi bu gün Qazaxıstanda Çinkənd vilayətinə bağlı Türkistan şəhərinin məlum olan ən qədim adı, yerləşmə yeri isə adına, Kültəpə deyilən bölgədir.

Kültəpə - üzərində, Yesi şəhərinin qurulduğu təpəcikdir.

Adı niyə Kültəpədir? Məlum deyil!

Görəsən, Asiyadan Anadoluya kimi, bütün Türk Dünyasını yandırıb bir qasırğa kimi küllərini sovuran monqol istilalarından əvvəl də onun adı Kültəpə idimi? Bilən yoxdur!

Kültəpə doqquz metrlik yüksəklik olduğundan, buradakı kəndə də "Yassı" deyilir. Yassı daha sonralar xalqın dilində "Yessi" və "Yesi" olur. Bu fikir Yesi sözünün məlum olan tək etimologiyasıdır.

Monqolların, böyük Türk bilicisi Fərabinin doğulduğu və onun dövründə parlaq elm və ticarət mərkəzi olan Otrarı (Fərab) yandırıb yerlə-yeksan etdikləri dövrdə mənbələr, Yesiden çox tez-tez bəhs etməyiblər. Kültəpənin üzərində yerləşən bu kiçik kənd o dönəmlərdə mühüm əhəmiyyət kəsb edən yer olmamışdır. Belə olsa da, Yesi monqol istilaları zamanı yandırılaraq tamamilə məhv edilir. Yeni Yesi tarixdə yandırılan hər bir şəhər kimi, köhnə yerindən bir az uzaqda salınır və bugünkü yerində, yəni Kültəpənin qərbində yenidən qurulur. Ancaq Kültəpə boş qalmır və Kültəpədə monqol istilasının külləri arasında bir ocaq yanmağa başlayır. O nuruyla bütün qaranlıq könülləri aydınlatmağa kifayət edən işıqdır və bu işığın şəfəqi yalnız Yesini deyil, bütün Türkistanı, Qafqazı, Anadolunu tutur.

Bir rəvayətə görə Kültəpədə salınan şəhərin adı Yesi olmazdan əvvəl "Asan"dır. Asan, yəni sakit, sülh dolu...

Yenə də Kültəpədə yanan atəşin alovlarından "asanlıq" yayılır.

Və bu bir atəşdir ki, böyük bir mədəniyyətin ruhunu isidir və önünü işıqlandırır.

Və bu bir qordur ki, monqol istilasının yaralarını dağlayır.

Və Yesi, tarixdə ən parlaq dönəmini, Kültəpənin külləri arasında böyük bir ocaq quran Qul Xoca Əhmədin XII əsrdə burada məskunlaşmasıyla yaşamağa başlayır.

Qul Xoca Əhməd Qazıqurd dağının ətəklərində salınmış, Türkistana təxminən 200 km məsafədəki Sayram şəhərində dünyaya gəlir. Atası İbrahimin və anası Karasaçın məzarları bu gün Sayramın dağa söykənən hissəsindədir. Onun Türkistana ilk gəlişi kiçik yaşlarına təsadüf edir və ilk təhsilini də burada Arslan Babadan alır. Menkıbeye görə Arslan Baba Peyğəmbərin əshabələrindəndir və Kiçik Əhmədə Peyğəmbər əmanəti xurmanı gətirmişdir. Dostları ilə birlikdə oyun oynayan Əhməd Arslan Baba yoldan keçərkən ona doğru qaçır və

“səndəki əmanətimi ver” deyir. Arslan baba xurmanın sahibinin bu balaca uşaq olduğunu anlayır.

Xalq arasında çox tez-tez danışılan bu cür hekayətlərin təbiətini bilənlərə məlumdur ki, mənbələr olan hadisələri bir-bir anlatmaqdan çox, sətirlərin arasında gizlənən mənaları, simvolları yayır və yaşadırlar. Onlardan hamı özünə uyğun mənalar çıxardır. Bu, okeandan öz qabının həcminə uyğun su almağa bənzəyir. Hər kəsin qabındakı su okean suyudur, lakin heç kimin suyu okean deyildir. Mənbələrin bu xüsusiyyətlərinə görə qeyd edim ki, Arslan Baba mənbəyində söz açılan xurma da, bu ümumi xarakteristikaya uyğun gəlməlidir. Arslan Babanın gətirdiyi, “Peyğəmbər əmanəti xurma” bildiyimiz Mədinə xurması olmaqdan çox, bir simvoldur. Elmlərin açarıdırmı, yuxarıların şirin yemişidirmi? Niyazi Misri Yunusun şeirlərini şərh edərkən bəzi simvollara gəlincə “əhlinə məlumdur” deyərək, orada nə deyildiyini açıqlamır. Biz də “xurma”ya bu cür yanaşaq: bizə məlum olmasa da, əhlinə məlumdur.

Bu “xurma”nın sahibi və böyük elmin arxasınca düşən Əhməd Buxaraya Xoca Yusif Həmədaninin yanına gedir, burada formalaşır. Ustadının vəfatından sonra Yesiyə dönür.

Bax, bu dönüş Yesinin taleyini dəyişdirəcəkdir.

Və əvəzində Yesi adını Qul Xoca Əhmədə verir.

Əhməd, Əhməd Yesəvi olur.

Yesəvi adıyla birlikdə Yesi də tanınmağa başlayır.

Lakin onda yaşayanın böyüklüyü özündən çox ucadır. Buna görə şəhər bir müddət sonra sakininin tituluyla xatırlanmağa başlayır.

Çünki Qul Xoca Əhməd:

Şah-ı Türkistandır;

Mah-i Türkistandır;

Və Pir-i Türkistandır.

Yesəvi Türkistanın piridir. Hətta Türkistanın mənəvi sahibidir. Türkiyə türkcəsində “Xoca Əhməd Yesəvi” olaraq söylədiyimiz “xoca titulu” Qazax dilində və əski Türk dilində “k” və “h” səslərinin ortaq birləşməsi ilə tələffüz edilərək “khoca” deyilir və “sahib” mənasını verir. Həvəskarcasına etimologiyaya baş vursaq, Türkiyə türkcəsindəki “xoca” və “koca” sözlərinin kökü “khoca” olmalıdır. “Xoca” elmin sahibi, “koca” evin, eşiyin və elin sahibidir.

Yəni bizim “Koca Yunusun” “kocalığı” ilə “Xoca Əhmədin” “Xocalığı”, Elin sahibi “Türkmən Kocalarının” “kocalığı” da eyni nəsnələrdir.

Dolayısı ilə Xoca Əhməd Yesəvi hər iki mənada Türkistanın sahibidir. Xalq “xoca” desə də incə irfani və təmiz vicdanıyla bu titulun əvvəlinə “qul” ifadəsini də əlavə edir.

Xoca Əhməd Kültəpənin üzərində ocağını qurur və könülləri işıqlandırır. Gözəli gözəllik içində təqdim edir. “Hikmətlər” adını verdiyi şeirləriylə Türk təsəvvüf ədəbiyyatının ilk yaradıcısı olur. Bu şeirlərində ayət və hədislərin daşıdıqları mənaları, xalqın başa düşə biləcəyi tərzdə dilə gətirir. Müqəddəs mesaj yüklü “Hikmətlər” dildən-dilə, könüldən-könülə dolaşır.

Hələ də xalq arasında əzbər bilinən “Hikmətlər” Anadoluda xüsusi günlərdə oxunan Süleyman Çələbi Mövludu kimi özünə uyğun bir qaydada dinlənilir. Mövlud Qəndilində və ya sünnət toyunda yaşlı bir adamın nə isə oxuduğunu görsəniz, bilin ki, Yesəvi Hikmətlərini söyləyir.

Xoca Əhməd Kültəpədə yanan atəşdən şərqə, qərbə qığılcımlar sıçradır... Orta Asiyadakı bütün Türk elində, hətta İdil-Ural, Qafqaz, Anadolu və Balkan Türkləri arasında onun “Hikmətlər”i oxunur, yetişdirdiyi qəhrəmanlar, onun metoduyla könüllərin yetişdirilməsini davam etdirilər. Başqırdıstanda Şeyx Hüseyn, Qafqazlarda Avşar Baba, Tokatda Gajgaj Dədə və Şeyx Hüseyn, Merzifonda Pir Dədə, Kırşəhərdə Hacı Bektaş, Bursada Geyikli Baba və Abdal Musa, İstanbulda Horoz Dədə, Filibedə Kıdemli Baba Sultan, Varnada Akyazılı Baba, Babadağda Sarı Saltuk Türk aləminə səpələnmiş və Kültəpədən aldıqları atəşi, hərarəti və aydınlığı getdikləri yerlərə saçmış Yesəvi qəhrəmanlarının ağsaqqallarındandır.

Xoca Əhməd Yesəvi 1166-cı ildə vəfat etdikdən sonra onun qəbrini Türk xalqları ziyarətə başlayır. Bundan başqa, Otrarın yox olmasından sonra artıq Yesi İpək Yolunun vaz keçilməz guşələrindən biri olur. Şərqdən-qərbə, şimaldan-cənuba gedən karvanlar həmişə Yesiden keçib gedir.

Yesi artıq əvvəlki Yesi deyildir.

O Ulu Türkistanın qor atəşi, Türk-İslam mədəniyyətinin toxumudur.

Yesi şəhəri Qul Xoca Əhmədə adını verirsə də, bir müddət sonra Yesəvi də öz şöhrətini şəhərə verəcəkdir. Yaşadığı və uyuduğu şəhər onun adıyla xatırlanacaqdır. Artıq Yesinin titulları:

Şehri Şahı Türkistandır;
Şehri Mahı Türkistandır;
Və Şehri Piri Türkistandır.

Şəhərin adı XV əsrin sonuna qədər Yesi olub. XVI əsrdə Yesiyə Türkistan deyilməyə başlanılır və XVII əsrdə artıq bütün mənbələrdə Yesidən Türkistan deyə bəhs edilir. O dövrün bir çox ziyalıları tərəfindən Türkistan, dönəmin məşhur şəhərləri Səmərqəndlə, Buxarayla müqayisə edilir. Hətta Babür dönəmində yaşayan Şair Şeybani kimi bəziləri üçün onlardan da ucadır:

"Övliyalar sərvəri ol Şahi Türkistan imiş,
Yer üzünün nuru tutqan Mahi Türkistan imiş,
Könlümə gəl gir diyormen ol Semerkand arzulap,
Bilmemişsen ey könül Dilhani Türkistan imiş".

ƏMİR TEYMUR, YESİ VƏ YESƏVİ

Yesiyə ən böyük maraq göstərən Türk xaqanlarının başında şübhəsiz ki, Əmir Teymur dayanır. "Biz ki, Ulu Türkistanın əmiri, Turanın başbuğuyuq" deyən Əmir Teymur o günə kimi təvazökar bir qəbir olan Əhməd Yesəvinin məzarını böyük bir abidəyə çevirir. Teymur Anadoluda səfərləri zamanı etdiyi "zalımlıqlarla" tanınsa da, elmə, sənətə və mədəniyyətə verdiyi əhəmiyyətə görə Türk tarixində onun kimisi azdır. Onun Yesəvi Türbəsini düzəltdirmək əmri verməsi və Əhməd Yesəviyə hörməti mövzusunda maraqlı rəvayətlər danışılır.

Rəvayətə görə, Xoca Əhməd Yesəvi bir gecə Əmir Teymurun yuxusuna girərək "Dərhal Buxaraya get, Buxara Xanının əcəli sənin əlindədir" deyir. Buxaraya səfər etməyi düşünən Teymur ertəsi gün hərəkətə keçir və böyük zəfər qazanır. Bu hadisədən sonra Əmir Teymur Yesəvi qəbrinin üzərində möhtəşəm bir türbə tikməyi əmr edir.

Teymurun özü də sufi olduğu üçün Əhməd Yesəviyə böyük hörmət etmişdir. Məşhur bir hadisəyə görə Teymur Osmanlı padşahı Yıldırımla Çubuk ovasında qarşılaşmağa hazırlaşarkən deyir ki: "Rum elinə hücuma keçəcəyim zaman Xoca Əhməd Yesəvi Divanından fal açdım və mənə bildirdi ki, başın dara düşəndə rübaimizi oxu. Bu rübaini əzbərləyib düşmən ordunun əsgərləri ilə qarşılaşdığımız zaman oxudum və zəfər qazandım". Körpülünün məlumatına görə, Teymur:

Yelda kiceni şems-i şebistan itkan (Uzun gecəni qəndil kimi aydınladan)

Bir lahzada alemni gülüistan itkan (Bir anda gecəni gül bağçası edən)

Ey barçanın müşkilini asan itkan" (Hər kəsin çətinini asan edən)

misralarını Yıldırım Bəyazidlə qarşılaşdığı zaman yetmiş dəfə oxumuş və döyüşdə qələbə çalmışdır.

Teymurun elmə və təsəvvüfə verdiyi əhəmiyyət öz türbəsindən də aydın olur. Türbəsində kimlərin öz qəbrinin yanında, hansı yerlərdə və necə dəfn ediləcəyini sağlığında müəyyənləşdirən Teymur, böyük xocasının öz qəbrinin baş ucuna, kiçik xocasının sağ tərəfinə, öz

oğlunun isə qəbrin ayaq tərəfinə dəfn edilməsini əmr etmişdir. Təsəvvüfdəki mürşidinin isə eyni məkan içində, hamıdan ayrı və daha yüksək yerdə dəfn edilməsini tapşırmışdır. Bu gün Səmərqənddə tapılan və qızıl ulduzlarla bəzədilmiş qübbəsi ilə dövrünün güc və ehtişamını əks etdirən Teymur Türbəsində, alt mərtəbədə tapılan sandıqçalar bölməsini ziyarət edə bilənlər, bu ibrətverici mənzərəyə şahid olurlar.

Teymur, elm və sənətə verdiyi dəyərlə Sırdərya və Amudərya arasındakı Türk mədəniyyətini yeni bir mərhələyə daşıyırdı. Fəth edilən hər yerdən elm və sənət adamları Səmərqəndə dəvət edilir, Səmərqənddə isə əkinçiliyə verilən dəyərlə oturaq Türk mədəniyyəti yüksəldilirdi. Teymurun o dövrdə tikdirdiyi suvarma kanallarından bəzilərinin hələ də istifadə olunması, bu işlərin nə dərəcədə yüksək səviyyədə görüldüyünün isbatıdır. Bu, oturaq həyata keçməklə yanaşı, daha çox köçəri Türk tayfaları arasında yayılan Yesəviyə təriqətinin əvəzinə də Nakşibəndiyə formalaşırdı. Formalaşan şəhər mədəniyyəti içində inkişaf edən bu yeni hərəkat hər nə qədər Əhməd Yesəviyə önəm vermiş olsa da, Yesəvi yolçuları arasında bir narahatlıq da yaradırdı. Əhməd Yesəvi Türbəsini tikdirməsi, Sırdəryanın şimalında daha çox köçəri halında yaşayan və böyük əksəriyyətinin ona tabe olduğu Türklər arasında Teymura etibar qazandırır. Çünki Teymurun oturaq və şəhər həyatına əhəmiyyət verən mədəniyyət həmləsi, Səmərqənd və ətrafında təsirini göstərərkən, Sırdərya çayının şimalında yaşayan Türklər keçmiş adət-ənənələrini və mədəniyyətlərini yaşadırdılar. Teymurun əsil məqsədi bu olmasa da, Əhməd Yesəviyə göstərdiyi böyük marağın, Sırdəryanın şimalındakı Türk boylarının tabeçiliyini qazanması istiqamətində son dərəcə faydalı olduğunu da gözdən qaçırmamaq lazımdır.

Böyük bir mədəni dönüşün liderliyini edən Əmir Teymur formalaşdırdığı və bilərəkdən istiqamətləndirdiyi mədəniyyət fərqliliyinə baxmayaraq, soy və boy olaraq ayrılıqları olmayan Sırdərya - Amudərya arasında məskunlaşan Türklərlə, Sırdəryanın şimalındakı köçəri Türk topluluqları arasındakı tarazlığı qoruyurdu. Bu gün də xan soyundan gəlməyə, başqa bir ifadə ilə ağ budundan olmaya çox önəm verən Sırdəryanın şimalındakı Türklərin irəlidə gedənləri, Səmərqəndlə bağlı olanlardır. Yörə ləhcəsi ilə "aksüyek" adlanan xanlar və Anadolu türkcəsində şahzadə deyilən "sultanlar", tez-tez Səmərqəndə gedir,

hətta bəziləri öz tayfaları ilə əlaqələrini davam etdirərək Səmərqənddə yaşayırdılar.

Teymurun Yesəvi Türbəsinin inşası üçün 1397-ci ildə başlatdığı işlər 1405-ci ildə böyük Türk Xaqanının Çin səfərinə çıxarkən vəfatı nəticəsində yarımçıq qalır və xüsusilə. türbənin ön tərəfi tamamlanmır. Teymurun tikdirdiyi əsərlə Türkistan Şəhəri bir az daha məşhurlaşır və bu dönəmdə Sırdərya çayının cənubu və şimalında yaşayan Türk xalqları arasında mənəvi bağ yaradaraq birliyi təmin edən ən mühüm amillərdən biri olur.

SİBİRLİ FƏTİHÇİ ŞEYBANİLƏR VƏ TÜRKİSTAN ŞƏHƏRİ

Böyük Teymurun öz soyu xan şəcərəsindən, yəni ağ budundan olmasa da, özünü "əmir" adlandırır. Şeybanilər isə Qızıl Orda xanlarından Özbək xanın soyundan idilər. Qızıl Orada dövlətində Özbək xanın soyunun hakimiyyətinə verilən Sibirin Tura şəhərində hökmranlıq edən onlara tabe Türk boyları Menqırt, Qaraqalpaq və Naymanlar ilə birlikdə Orta Asiyaya gəlirlər. Şeybani xanlarının ilki - Əbul Hayır Xan 1428-ci ildə Turada (bu günkü Tobolsk bölgəsi) taxta çıxır və 1468-ci ilə kimi 40 il hökmranlıq edir.

Ruslar Qızıl Ordanın dağılmasından yaralanıb Sibirə doğru irəliləyərkən Ebul Hayır Xan da, Sibirdən Sırdəryaya doğru istiqamət götürür və bütün Dəşti Qıpçağa sahib olur. Bu illərdə Teymurilər öz aralarındakı çəkişmələr üzündən ardıcıl güc itirirdilər. Dəşti Qıpçaqdakı Qazaxlar isə mühüm bir güc idi. Ebul Hayır xan Qazaxları hakimiyyəti altında saxlamaq istəyərkən həyatını itirir. Onun yerinə oğlu, Məhəmməd Şeybani keçir.

Məhəmməd Şeybani hansı xana tabe olacağını bilmədən bir müddət səhrada at çapır. Bu zaman Çingizin varisi olduqlarını iddia edən iki xan birdən hökmdarlıq edirlər. Daha sonra Şeybani Mahmud Xana tabe olmağa qərar verir. Mahmud xan bu hərəkətinə görə Məhəmməd Şeybaniyə Türkistan şəhərini 1495-ci ildə hədiyyə verir. Bu hadisə Türkistan şəhərinin, o cümlədən Orta Asiyanın da taleyini dəyişdirəcək qədər mühüm əhəmiyyət kəsb etmişdir.

Türkistan şəhərində mərkəzini yaradan Məhəmməd Şeybani, 5 il sonra, yəni 1500-cü ildə cənuba doğru hərəkət edərək Teymurilərin paytaxtı Səmərqəndi ələ keçirir. Hüseyn Baykaranın vəfatından sonra isə 1507-ci ildə Heratı alır. Beləliklə, İranda hakimiyyətdə olan Səfəvi hökmdarı Şah İsmayıl ilə qonşuluğa və eyni zamanda Osmanlılar ilə də müttəfiqliyə başlamış olur.

Osmanlı Sultanı Yavuzun, Şah İsmayılı məğlub etməsində Şeybanilərin böyük payı vardır. Əslində Osmanlı ordusundan daha güclü olan Şah İsmayılın əsgərləri qərbdən Osmanlı, şərqdən isə Şeybani basqısı altında qalırlar. Yavuz ordusuyla səfərə çıxdığı zaman Şeybanilər də Səfəvi sərhədinə əsgər toplayırlar. Şah İsmayıl ordusunu

iki hissəyə bölmək məcburiyyətində qalır və əsgərlərinin bir hissəsini Şeybanilərə qarşı şərqə göndərir, qalanları ilə Osmanlının qarşısına çıxır. Yavuz Şah İsmayılı bu ordusuyla məğlub edir. Bu, Osmanlı-Şeybani ittifaqı iki dövlət yıxılana qədər davam edəcəkdir. Şeybanilərlə birlikdə bölgəyə Özbək adı da daxil olmuş olur. Özbək sözü, Özbək Xan soyundan gələn Şeybanilərə tabe xalq tərəfindən mənimsənilərək xalqın adına çevrilir.

Bu dönəmdə Ulu Türkistanda Qazax və Özbək ayrılması əməlli–başlı kəskinləşəcəkdir. Sibirdən Orta Asiyaya doğru yürüşlərində buradakı Qazaxlarla mübarizələrində xanlarını itirən Şeybanilərlə Qazaxların arası bir daha Teymurilər dönəmi Mavera ün nehir və Dəşti Qıpçaq əlaqəsinə dönməyəcəkdir. Qazaxlar da, şimaldan gəlib öz yurdlarında rahatlıqlarını pozan və daha sonra cənuba keçən Şeybanilərə heç yaxşı baxmayacaqlar.

Qeyd olunanlardan Özbək adı və kimliyinin, bir soy və boy adı və kimliyi deyil, siyasi quruluşun xalqa qazandırdığı bir kimlik olduğunu söyləmək mümkündür. Belə ki, yüz illərlə İdil-Ural bölgəsi və Sibirdə Özbək Xanın və onun soyundan gələnlərin tabeçiliyində hərəkət edən Qaraqalpaqlar, əgər Şeybanilərlə birlikdə Orta Asiyaya gəldikləri zaman onlardan ayrılıb Qazaxların yanında yer almasaydılar, bu gün biz onlara da Özbək deyəcəkdik.

Daha sonrakı illərdə Şeybanilərin birliyi pozularkən onların içindən çıxan qollar Buxara, Xivə və Hokant Xanlıqlarını yaradırlar. Bu dönəmdə Osmanlı-Şeybani ittifaqı da Osmanlı-Buxara ittifaqına dönür.

Buxara Xanı Abdullah Xan 1582-ci ildə babası Məhəmməd Şeybaniyə verilən və ona Mavera ün nəhrinin qapılarını açan Türkistan Şəhərinə gəlir və xalq ona tabeçiliyini bildirir. Abdullah Xan Yesəvi Türbəsinin Teymur dönəmində yarımçıq qalan hissələrini tamamlayır. Türkistan bu tarixdən etibarən Abdullah Xanın vəfatına qədər onun təyin etdikləri insanlar tərəfindən idarə edilir.

TÜRKİSTAN ŞƏHƏRİ, QAZAX XANLARI VƏ SONRASI

Teymurun ağıllı siyasətiylə aralarında oturaq və köçəri mədəniyyəti fərqliliyinin olmasına baxmayaraq, eyni soydan olan xalqlar bir yerdə saxlanıla bilərkən, daha sonralar Sırdəryanın şimal və cənubunun yolları ayrılır. Canıbek və Kerey Sultanlar, Sırdəryanın şimalına keçərək, buradakı Qazaxları təşkilatlandırmaya başlayır. Bu yol ayrılığı daha sonrakı illərdə Qazax Xanlığının yaranmasına səbəb olur.

Türkistan şəhəri və bölgəsi bu qopmanın keçid hissəsindədir. Şəhərin 30 kilometr şimalındakı Qaradağlar ilə 35 kilometr cənubunda yerləşən Sırdərya arasında qalan bölgə yəni, Qazaxlara görə "Sır boyu", bu oturaq və köçəri mədəniyyətinin birlikdə yaşandığı ərazidir. Kerey və Canıbek Xanlarının özlərinə paytaxt olaraq seçdikləri Sığınak şəhəri də bu keçid mədəniyyətinin yaşandığı Sır boyu ilə şimaldakı səhralarda köçəri halda yaşayan Qazaxlar arasında düz keçid nöqtəsindədir. Sığınak şəhərinin bugünkü yeri Qızıl Orda Vilayətinin, Jangakorqan Quberniyası, Tömənarık kəndinə 20 km məsafədə yerləşir. Daha sonra cənubda hökmranlıq edəcək Şeybanilərin ilk xanı, bu Sığınak şəhərinin hücumu zamanı vəfat edir.

Türk tarixi üçün mühüm bildiyimiz bir hadisəni də burada söyləməyin faydası vardır. XIV əsrdə Sığınak şəhərinə gedən səyyah İbn Ruzbehan, "Sığınak xalqı arasında Türklər, Qazaxlar və Qaraqalpaqlar yaşayır" deyə məlumat verir. İbn Ruzbahanın bəhs etdiyi Sığınaqda yaşayan xalqlardan Qaraqalpaqlar Şeybanilərlə birlikdə hərəkət edərək Sibirdən cənuba enən qruplardan biri olmaqla bərabər, daha sonra Şeybanilərlə birlikdə hərəkət etmək əvəzinə, Qazaxlarla bərabər olmağa üstünlük vermişlər. Bu ittifaq Qazax xanı Teuke Xan dönəmində "Altı Alaştan birisi" sayılacaq qədər yaxınlaşmışdır. Bu gün də Qazax xalqının özünə ən yaxın hiss etdiyi Türk xalqları arasında ilk yerləri Qaraqalpaqlar və Qırğızlar tuturlar. Sığınaqda Türk olaraq adlandırılanlar isə müxtəlif Türk xalqlarından oturaq həyata erkən keçən xalqın ortaq adıdır.

Qazax kimliyinin meydana çıxışı da Özbəklərdən fərqli deyildir. "Qazax" sözünün əsas anlamı "nüfuz tanımayan və öz başına buyruq" deməkdir. Sırdəryanın şimalındakı Canıbek və Kerey Sultanlarla

başlayan hərəkatların və bu hərəkata qatılanların ilk adı "Özbək Qazaxları" olmuşdur. Uzun illərin əmələ gətirdiyi oturaq və köçərilik mədəniyyət fərqliliyinə də yerləşən bu hərəkat daha sonra öz dövlətini və kimliyini yaratmışdır.

Türkistan şəhəri XVII əsrdən başlayaraq Ulu Türkistanda yeni və mühüm dəyişikliklərin mərkəzi olacaqdır. Türkistan bu tarixdən etibarən Qazax Xanlarının paytaxtı olur ki, bu hadisə Türkistanın Əhməd Yesəvi və Şeybanilərdən sonra Türk tarixinə atdığı üçüncü böyük imza olacaqdır.

Türkistandakı Qazax xanlarının ilki Esim Xandır (1598-1628). O, göstərdiyi xidmətlərlə tanındı. Xalq arasında söylənən "Esim salqan (etdiyi) qədim yol" sözü onun xidmətlərinin yayılmasına işarədir. Esim Xandan sonra sırayla oğlu Cahangir (Jihanger), Batır Xan taxta çıxdılar. Bunlardan sonra 1680-ci ildə taxta çıxan Teuke Xan Qazaxlar arasında ilk dəfə qurduğu şura ilə dövlət həyatında yeni bir mərhələni başlatdı. Bu gün daxil xalq arasında yayılan "Altı Alaş" fikri bu mərhələdə formalaşdı. Altı Alaşın içinə:

1. Şərqi Türkistanda yaşayan Qazax qrupları, Ulu Cüz;
2. Orta Qazaxıstanda yaşayan Qazax qrupları, Orta Cüz;
3. Qərbi Qazaxıstanda yaşayan Qazaxlar, Kiçik Cüz;
4. Qırğızlar;
5. Qaraqalpaqlar;
6. Giyat və Kataqan kimi qruplar daxil idi.

Bu qrupların hamısı Teuke Xana tabeydilər və bu dönəmdə Ulu Cüzü təmsil edən Töle Bi (bey), Orta Cüzü təmsil edən Kazıbek Bi, Kişi Cüzü təmsil edən Ayteke Bi, Qırğızlardan Goqırım Bi, Qaraqalpaqlardan Sasık Bi, Türkistan şəhərindəki şurada Xanın yanında idilər. Bu dönəm Qazax Xanlığının ən parlaq illəri oldu.

Kayıp Xan Bolat Xanlarla davam edən Qazaxların bu birlik dövrü Monqol qrupu Jonqarlarla 1723-cü ildə məğlubiyyətləriylə sona çatdı. Şərqi Türkistan və Ulu Cüz Jonqarların əlində qaldı. Bundan sonra Orta və Kiçik Cüzlər ayrı-ayrı xan müəyyənləşdirdilər. Teukenin nəvəsi Sameke Xan 1726-cı ildə Orta Cüzün Xan oldu və xanlığın mərkəzi yenə Türkistan şəhəriydi.

Kiçik Cüzün xanı isə Ebul Hayır oldu. Kiçik Cüz Rusiyaya qonşu olaraq yaşayırdı. Odur ki, Qazaxların bu zəif vaxtında Kiçik Cüzün

Xanı Ebul Hayır 1731-ci ildə ruslarla müqavilə imzalayaraq onlara tabeçiliyini bildirdi. Bu tarixdən sonra Türkistan şəhəri müstəqil, tək Qazax xanlığının mərkəzi olmaqla yanaşı, bütün Qazaxların Rusiyaya qarşı apardıqları istiqlal mübarizəsinin də mərkəzinə çevrilir. Sameke Xandan sonra taxta Abdulməmməd Xan çıxır. Abdulməmməd Xan öz razılığıyla Xanlığı 1739-cu ildə Abılay Xana təhvil verir. Abılay Xanın ruslara və monqollara qarşı qazandığı zəfərlər xalq arasındakı etibarını kifayət qədər artırır. Abılay Xan bu mübarizəsində yalnız Qazaxların deyil, rusların əlinə keçən digər Türk xalqlarının da müstəqilliyini düşünə biləcək qədər geniş ağıllı, milli şüuru sağlam, böyük bir xan idi. Tarixçi professor Mehmet Saray Osmanlı Arxivində apardığı tədqiqatlar zamanı Abılay Xanın Osmanlı padşahına yazdığı məktuba rast gəlir. Məktubda Abılay Xan "Bizim şimalımızda Başqurd isimli, əhli sünnətdən bir xalq yaşayır. Bunlar ruslara əsir düşüblər. Qazax Xanlığının və Osmanlı İmperatorluğunun güclərini birləşdirərək Başqırdları rus əsarətindən xilas edək" deyir. Bu sənəd Abılay Xanın təkbaşına nə qədər böyük bir siyasi məqsədi olduğunun yetərli isbatıdır. Bu səbəbdən də, bu gün Qazaxlar arasında Abılay adı milli birliyin, istiqlal və hürriyyətin bayrağını hər zaman ucada tutmağın bir simvoludur.

1771-ci ildə bütün Qazaxların boylarından gələn bəylər, xanlar, qəhrəmanlar qısası, Qazax xalqının qabaqcıl adamları Türkistan şəhərində toplaşırlar və Yesəvi Türbəsinin Böyük Aksaray salonunda toplantı keçirirlər. Bu toplantıda təmsilçilər həmfikir olaraq apardığı böyük mübarizə və bunun sayəsində artan etibarı ilə Abılayı bütün Qazaxların xanı elan edib "Ağ otağa" oturdurlar. Abılay Xan 1781-ci ildə vəfat etdikdən sonra taxta Vəli xan çıxır və onun dövrü uzun sürmür və Türkistan yeni macəralara sürüklənir.

Türkistan 1785-ci ildə Buxara xanı MirŞahmuradın əlinə keçir. Şahmurad Türkistanı əlində çox saxlaya bilmir. Daşkənddə hökmranlıq edən Yusif Xoca 1799-cu ildə Türkistana daxil olur. Yusif Xocanın vəfatından sonra Türkistan təkrar Buxaraya tabe olur. 1819-cu ilin yayında Türkistan Xokant Xanı Ömərin əlinə keçir və 12 iyul 1864-cü ilə qədər Xokantın tabeçiliyində qalır. Ömər Xanın Türkistanı aldıqdan sonrakı hərəkətləri, o dövrdəki dövlətlərin Türkistan şəhərinə niyə bu qədər maraq göstərdiklərinin də açıqlamasıdır.

Ömər Xan “Xoca Əhməd Yesəvini ziyarət edəcəyəm” deyərək Türkistana qabaqcıl əsgərlər göndərir. O dönəmdə Türkistanın başında Buxara Xanlığının təyin etdiyi Qazax Törəsi Tokay Törə dayanırdı. Ömər Xanın əsgərləri səhərə yaxın yatan növbətçiləri əsir alıb şəhərin qapısını açır və xalq yuxuda ikən Türkistanı döyüşsüz ələ keçirir. Tokay Törə uşaqlarıyla birlikdə fürsət tapıb Buxaraya qaçır. Bundan sonra Ömər Xan ordusuyla Türkistana gəlib ətrafdakı Qazaxları da özünə tabe etdirir. Ömər Xan Türkistanda Yesəvi Türbəsində bir müddət qalır və 70 qoyun qurban kəsir. Ömər Xan ziyarətindən sonra Şihalbtalı Türkistanı idarə etmək üçün məsul edib Xokanta qayıdır. Ömər Xan Xokanta daxil olan zaman böyük şənlik edilir. Xan xalqa gümüş axçalar paylayır və şəhərin qabaqcıl adamlarını bir yerə yığaraq özünü “Emirül-Müslimin” elan etdirir. Tac qoyur və yeni tituluyla möhür düzəltdirir. O, artıq özünü Çingiz Xan və Teymurilərlə bərabər tutur.

Qeyd etmək lazımdır ki, Türkistan şəhərinin hakimiyyətini almaqla özünə Əmirül-Müslimin titulu verməyə haqq görə bilən Ömər Xanın bu davranışı, bu şəhərin nə dərəcə mühüm olduğunun da gözəl izahıdır. Buxara Xanlığı da Türkistanın əlindən getməsini asan qəbul edə bilmir və Tokay Törə Buxaradan qoşun götürüb təkrar Türkistana gəlsə də, müvəffəqiyyət qazana bilmir. Bu uğursuzluqların əvəzini Buxarada canıyla ödəyir.

1821-ci ildə Tentek Törə isimli Qazax Törəsi Xokantdan ayrılmaq istəyir. Buna görə Ömər Xan Ebulqasımın başçılığı ilə ordu göndərir. Tentek Törə 12 min adam toplayaraq Sayramda Ebulqasımı qarşılayır, ancaq məğlub olar.

Türkistan 1864-cü ili təkrar Xokantdan ayrılmaq istəsə də, yenə müvəffəqiyyət qazana bilmir. Şəhər eyni il, 12 iyun 1864-cü ildə rusların əlinə keçir. Bu arada Abılay Xanın nəvələrindən və Kensarı Xanın oğlu Sadık Törə də Türkistanın rusların əlinə keçməməsi üçün adam toplayıb döyüşə qoşulur.

ÇARLIQ VƏ SOVET DÖNƏMLƏRİ

Rus ordusu 1864-cü ildə iyun ayının əvvəllərində Türkistana hücuma keçir və Əhməd Yesəvi Türbəsi yox olmaq təhlükəsi ilə üz-üzə qalır. Türkistan şəhəri bu hücuma 12 gün davam gətirir. Hücum zamanı rus topçularının atəşindən türbə 11 yerdən zərbə alır. Ruslar şəhər təslim olmazsa, türbəni yıxacaqları ilə təhdid edirlər. 12 gün hücuma davam gətirən şəhərin qabaqcıl adamları bu təhdidlərin həqiqət ola biləcəyini görüncə ağ bayraq qaldırmaq məcburiyyətində qalırlar. Ruslar Türkistan şəhərini işğal edərkən Yesəvi Həzrətlərinin xalq üzərindəki dərin mənəvi təsirini istifadə etdikləri kimi, daha sonrakı illərdə xalqı öz yanlarına çəkmək üçün də bu amili dəyərləndirirlər.

Qaynaqlar Türkistanın işğalından sadəcə 5 il sonra A.Kun isimli bir tarixçinin, 1871-72-ci illərdə orijinal fotolarla Türkistan albomu hazırladığını bildirir. O illərdə dünyada tarixi sənət əsərlərinə olan maraq da artırdı. Bu gün Yesəvi Türbəsi Muzeyinin arxivində bir neçə surətini görə bildiyimiz bu şəkillərdə türbənin ətrafı uçuqlarla dolu görünür. 1884-cü ildə Çar idarəsi Türbənin təmiri üçün böyük miqdarda pul ayırır, lakin bu təmir nəticəsində türbə pozulur. Çarlığın bu səyi müsbət nəticə verməyincə, 1907-ci ildə xalqdan yardım toplanaraq təmir işlərinə başlanılır. 1910-cu ildə təkrarlanan bu kampaniya ilə bəzi bölmələr təmir olunur.

Ruslar 1875-ci ildə Türkistanda yeni şəhər planını müzakirəyə çıxarırlar. Yesəvi Türbəsinin şimal şərqinə əsgər qarnizonu və onun ətrafına da zəruri tikililər inşa edirlər. Yeni şəhər bir-birini kəsən iki prospektə yol açılan küçələrdən əmələ gələcəkdi. Daha sonra cənub şərq nöqtəsində birləşməli olan yeni şəhərlə qədim Türkistanın haradasa əlaqələri yoxdur. Bu gün Türkistanın İcra Hakimiyyəti, məhkəmə, vergi idarəsi kimi qurumların olduğu bölgə bu yeni şəhər səmtindədir.

Türkistan üçün mühüm inkişaf istiqamətlərindən biri də 1901-1902-ci illərdə şəhərdən 4,5 km qərbdə Daşkənd-Orenburq dəmiryolu üzərində stansiya qurulmasıdır. Bu illərdən etibarən stansiyanın ətrafında Barisofka adıyla bir kənd yaranır. Stansiya kəndi başlanğıcda şəhərdən ayrı ikən, 1909-cu ildə stansiyadan şəhərə doğru uzanan bir prospekt salınır. Bu prospekt daha sonrakı illərdə Türkistanın ən hərəkətli bölgəsi olacaqdır. Stansiya prospekti inkişaf edir və 1960-cı illərdə isə stansiya şəhəri ilə Türkistan birləşir.

Qazax xalqının ilk milli mətbuat orqanlarından olan "Qazax Qəzeti"ndə 1913-cü ildə Böyük Qazax milliyyətçisi Mircakıp Dövlətin "Həzrət Sultan" başlıqlı yazısı o günlərdəki Türkistan şəhəri ilə bağlı mühüm məlumat verir. "Həzrət Sultan" bu gün də Əhməd Yesəvi üçün Qazaxlar arasında tez-tez istifadə olunan ifadələrdən biridir. Mircakıp o illərdəki Türkistana olan marağı və xalqın vəziyyətini aşağıdakı kimi təsvir edir:

"Hansı yörənin Qazaxı olursa olsun, hər Qazax Həzrət Sultan adını bilir. "Həzrət Sultana gedirik" ifadəsi Qazaxlar arasında tez-tez işlədilir. Həzrət Sultanı ziyarətə istəkli təqva əhli və sufilər, Qazaxlar arasında çoxdur. Həzrət Sultana baş çəkib qayıdanlar həccə gedənlərdən etibar cəhətdən bir az olurlar. Onlar ziyarətlərini həcc qiyafətləri içində edirlər və məmləkətlərinə o geyimlərlə dönürlər. Xalq onlara Məkkədən gələn hacılar kimi hörmət edib əllərini sıxır. Qazaxlar Türkistana belə hörmət göstərsələr də, Həzrət Sultanın orada olduğunu bilsələr də, əksəriyyət onlar haqqında çox az şey bilir. May ayının birində Daşkəndə gedərkən mən də Türkistana dönüb Həzrət Sultanı ziyarət etdim.

...

Hazırda Həzrət Sultan Türbəsinin hər tərəfi yarılmış və uçacaq kimi bir görünür. "Xoca Əhməd Yesəvinin nəsliyik" deyə yüz illərdir türbəyə sahib çıxaraq bura gələn ziyarətçilərdən faydalanan xocaların, türbənin sonsuza qədər yaşaması üçün bir iş görməyə niyyətləri yoxdur. 1910-cu ildə "Xoca Əhməd Yesəvi Türbəsini təmir edəcəyik" deyərək xalqdan külli miqdarda (12 min som) vəsait toplandı. Kozloviski adında bir mühəndis təmir işlərinə başladı. Daha işin onda biri belə bitmədən xocalar mühəndislə dalaşıb onu geri göndərdilər. Onlardan hesab soran heç kim yoxdur. Xocalar kənd-kənd gəzib Qazaxlardan Türbənin təmiri üçün mal toplayırlar." Mustafa və Gulamkadir adlanan xocaların 1910-cu ildə Atbasar yörəsi Kayıtavıl adlanan kənddən topladıqları pulları nə etdikləri məlum deyildir. Yenə Evliyaata yörəsi Qazaxı, Botbay Boyundan Hurməhəmməd Beki oğlu isimli bir varlı, Həzrət Sultanın ziyarətinə böyük miqdarda pulla gedir və Şuham adlı Xocaya, 100 atla birlikdə çoxlu pul verir. Onun da nəticəsindən xəbər yoxdur.

...

Bu hadisələr də göstərir ki, Türkistanlı Xocaların Türbəni təmir etdirməyə niyyətləri yoxdur. Türkistan rəhbərliyindəki müsəlmanları

başqa işlərdə çox məsuliyyətli olsalar da, xocaların bu hərəkətlərinə niyə etiraz etmədiklərini heç cür anlamadıq.

Hazırda icra hakimiyyətinin qərarıyla türbənin bəzi hissələri təhlükəli adlandırılaraq ziyarət üçün bağladılmışdır. Abılay Xanın tikdiyi bölmə Aksaray adlanan bölmə, müsafirxana və türbənin quyusu bağlıdır. Bu türbənin idarəsi xocalarda olduğu müddət ərzində xalqdan milyonlarla pul toplansa da, faydası yoxdur. Türbənin tarixi bir xatirə olduğunu düşünüb sonsuza qədər qalmasını istəyənlər onun təmiri və idarəsini bir Arxeologiya İnstitutuna verməlidirlər. Xalqdan toplanan pulun qəpiyinə zərər gəlməmək şərtiylə bu institut mühəndislərlə təmirə başlamalıdır. Bu məqsədin reallaşması üçün başqa çarə yoxdur. Bu günə qədər beş-altı əsr yaşayan Xoca Əhməd Yesəvi Türbəsinin yerində gələcəkdə böyük bir torpaq yığınını görmək qəribə bir iş olmayacaq.

Türkistana olan xalqın marağına bir başqa nümunəni də Qazax Qəzetinin 1915-ci ilin mart ayında nəşr olunan başqa saylarından görmək olar: Türkistan şəhərini inkişaf etdirmək üçün Peterburqda bir bank hesabı açılır. Qəzet "Ötegenoğlu Sadık və Bayzakoğlu Mevlenkul adına açılan hesaba arzu edən müsəlmanların yardım edə biləcəklərini" yazır. Türkistandan xəbəri qələmə alan Mahmud Mirzənin ifadələrinə görə, "bu yardımlar bir komissiya vasitəsilə Türkistanda məktəb açılması və hazırlanan bir kitabın nəşr olunması üçün istifadə ediləcəkdir. Ayrıca, mətni Türkistanlı Süleyman Mirzə tərəfindən qələmə alınan "Ak Jayna Karar taptı" (Ak Parıltı qərar verdi) isimli tamaşa Türkistanda səhnələşəcəkdir".

1917-ci il inqilabından sonra paytaxtı Daşkənd olan "Türkistan Cümhuriyyəti" və daha sonrakı illərdə Qazaxıstanın yaranmasıyla Əhməd Yesəvi Türbəsinə böyük maraq göstərilir. Mərhələ-mərhələ Özbəkistanla da türbənin təmiri mövzusunda işbirliyi aparılır. Milli və mənəvi dəyərlərinin ortadan qaldırılıb sovetlərin "homo sovyetikus yaratma" istiqamətindəki məlum mədəniyyət siyasətləri və təzyiqləri altında aparılan bu çalışmalar heç cür təqdir oluna bilməz.

MÜSTƏQİLLİKDƏN SONRAKI TÜRKİSTAN

“Türkistan, iki dünya eşiğidir!
Türkistan, ər Türkün beşiyidir!
Gözəldir Türkistanda doğulmaq,
Türkün Tanrıdan gələn nəsibidir”.

Qazax şairi Maqcan Cumabayın bu sətirləri, Türkistan şəhərinin girişində böyük lövhə üzərində bizi qarşılayır. Türk xalqlarının birliyini arzulayan Maqcanın bu sətirlərindəki niyyəti yəqin ki, Ulu Türkistandır. Ancaq onu Türkistan şəhəri olaraq dəyərləndirsək də, yanılmarıq. Türkistanlılar da onu belə dəyərləndirib ana yolun kənarında böyük lövhəyə yazıblar.

Türkistanlıların qurur duyduqları sözlərdən biri də Qazaxıstan Prezidenti Nursultan Nazarbayevə aiddir: “Dünən Türklük aləminin mənəvi mərkəzi olan Türkistan şəhəri, bu gün mədəniyyət və sənət mərkəzi olmaq yolundadır”. Doğrusu, Türkistanlılar Ölkə Prezidentinin bu sözü çox şüurlu şəkildə söylədiyini bilirlər, çünki Qazaxıstan müstəqilliyini qazanan kimi görülən ilk işlərdən biri, əsrlər boyu Türk aləminin mənəvi mərkəzi olmuş bu şəhərdə “Türkistan Universiteti” adıyla bir universitet yaratmaq oldu. Qazaxıstanda universitet yaradılarkən, yaranma qərarını baş nazirin imzalaması kifayət ikən, Türkistan Universitetinin qərarını şəxsən Nazarbayevin özü imzalayıbdır. Bu simvolik münasibət çoxmənalıdır. Bu zaman, vaxt itirilmədən, Türkistan şəhərinin idarəetmə statusu yüksəldilir. Daha əvvəl qəsəbə səviyyəsində bir idarəetmə quruluşuna malik olan Türkistan inkişaf etdirilərək qabaqcıl rayonlardan biri halına gətirilir.

Türkistan şəhərinə verilən əhəmiyyətin xüsusi səbəbi əlbəttə, yenə Xoca Əhməd Yesəvidir. 1913-cü ildə Qazax Qəzetində Mirjakıp Dövlətin irəli sürdüyü fikir kimi, Yesəvi Türbəsini Qazaxıstan Arxeologiya İnstitutunun nəzarətində sonsuza qədər yaşatma cəhdi və marağı başlayır. Bu türbə tarixinin ən ciddi bərpa işi olur və 24 dekabr 1992-ci ildə Türkiyə ilə Qazaxıstan arasında imzalanan müqavilə ilə başlayır. 1999-cu ildə tamamlanan təmir-bərpa işləriylə Türküyə Türk mədəniyyət tarixinə çox ciddi bir qatqı edir. Zəhməti olan hər kəsi təbrik etmək lazımdır.

Doğrusu, Türkistan özünə verilən xüsusi əhəmiyyətin digər nəticələrini də almaqda gecikmir. Ətrafındakı o biri şəhərlər kiçildiyi, o yerlərdə yaşayanların adambaşına düşən milli gəlir payı azaldığı halda, Türkistanda həm əhalinin sayı, həm də xalqın rifahı yüksəlməyə başlayır. Sovetlərin dağıldığı dönəmdə yetmiş yeddi min olan Türkistan əhalisinin sayı müstəqilliyin ilk on ilində daha on min nəfər artır. Bunlar əlbəttə, şəhərə verilən xüsusi əhəmiyyətin nəticələri və müstəqil Qazaxıstan yaşadıqca Türkistanı gözləyən aydın gələcəyin ilk təzahürləridir.

Beləliklə, müstəqillikdən sonra yeni bir dönəmə daxil olan Türkistan şəhərinin inkişafının ilk görüntüləri hələ şəhərə girərkən belə nəzərə çarpır. Şəhərin Çimkənd adlanan girişində yolun sağında və solunda, bəziləri yeni tamamlanmış, bəzilərinin hələ də tikili halında olduğu, onlarla kərpic ev diqqətləri çəkir. Qazaxıstan ərazisində hər hansı bir şəhərdə bu yeni inşaat mənzərələrinə kütləvi halda rast gəlmək mümkün deyildir desək, mübaliğə etmərik. Yenidən formalaşdırılmağa başlayan bu bölgə icra hakimiyyətinin şəhər planında məskunlaşmaq üçün nəzərdə tutulan yeni ərazilərdir. Sovet dönəmindən sonra Türkistanda da icra hakimiyyəti və bələdiyyə orqanlarının funksiyalarını, adına "İcra Hakimiyyəti" deyilən bir qurum idarə edir və şəhərin idarəçisinə də "icra başçısı" deyilir. İcra Hakimiyyəti yeni evlənənlərə, şəhərə yeni köçənlərə bu bölgədən 500 metr torpaq ərazi verir və xalq da öz imkanları ilə evlərini tikir.

Bu yeni məskunlaşma bölgəsini keçərkən yolun sağ tərəfində 1993-cü ildə bir müqavilə ilə Türkiyənin də ortaq olması nəticəsində yaranan və şəhərin son dövrdə inkişafında əsil lokomotiv rolunu oynayan "Xoca Əhməd Yesəvi Türk-Qazax Universitetinin" ərazisi gəlir. Universitetin qarşısında isə yüksək həyət divarlarıyla əhatə olunan kərpic evlərdən ibarət olan Türkistanın böyük məhəllələrindən "Yesi" gəlir. Bu məhəllənin müstəqillikdən əvvəlki adı "Kommunizm məhəlləsi" imiş. Məhəllə sakinlərinin ortaq təklifi və icra hakimiyyətinin qərarı ilə adı "Yesi" olaraq dəyişdirilmişdir. Beləliklə, şəhərin tarixi adlarından biri bir məhəllədə də olsa, təkrar yaşadılmağa başlanmışdır. Yesi məhəlləsi yolun sol tərəfində şəhərin içinə Yesəvi Türbəsinin şərq cəbhəsinə, Kültəpəyə qədər uzanır. Hazırda Türkistan şəhəri köhnə, yeni, bütün bu hissələrin ahəng içində bir araya gəldiyi

orta böyüklükdə bir şəhər olaraq, Orta Asiya səhrasının ortasında həyatına davam edir. “Ordularının keçdiyi yerdə ot bitməz” deyilən, monqol əsgərləri tərəfindən yandırılan Kültəpə isə hələ də boşdur. Qoruq ərazisi olaraq tarix tədqiqatçılarının ixtiyarına verilmişdir. Doğru olan bu qərarla Kültəpənin əbədi boş qalacağı görünür və xalqın monqollar haqqındakı fikri bir daha özünü isbatlayır.

YESİ MƏHƏLLƏSİ

Türkistan şəhərinin Çimkənd girişindəki Yesi Orta Asiyanın ənənəvi memarlıq üslubunda tikilmiş evlərdən ibarət bir məhəllədir. Hər ev, bağçasıyla birlikdə təxminən 500 metrlik torpaq ərazidə tikilmişdir. Bir mərtəbəli kərpic evlərin həyət divarları da evlərin divarlarının hündürlüyünə yaxındır və bütün bağçanı boydan-boya örtür. Həyətin yüksək divarlarının küçəylə əlaqəsini təmin edən böyük qapılar vardır. Bu qapılar iki hissədən ibarətdir: biri gündəlik istifadə üçün insanların asan şəkildə girib-çıxmaqları üçün qoyulmuş, Anadolu kəndlərində "qoltuq qapı" adlanan kiçik qapıdır, digəri isə avtomobillərin daxil ola biləcəyi genişlikdə iki yana açılan böyük qapılardır. Əgər ailənin avtomobili varsa, həyətin qapı girişindəki qismi eyni zamanda qaraj vəzifəsini də yerinə yetirir. Bu səbəbdən bəzi qapıların üstü avtomobili kölgələyəcək qədər örtülüdür. Həyətin qalan hissəsi isə bostan olaraq istifadə edilir. Pomidor, badımcan, bibər kimi tərəvəzlər və bəzi meyvələr burada yetişdirilir.

Həyət divarlarının bu hündürlüyü təhlükəsizlik səbəbiylə yanaşı, ailə yaşantısının məhrəmliyindən qaynaqlanır. Çünki bu evlərin həyətləri də evin bölmələrindən sayılır. Hər həyətdə yay gecələrinin sərinliyinin səfasını çəkmək üçün qurulmuş, yerdən ayrı, yarım metr hündürlüyündə ayaqlarla yüksəldilmiş, 5-6 metr ərazi genişliyində və adına "dəstərxan" deyilən istirahət yerləri mütləq vardır. Dəstərxanlar ətraflarına basdırılan üzüm asmaları və ya sarmaşıqlarla yaşıllandırılıb kölgələndirilərək, gündüzlər oturub söhbət etmək, ailənin yemək yeməsi üçün məkan halına salınır. Ailənin bağçaya əkdiyi çiçəklərin böyük bir hissəsi, mütləq dəstərxanın ətrafındadır. Çiçəklər içində yeddiverən güllərinə və özünə məxsus gözəl ətri olan reyhanlara üstünlük verilir. Bahar gələndə qonaqlar dəstərxan üzərində içilən çaylarla qarşılanır. Hətta, gecələr dəstərxanlar yay gecələrinin dadına doymaq olmayan gözəl yuxuların görüldüyü yerdir. Bu kərpic evlərin həyətlərində adətən Anadolunun bəzi yörələrində də oxşarlarına rastlanan, günbəz şəklindəki ənənəvi çörək təndirləri vardır. Bu təndirlərdə forma və böyüklük etibarı ilə Türkiyədə ramazan pidəsi adıyla hazırlanan çörəklərə oxşar gözəl "nan"lar bişirilir. Nan sözü

farscadan Orta Asiya Türk ləhcələrinə keçmişdir və çörək mənasını verir. Əgər ev sahibi Özbəkdirsə, bu nanlara əlavə olaraq "samsa"nı da unutmamaq lazımdır. Samsa xəmirin içinə quşbaşı ət və soğan qoyularaq bişirilən bir çörək növüdür ki, təndirdən çıxdığı zaman hələ də buxarı üstündə ikən yeməklə doymaq olmur. Buradakı insanların çox sevdiyi bu piroq adətən "Özbək fast food"udur. Yol kənarlarına qurulan təndirlərdə də samsa bişirilib satılır. İşi tələsik olanlar ayaqüstü, ucuz yolla aclığının qarşısını belə alırlar.

Ənənəvi Türkistan evlərinin həyətlərinin mühüm elementlərindən biri də odun ocaqlarıdır. Həyətin evə yaxın bir hissəsində qurulan bu ocaqlarda ən hörmətli qonaqların süfrədə qarşısına qoyulan və təntənə ilə yeyilən başlar bişirilir. Böyük qruplara təqdim olunan "beşbarmaq" yeməyi və at ətinin ən nəfis halı olan "kazı" da bu ocaqlarda qaynayır. Ocağın ev və dəstərhana yaxın olmasının səbəbi yeməklərin soyumadan servisini etməkdir.

Kanalizasiya sisteminin mövcud olmadığı şəhərdə tualetlər də həyətin içində yerləşir.

Türkistanda həyətlər təkcə evlərin bağçaları deyil, ailə həyatının mühüm bir hissəsinin yaşandığı məkanlardır. Bu səbəbdən həyətlər uca divarlarla yad gözlərdən gizlədilir.

Kərpic evlərdə isə keçmiş vaxtların dar çadırlarında keçən günlərinə təzad geniş məkanlar var. Evlərin xüsusilə salon hissələri daha geniş olur. Bu genişlik sosial yaşantının da bir tələbi ola bilər. Bayramlarda, toylarda, doğum günlərində dost və qohumların qatıldığı böyük şənliklərdə bu geniş məkanlar ev sahibliyi edir. Salonun hər iki tərəfinə döşəkcələr, yastıqlar qoyulur. Türkistanlılar onların üzərinə uzanaraq dirsəklərini bu yastıqlara söykəyib söhbət etməyi çox xoşlayırlar. Bu Türkistanlıların ən rahat oturmaq formasıdır.

Türkistanlılar ailənin böyükləriylə bir yerdə olduqları zaman bu cür rahat olmurlar. Məclislərdə kimin harada oturacağını və beləliklə də o söhbəti kimin idarə edəcəyi ilk anda məlum olur. Salonun baş hissəsinə "tör" deyirlər. Orada ən yaşlı, ya da ən hörmətli adam oturur. Onun adı "törağa" adlanır. Törağa məclislərdə xırda işlərlə məşğul olmur və beləliklə də, insanlarla xırda söhbətlər üstündə üz-göz olaraq nüfuzunu aşağı salmır. O, ağırbaşlılığın təmsilçisidir. Söhbətin şənlənməsini təmin etmək, susqunluq olmasını əngəlləmək, hətta

yemək-içmək servisini istiqamətləndirmək "tamada"nın vəzifəsidir. Tamada şən-şaqraq, danışmaq qabiliyyəti olan, praktik zəkalı və qayda-qanun bilən insanlar seçilir. Bu bəzən insanların özlərini tamada elan etməsiylə də olur. Bəzən də törağa bu vəzifəni kimə isə tapşırır.

Süfrənin üstü hər zaman qoz, kişmiş kimi tumsuz qara üzüm, meyvə və mürəbbələrlə dolu olur. Çörək ev sahibi tərəfindən bölünərək süfrədə əyləşənlərə paylanır. Özbəklər bu adətə çox diqqət etməsələr də, bir Qazax evində bu adətə mütləq əməl olunur. Bundan başqa, yaşı, nüfuzu nə olursa olsun, ev sahibi qonaqların ən uc tərəfində qapıya yaxın yerdə oturur və əks halda, böyük hörmətsizlik sayılır.

Ev sahibi oturduğu yerdən qonaqlara xidmət göstərilməsinə də kömək edir. Əgər qonaqlar xüsusi bir proqramla toplanmışdırsa, süfrənin xüsusi yeməyi "beşbarmaq"dır. Qazaxların milli yeməyi olan beşbarmaq paxlava dilimi boyda kəsilən xəmirlərin üzərinə bişirilmiş ət tökülərək süfrəyə verilir. Hazırlanması zəhmət tələb edən beşbarmağı hazırlamaq üçün qonşu və ya qohum qadınlar birlikdə köməkləşib bişirirlər. Əvvəlcə xəmir hazırlanır. Ətlər qazanda bişirilir. Ətlər götürüldükdən sonra xəmirlər yuxa halında açılıb hissələrə bölünür və ətin suyunda bişirilir. Bişən xəmir böyük sinilərə qoyulur və üzərinə ət tökülür. Beşbarmaq yeməyini Qazaxlar əllə yeməyi sevirlər. Yeməyin adı da buradan yaranmışdır. Xəmir parçalarının içinə ət qoyularaq əllə yeyilir. Doğrusu, onu yemək bir az çətindir, lakin ləzzətlidir. Mən isə "beşbarmaq sorpası"nı daha çox sevirəm. Beşbarmaq yeməyi hazırlanarkən ətin və xəmirin qaynadığı su - "sorpa" çox dadlı olur və arzu edənlərə stəkanlarda verilir.

Beşbarmağı yeməyə başlamazdan əvvəl törağanın qarşısına qoyulan qoyun başı qonaqlığın ənənəvi hissələrindən biridir. Ev sahibi bir məcməyiyə yerləşdirilmiş qoyun başını, yanında bıçaqla bərabər törağanın önünə qoyur. Türkiyədə də bəzi şərq rayonlarımızda yaşanan bu adət ev sahibinin "başımızla birlikdə sənin ləyik" ifadəsini ehtiva edir və böyük hörmət əlamətidir. Törağa bir parça özü yedikdən sonra baş ətlərindən kəsərək süfrədə oturanlara paylayır. Kimə hansı hissədən verildiyindən mesajlar çıxarılmağa başlanır, bəzən bu mesajları o, özü də verir. Bir gəncə qulaqdan kəsib versə bu, "daha diqqətlə dinlə" mənasındadır. Əgər göz tərəfdən kəsib vermişsə, "səni gözüm kimi sevirəm" və ya "gözünü yaxşı aç" mənasını verir.

Yeməkdən sonra “Amin, Allahü-əkbər” sözləri hamı tərəfindən yemək duası olaraq söylənilir.

Bu evləri isitmək üçün kömür sobalarına bağlı mərtəbələrdə istilik sistemi quraşdırılır və evin hər yeri yalnız bir sobayla isidilir. Bu birləşmiş qablar prinsipinə bağlı bəsit bir sistemdir. Anadoluda sobalar evin giriş hissəsində qoyulur. Sobanın üzərində kiçik bir su qazanı qoyulur. Pətəklərə gedən borular bu qazana bağlıdır və su tarazlıqda olur. Qazanın qaynaması ilə birlikdə genişlənən və buxarlanan su sistemi hərəkətə gəlir və boruların içində daim dövretmə başlayır. Bu sadə mexanizmlə evin hər tərəfi isidilmiş olur.

Qazax və ya Özbək, bütün Türkistanlıların həyət evlərindəki qayda bu şəkildədir. Bir fərq var ki, Özbək evlərinin bağçası daha yaşıl, meyvə və tərəvəz baxımından daha zəngindir. Bu da Özbəklərin kənd təsərrüfatı işlərinə daha yaxın olmalarından qaynaqlanır.

“YENİ TÜRKİSTAN”

Çimkənd şəhərindən gələn ana yolun ilk dörd yol qovşağı Yesəvi Türbəsinə dönən yerdədir. Bu qovşaqdan sola dönərkən Yesəvi Türbəsinə, sağa dönərkən isə Kentav yoluna çıxılır. Şəhərin mərkəzinə girmək üçün isə qovşağı qarşı tərəfə keçmək lazımdır. Şəhərin idarəetmə mərkəzi də bu qovşaqdan başlayır. Qovşağa girişdə sol tərəfdə olan məktəb binası, onun arxasındakı hərbi hissə, qarşı tərəfdə məhkəmə binası, rusların Türkistanı ələ keçirdikdən sonra yaratdıqları “Yeni Türkistan” bu ətrafda yerləşmişdir. Məhkəmə binasından sonra, əvvəllər Leninin heykəlinin olduğu böyük bir meydan və meydanı əhatəyə alan İcra Hakimiyyəti və Yesəvi Universitetinin binası yerləşir. İlk Qazax xanlarından Esim xanın adını daşıyan bu ərazidə Novruz, Müstəqillik günü kimi böyük bayramlar qeyd olunur. Hər novruzda burada festival keçirilir.

Böyük Özbək yazarı və Türkistan doğumlu Adil Yaqubovun uşaqlıq illərində bu ətrafda beş bina varmış. Yaqubov uşaq olanda atası antikommunist olduğu üçün həbs olunur. “Rejim düşməninin uşağı” kimi keçirdiyi günlərdə Türkistanın bu səmtini və bu ərazidə keçirilən tədbirləri Yaqubov belə xatırlayır:

“Türkistanda Qul Xoca Əhməd Yesəvi Türbəsinin düz yanında Orta Asiyanı zəbt edən General Çerniyayev tərəfindən tikdirilən beş-altı möhkəm kərpic bina vardı. Çerniyayev bu binaları çarın əsgərləri üçün tikdirmişdi. Sovet hakimiyyəti isə bu binaları həbsxana kimi istifadə etmək üçün ətrafını tikanlı məftillərlə əhatələmişdi. Hər şənbə bu tikanlı qalaya ən az 150-200 gənc yaşda qadın, kişi toplaşırdı. Bunlar “xalq düşmənləri”nin ailələri idi. Gənc qadınlar, xəstə qocalar, həbsxana məmurlarının yeməkləri qəbul etmələrini gözləyənlər səhərdən axşama qədər tikanlı məftillərin yanında məzlum baxışlarla dayanırdılar. Anam bəzən məni də həbsxana istiqamətində aparır, əgər görüşmək nəsib olarsa, atamın məni bir daha görməsini istəyirdi. Ancaq atamı bizə bir dəfə də göstərmədilər və apardığımız yeməkləri də geri qaytardılar. Bəzən mən saatlarla gözlədikdən sonra bir bəhanə ilə həbsxananın düz yanındakı şəhər parkına tərəf qaçardım. Orada hər gün nümayiş olurdu. Şəhər məktəblərindən nağara və şeypur səsləri ilə

pionerlər və hətta oktyabryatlar (kommunist uşaq təşkilatlarının üzvləri) sıra-sıra parka gəlirdilər. Parkın ortasında qırmızı rənglərlə örtülmüş böyük kürsülər vardı. Dəri pencək geyinmiş beli tapançalı "fəallar" bu kürsülərdən nitq söyləyirdilər".

Yesəvi Türbəsinin yanındakı qovşaqdan hər keçdiyim zaman gözlərim Yakupovun uşaqlıq illərinin xatirələrindəki binaları axtarırdı. Qovşağın sağında dayanan bina Yakupovun oxuduğu məktəb olmalıydı. Həbsxana olan binalar isə ya qarşı küncdə hələ də məhkəmə binası kimi istifadə edilən tikiliydi və ya məktəbin arxasındakı hərbi hissəsinin binalarıydı. O dönəmdə hər gün tədbir keçirilən park və meydan isə məhkəmə və icra hakimiyyəti binaları arasındakı park və indiki adıyla Esim Xan ərazisi olmalıydı.

Yakupovun beş-altı daş bina olaraq tərif etdiyi "Yeni Türkistan" məhəlləsi daha sonrakı illərdə bir-birinə paralel prospektlər və ona açılan küçələrlə kifayət qədər genişlənmişdi. Bütün rəsmi qurumlar, banklar bu ətrafda yerləşmişdi.

YESƏVİ TÜRBƏSİ

Dan yeri ağarırdı. Günəş arxamızdan ilk şüalarını səhraya yayarkən biz qərb tərəfi seyr edirdik. Hələ şəhərə dair heç bir işarə görünməzkən, möhtəşəm memarlıq işi səhranın ortasında adətən studiyada işlənmiş kimi təkbaşına dimdik dayanır və baxışlarımızı alıb aparırdı. Avtomobili sürən Qazax sürücü Ömürzak şəhərə təqribən on beş kilometr yolumuz qaldığını söylədi. Yaxınlaşdıqca abidə böyüyür və işıltı artırdı. Ətrafında şəhərin çoxmərtəbəli yüksək binalarının görünməyə başladığı zaman Türkistan şəhərinə daxil olmağa artıq beş kilometr yolumuz qalmışdı. Bu, möhtəşəm abidənin yer seçiminin üstünlüyü idi. Daha sonrakı illərdə şəhərin yalnız Çimkənd girişindən deyil, digər girişlərindən də eyni görüntünün yarandığını, burada yaşayaraq öyrənəcəkdik.

Türbənin bu xüsusiyyəti şəhərin bir vaxtlar adında da əks olunan engebeli coğrafi quruluşundan qaynaqlanır. Əngebeli ifadəsi ilk baxışda bölgədə böyük çuxurlar və təpələrin olduğunu ifadə edir. Lakin burada səhranın ortasında doqquz metrlik bir təpə əraziyə adını verə biləcək qədər mühüm sayılır. Tarixi 2000 il əvvələ gedən Türkistan şəhəri ilk yarandığında Kültəpə adlanan doqquz metr yüksəklikdə bir təpə üzərində yerləşmişdir. Əhməd Yesəvi Türbəsi isə, Kültəpənin zirvəsindən 350 metr şimaldadır. Aradakı bu məsafədə təpə 2-3 metr alçaldığından və Yesəvi Türbəsinin 46,5 metr olan öz yüksəkliyi ilə uzaqlardan təkbaşına görünməsinin səbəbləri aydın olur.

Övliyalar Sərvərinin şəhərinə günəşin ilk işıqları ilə birlikdə çatırıq. 1997-ci ilin may ayının 17-də, səhər çağı Türkistanın havasında insanın ruhunu oxşayan bir sərinlik vardır. Gecə boyu davam edən yolçuluğun verdiyi yorğunluğumuza baxmayaraq, keçmiş Türk ənənəsinə uyğun, hər şeydən əvvəl "şəhərin sahibini" ziyarət etməliyik deyə düşünürük. Yoldaşım Ömürzak bu münasibətə heç yad deyil. Məndən əvvəl çox sayda Türkiyəlini Türkistana gətirən Ömürzak, onların da heç bir yerə getmədən, ilk Yesəvi Türbəsinə gəldiklərini söyləyir.

Möhtəşəm memarlıq işi yaxınlaşdıqca daha təsirli hala gəlir. Şəhərin içində (iki kilometr) birmərtəbəli evlərin arasındakı ana yolda

getdikdən sonra ilk qovşaqdan sola dönürük. Bir neçə yüz metr də bu istiqamətdə gedirik. Ömürzak avtomobili türbənin tac qapısının düz qarşısında saxlayır. Geniş bir ərazinin ortasında Əhməd Yesəvi Türbəsiylə üz-üzə dayanmışıq. Görünüşündə dünyanı mühüm saymayan, yalnız, ancaq bu yalnızlığa da heç bir etiraz etməyən, özü başqa bir dünya imiş kimi duran insan üzünün cizgiləri var. Olduğumuz yerdən tac qapıya üç yüz metrə yaxın yol var. Daha sonra öyrənirəm ki, buradan etibarən hər hansı bir nəqliyyatla getməyi Qazax qardaşlarımız mənəviyyata hörmətsizlik hesab edirlər. Yolun iki tərəfində, bel hissəsindən kəsilərək forma verilən bitkilər yaşıl bir koridor əmələ gətirmişdir və koridorun arxasında rəngarəng güllərdən yaradılmış qızılgül bağçası uzanır. Səhərin səssizliyi hər yerə hakimdir. Yaşıl koridorda yeriyərək möhtəşəm tac qapıya yaxınlaşırıq. Sanki əvvəl yoxmuş kimi, indi yalnız bu anı yaşayıram. Hətta əvvəlki yorğunluğum da keçib getdi. İnsan boyundan 25 mərtəbə daha böyük tac qapının qarşısında dayanıb ziyarətimizi edirik. Bu an uzanıb gedə bilərdi, lakin Ömürzağın geriyə addımladığını görüncə mən də ona uyğunlaşaraq gəldiyimiz kimi geri çəkilirik. Gözlərimiz çiçək bağçasındadır. "Kaş ki, bu geniş ərazinin hər tərəfi qızılgüllərlə örtüləydi", deyə qəlbimdən keçir. Bunu xəyal edərək zehnimdə türbənin hər tərəfini qızılgüllərlə doldururam. Sarı, qırmızı, çəhrayı, bənövşəyi... hər rəngdə qızılgülün açıldığı bağça. Həyəcanım artır...

Doğrusu, bu ilk ziyarətdə memarlığın ümumi təsirinin xaricində bir üstünlüyünü görə bilmədiyimi, buraya daha sonrakı gəlişlərimdə hiss edəcəkdim. Bir rus generalına istinadən deyilir ki, "Şərq sirlərlə doludur, heç bir zaman ilk görüşdə özünü təslim etmir". Yesəvi Türbəsinə hər gəlişim zamanı öyrəndiyim yeni şeylər, bu sözü xatırladırdı.

ABİDƏNİ TANIDIQCA

Yesəvi Türbəsi adətən şəhərdən qoparılmış kimi, ayrı bir bölgədə yerləşir. Onun ən yaxın şəhər binalarına məsafəsi 500 metrdir. Türbənin cənub və şərq tərəfləri şəhərə baxır. Ancaq bu arada da yaşıllaşdırma işləri və yol infrastrukturu əskik olduğundan həm şəhər, həm də türbə tikilişində əskiklik meydana gəlir. 1975-ci ildə Kültəpə və keçmiş Yesi məskunlaşma bölgəsindən 65 hektarlıq bir ərazi qoruq ərazisi elan edilmiş və bu geniş ərazi türbə sahəsi olaraq təsis edilmişdir. Türbə ətrafında aparılan təmir işləri zamanı bilərəkdən və ya qəsdən bu geniş ərazidə olan Osmanlı hamamı və bir çox sayda qiymətli əsər yox edilmiş və möhtəşəm abidə ətrafda tək qalmışdır. Hazırda bu ərazidə türbənin düz qarşısında onun türbədarı kimi dayanan Böyük Türk elm adamı və Xaqanı Ulubəyin qızı Rəbiə Sultan Begüm Türbəsi və onun yanına yerləşdirilmiş, ziyarətçilərə bilet satılan kiçik bir köşk var. Bu kiçik köşkün içində hər zaman üç-dörd qadın olur. Biletlə yanaşı, Qazax dilində dini nəşrlər, təsbehlər, açıqcalar da satılır.

Silsilənin ən mühüm tarixi bölmələrindən biri olan Əhməd Yesəvinin 63 yaşında yer altına girdiyi çiləxana, Kültəpənin zirvəsinə yaxın bir yamacdadır. Bu yamacın altında isə ətrafla əlaqəsi kəsildiyi üçün burada olması xüsusi diqqətlə baxılan zaman müşahidə edilən binalardan biri yerləşir.

Türbənin qəbirxana bölməsinin olduğu şimal hissəsinin divarına əlli metr qədər məsafədə divarlarının yarısı yerə batmış bir məscid ilə sonradan tikilən idarə binaları geniş ərazinin içərisinə nizamsız şəkildə səpilmiş haldadır. Bundan başqa, yenə türbənin şimalında sonradan tikilən hədiyyələr satan mağaza binası, içində dərvişlərin hücrələrinin olduğu qalın və yüksək bağça divarı qalıqları yerləşir. Türbəyə kənardan baxarkən yaşıla çalan yumşaq mavi rəng gözləri oxşayır. Yüksək divarların, yerdən bir adam boyu məsafə xaricində qalan hissələri, çinilərlə örtülmüşdür. Çinilər əhli olmayana özünü təslim etməyən bəzəklərlə doludur. Professor Şahin Uçar Xocayla türbəni gəzənə kimi mən də bunları sadəcə çinilərə işlənmiş naxışlar kimi görürdüm. O gün Kültəpənin üzərindən dayanıb türbəyə baxarkən Xoca: “kufi yazılar nə gözəl yerləşdirilmişdir” deyərək bir-bir onları

oxumağa başladı. Mənim yalnız çini naxışlar kimi gördüyüm şəkillər, sən demə "Allah, Məhəmməd, Əli..." sözlərinin, kufi yazı texnikası ilə yazılmış forması imiş. Daha sonrakı ziyarətlərdə mən də bu yazıları birlikdə gəldiyimiz yoldaşlara tanıtdım. Hər biri ən az mənim qədər heyrətlənirdi.

Bundan başqa, hər tərəfdə kufi yazılarla yanaşı, müxtəlif dövrlərdə Türk qrupları tərəfindən istifadə olunan damğa şəkilləri vardı. Görənləri ən çox çaşdıran xaç şəklindəki Türk damğası olurdu. Niyə bu damğaların seçildiyini hələ ki, dəqiq bilən yoxdur, ancaq bir fikir var ki, bunlar türbənin tikildiyi dövrdə Türkistan ətrafında yaşayan Türk boylarının simvolları ola bilərlər.

QUŞLAR XORU

Türbədə aylar sonra fərq etdiyim detal isə kəmərli qapının sütunları arasında gizlənmiş quş yuvaları idi. Bəlkə də quşlar üçün ayrılmış bu yerlərdən yüzlərlə saymaq olardı. Türbənin ön girişi olan tac qapının sütunları içində göyərçinlər başda olmaqla üzrə müxtəlif yerlərdə quşlar yuva salıb. Bundan başqa, yuvaların olduğu sütunlara, quşların yuvalarına gəlib gedərkən qonmaqları üçün ağac və dəmir çubuqların yerləşdirilməsi də nəzərdə tutulmuşdur.

Günün hər saatında, ancaq xüsusilə axşam gün batana yaxın, Yesəvi Türbəsi quşlar orkestrinin konsertinə səhnə olurdu. Kəmərlərin üzərində quşların qonmaqları üçün nəzərdə tutulmuş ağac və dəmir çubuqların üzərinə qonan yüzlərlə quş, öz dillərində nəğmə oxuyurdu.

Quşların qonduqları bu ağac çıxıntılarını memarların xətası olaraq dəyərləndirənlər də vardır. Quş və qəbir Anadoluda da bir yerdə deyilmi? Anadoluda da mərmər qəbirlərin üzərində yağış suları yığılarkən quşların içmələri üçün insanlarımız su qabları düzəldirlər. Ancaq yox, indi quşların mədəniyyətimizdəki yerini bir kənara qoyub, konsert saatlarını sehrləyici hala gətirən qrupdan bəhs etməliyəm. Bu diyarda günəşin batmağı və göy üzü bir başqa aləmdir. Günəş hər axşam üfüqümüzdən özündən əvvəlkinə bənzəməyən və bəlkə o saata qədər, heç bir axşamda görünməmiş qızıl şəfəqlər yaradaraq batır. Bəlkə həyatında qürubu seyr etmənin zövqünü bir daha dadmamış olanlar belə, bu şəfəqlərin vurğunu olurlar. Ah, kaş ki, hamıya quşların konserti davam edərkən, qızıl şəfəqləri seyr etdirmək mümkün olsaydı... O zaman bütün gözlər mənim anlatmadıqlarımı da görür və hər qulaq o səsləri eşidərdi...

RƏHMƏT QAZANI VƏ YA TAY QAZAN

Quşların hər axşam konsert verdikləri tac qapının kəmərləri arasında duran, Türkistan ulduzu motivlərinin sədəflərlə işləndiyi qapıdan keçildiyi zaman ortada rəhmət qazanının olduğu ana salona girmək olur. Lakin bu qapını istifadə etmək bilet alıb gələn ziyarətçilər üçün mümkün deyildir. Onlar tac qapının sağ sütununun yanında olan kiçik bir qapıdan içəri keçirlər. Qapını keçəndən sonra dar koridorla ana salona gedən bu aralıqda, kiçik hücrədə bilet nəzarətini həyata keçirən xidmətçilər var. Koridorun sonunda isə arzu edənlərə türbə haqqında məlumat verən bələdçilərin istifadə etdikləri hücrə yerləşir. O böyük tikilidə bu iki hücrə gündəlik istifadə olunan yerlərdir.

Bu dar koridordan ana salona çıxanların ürpənməməsi mümkün deyildir. Ən yüksək nöqtəsi 37,5 metr və eni 18 metrdən uzun olan tuğla qübbəsi ilə bu geniş salon, adətən insana acizliyini xatırlatmaq üçün inşa edilmiş kimi dayanır. Orta Asiyada olan ən geniş tuğla qübbə olaraq tanınan bu örtüyün altında ətrafa gözlərini gəzdirən hər ziyarətçi, o böyük həcmin içərisində öz varlığının əridiyini hiss edir.

Salonun ortasında olan rəhmət qazanı ilk baxışda bu hissdən xilas olmaq üçün bir ümid kimi görünür. Dünyada analoqu olmayan, üç ton su ala bilən, ağırlığı iki ton, həcmi 2,45, yüksəkliyi 1,62 metr olan bu əsər, qübbənin əziciliyi ilə müqayisə edildiyi zaman nisbətən rahatladıcı olduğundandır ki, salonun ümumi atmosferindən xilas olmaq üçün bir ümid qapısı kimi görünür. Bəlkə də, bu səbəbdən türbənin detalları arasında ən çox maraq doğuran element rəhmət qazanıdır. Hər bir ziyarətçi qızıl, gümüş, mis, dəmir, qalay qarışığından hazırlanan bu qazanın ətrafında dolanıb ona diqqətlə baxır. 1399-cu ildə Təbrizli Şərafəddin usta tərəfindən, Dədə Qorqud hekayətlərində də adı keçən Qarnaqda hazırlanaraq bura gətirilmiş qazanın, ziyarətçilər, oxuya bilməsələr də, ətrafına yazılmış ayətlər, onu hazırlayan ustanın kitabəsi və 22 dəfə "Dünya Allahındır" ifadəsi, qazanın qulpuyla birlikdə diqqət mərkəzində olur.

Dünyada tayı-bərabəri olmayan qazanla ruslar da yaxından maraqlanmış və 1935-ci ildə Peterburqdakı Ermitaj Muzeyinə aparmışlar. Xalqı dərindən yaralayan bu ayrılıq 54 il davam etmişdir.

Qazan 1989-cu ildə təkrar gətirilib yerinə qoyulmuşdur. O zaman, Türkistan şəhərinin idarəçiliyində kim varsa, qazanın onların səylərivlə geri gətirildiyini anladaraq, bu böyük hadisədən şərəf hissi duyurlar. Həmin dönəmdə Türkistanın icra başçısı Erkin Corebekov bəyin evində qazanın gətirilməsinin video kasetlərini seyr edirik. Görüntülərdə insanlar yığılmış, üzlər gülür, tam bir bayram havası var. Hələ də bu böyük hadisənin ildönümündə Erkin bəyin evində qonaqlıq verilir, dualar edilir.

Deyilənlərə görə, bu qazana, türbənin içində olan quyudan su doldurulur və şəfalı olduğuna inanılaraq dərvişlərə və ziyarətçilərə paylanılırmış. Qazan bəlkə də burada yaşayan dərvişlərin və ziyarətə gələnlərin çoxluğu səbəbiylə bu qədər böyük hazırlanıb.

Məscidi-Nebevi ilə başlayan İslam memarlığındakı silsilə ənənəsi, Yesəvi Türbəsində də gözlənilmişdir. Qul Xoca Əhmədin qəbrindən başqa, türbədə məscid, kitabxana, mətbəx, dərviş hücrələri və hətta adına "kukukxana" deyilən bir quyu otağı daxildir. Buradakı quyudan çıxan su zəmzəm suyu ilə eyni tutularaq müqəddəs sayılır. Burada yaşayanların su üçün də olsa, bayıra çıxmağa ehtiyac duymadan qalmaları nəzərdə tutulmuşdur. Su ehtiyacının qarşılanacağı quyu isə su çıxarmaq həcmi məhdud olduğundan, suyun saxlanması ehtiyacı müəyyənləşdirilmiş ola bilər. Qazana doldurulan üç ton su zərurət halında qənaətlə istifadə olunaraq 100 nəfərin 10 gündən daha artıq bir müddət su ehtiyacını ödəyə bilir. Bu müddət ərzində quyudan da su verilərsə, o zaman 15-20 günə qədər uzadıla bilər.

Bizim gördüyümüz zaman qazanın dibi Qazax tengələri və Özbək somlarından olan rəngli pullarla doluydu. Türbəni ziyarət edən insanlar qəbirxana bölümünə getməzdən əvvəl qazanın önündə dayanıb böyük hörmətlə ilk dualarını burada edirlər və dualarının qəbulu üçün qazanın içinə pul atırlar. Türbədə xidmət edənlər gələnlərin pullarını rahat şəkildə ata bilmələri üçün qazanın kənarına kiçik bir nərdivan qoyublar. Qazana pul atmaq ənənəsi gərək ki, Anadoluda müqəddəs sayılan yerlərdə quyulara və ya hovuza pul atmaq adətiylə eynidir.

Yunusun Hacı Bektaş dərgahına əli boş getməyi kimi burada da, törəyə uyaraq xüsusilə, Qazaxlar yanlarına "Xalq nanı" yəni "Haqq çörəyi" almadan gəlmirlər. Dualarla alınıb gətirilən çörəklər yenə dualarla qazanın yanında çantalardan çıxarılır. Böyük hörmətlə iki əllə

tutulur. Hər halda keçmişdə bu “Haqq nanları” dərvişlərə hədiyyə edilirdi. İndi isə ziyarətdən sonra kasıblara paylanılır.

QƏBİRXANA VƏ TÜRKİSTAN ULDUZU

Kəmərli qapıdan girildiyi zaman qazan otağının düz qarşısında Yesəvi Həzrətlərinin sandığının olduğu qəbirxana yerləşir. Müxtəlif naxışlarla bəzənmiş qapının arxasında dünyada çox az tapılan və Səmərqənddən gətirilən yaşıl mərmərlərlə örtülmüş sandıqda Həzrət Sultanın mübarək nəşi yerləşir. 1954-cü ilə kimi qəbirxananın giriş qapısının qarşısında 12 metr uzunluğunda tuğ asılı imiş. Bu tuğun orijinal fotoları muzeyin arxivində saxlanır. Qəbir xaricində tuğ, orada yatanın böyük mütəfəkkir olduğunun bir işarəsidir. Səmərqənddə Əmir Teymur Şeyxinin qəbrində və Buxarada Burhanəddin Nəqşibəndin Türbəsində və ən maraqlısı "Övliya dağ Qazıqurd"un zirvəsində də belə bir tuğa rast gəlmişdim.

Qəbir otağının iki yanında səkkiz guşəli ulduz şəklində pəncərələr yerləşir. Səkkiz guşəli ulduz Türk tarixindəki ən qədim simvollardan biridir. İki kvadratın küncləri ulduzun uclarını əmələ gətirəcək şəkildə yerləşdirilməsiylə meydana gəlir. Səkkiz guşəli ulduzun mənası isə bağlı müxtəlif fikirlər mövcuddur. Bu baxışlardan ilki, kvadratların biri bu dünyanı, digəri o biri dünyanın simvoludur və bu ulduzu simvol olaraq istifadə edən hər iki dünya içində bərabər yaşadığını izah edir. Səkkiz guşəli ulduzun digər mənası isə hər küncün bir cənnət qapısına işarədir. Bunlara səkkiz cənnət qapısı deyilir. Bundan başqa, Divanlarda *səkkiz ummaq* olaraq dəyərləndirilir. Hər bir ulduz küncü mərhəmət və şəfqət, doğruluq, sədaqət, igidlik, səbir etmək, sirr saxlamaq, yoxsulluğunu və acizliyini bilmək, Rəbbinə şükür etmək xüsusiyyətlərini simvolizə edir. Xarakteri və yaşantısında bu vəsflərlə dolanan və bunları mənliyinə şamil edənlər cənnətin o qapılarından keçəcəklər.

Səkkiz guşəli ulduzda təcəssüm olunan digər bir məna, ilk iki mənaya görə daha siyasidir: dörd ana istiqamət və dörd ara istiqamətləri səkkiz guşəli olaraq dəyərləndirilən bir baxış; səkkiz guşəli ulduzu simvol qəbul edənlər dünyanın hər yerinə hökm etməyi arzuladıqlarını ifadə edirlər mənasındadır. Yesəvi Türbəsinin ana giriş qapısında, çinilərində, pəncərələrində işlənən səkkiz guşəli ulduz bütün simvolik mənalarıyla da türbəyə və onun sahibinə uyğun gəlmirmi?

Qeyd etmək lazımdır ki, səkkiz guşəli ulduz hazırkı Türk Dövlətlərinin simvolları arasında ən geniş yayılanıdır. Azərbaycanın Bayrağında, Özbəkistanın Dövlət Gerbində, Türkmənistan və Qazaxıstanın bir çox rəsmi orqanlarının emblemlərində səkkiz guşəli ulduz var. Bir vaxtlar Osmanlı Bayrağında da bu ulduz vardı. Bu gün də Türkiyədə polislərimizin alınlarının üzərində daşıdıqları səkkiz guşəli ulduz da, Yesəvi Türbəsindəki Türkistan ulduzudur.

TÜRBƏNİN DİGƏR BÖLMƏLƏRİ

Türbənin qazanlı böyük salondan koridorlarla ayrılan ana bölmələrinin sayı da səkkizdir. Bu bölmələrdən qəbir otağının cənub qərbindəki məscidə və kitabxanaya eyni koridordan girilir. Məscidə namaz qılmaya gələnlər, namazdan sonra kitabxanada oxusunlar deyə düşünülmüşdür. Bu kitabxanada keçmişdə çox sayda kitab olduğu məlumdur, hətta bu gün Qazaxıstan Muzeyində olan 300-dən çox əlyazma kitab buradan götürülmüşdür.

Digər bölmələrdən biri də "Halimxana" adlanan mətbəx hissəsidir. Halim, ət və buğdadan bişirilən xüsusi bir yemək adıdır. Burada halim yeməyi bişirilərək bazar ertəsi və cümə günləri ziyarətə gələnlərə verilirmiş. Digər vaxtlarda isə dərvişlərin yeməkləri buradakı ocaqlarda qaynayırmış. Burada bişən yeməklərin suyu isə "qudukxana" deyilən və ortasında quyu olan otaqdan təmin edilirmiş.

Türbənin digər mühüm bölmələri isə Böyük və Kiçik Ağsaray adı verilən salonlardır. Sufilərin öz toplantılarını etdikləri bu salonların akustikasının ən yaxşı olanı Böyük Ağsaraydır. Burada, 16-cı əsrin əvvəllərində Qazax Xanlarının siyasi və diplomatik görüşlərinin keçirildiyi məlumdur.

Onsuz da, bura xanların və Sultanların da məkanıdır. İlk Qazax xanlarından Esim xan və daha sonra Abılay xan burada dəfn edilmişdir. Hazırda bu xanların qəbrini simvolları qəbirxananın sağ tərəfindəki koridorda yerləşir. Mənim də ziyarətim zamanı olduğum sevimli yer bu koridorlar idi. Əslində ziyarətçilərin bu bölməyə keçmələrinə çox icazə verilmir, ancaq türbədəki bələdçilərlə tanışlığımızı möhkəmləndiyimizdən bizim bu koridora keçməyimizə göz yumurdular. Bu dar koridor sanki ana salonun sıxıcı böyüklüyünün əmələ gətirdiyi psixoloji vəziyyətdən qurtarmağı təmin edir və dar divarların arasında maddi varlığımın əhəmiyyətindən daha əmin hala gəlirdim. Amma daha da vacib olanı buradan Yesəvi Həzrətlərinə yaxından baxmaq imkanım idi.

Türbə səkkiz bölmə və dörd eyvan üzərində yaradılmışdır. Bundan başqa, üst mərtəbələrdə dərvişlərin istifadə etməsi üçün tikilmiş hücrələrlə birlikdə təxminən 35 otaq yerləşir. Bu dörd rəqəminin

təsadüfi olmadığını söyləyənlər də var. Dörd eyvan, kiməsə görə dörd kitabdır, kiməsə görə isə şəriət, təriqət, mərifət və həqiqətdir. Yesəvinin Hikmətlərində də dörd sayı tez-tez təkrar olunur və onun Anadoluya saçdığı atəş Hacı Bektaşda isə dörd qapı qırx məqamına dönür.

CÜMƏ MƏSCİDİ

Çimkənd yolunun üstündə kiçik bir meydanın arxasında qırmızı kərpiclərlə örtülü geniş bir həyət və içərisində adına "Cümə məscidi" deyilən Türkistan şəhərinin ən böyük məscidi yerləşir. Həyət çox baxımlı deyil, bir neçə ağac və həyət gülləri ilə qaydaya salınmışdır. XIV əsrdə, 40 məscidin olduğu Türkistanda bu məscid sovet dönəmində uzun müddət xalqın namaz qıldığı yeganə məkan olmuşdur. Bu gün müxtəlif məhəllələrdə tikilən kiçik məscidlərlə birlikdə Türkistanda 19 məscid var. Xalqın dinə münasibəti hər gün bir az da artır. Türkistana gəldiyimiz birinci il cümə namazlarında yalnız məscidin üst hissəsi dolduğu halda, üç il ərzində şəhərdə məscidlərin sayının artmasına baxmayaraq, alt mərtəbələr də insanlarla dolmağa başlamışdı. Lakin bu məsciddə ən çox insan bayram namazlarında olur. Qış və ya yaz fəslinin olmasına baxmayaraq, 3-4 min nəfər məscidə toplaşır, Çimkənd yolunu başdan-başa doldururlar. Qarın üzərində də olsa bayram namazları qılınır. Bu namazlara yaşlı qadınların da qatıldığı vaxtlar olur. Bayram namazının xütbəsini şəhər valisi oxuyur.

Bayram namazları sanki şəhərdə sovetlər dönəmindən sonra yüksələn dini həyatın bir tablosudur. Bu, daha çox gənclərdə və yaşlılarda hiss olunur. Yaşı 50-dən çox insanların namaz surələrini əzbərləmələri, heyrət duyğularımızı qabardır. Hələ bu Qazaxların "molda" dedikləri din adamlarının qatı dini mühafizəkarlıqları olmasa, hər halda dini həyat daha sürətlə yayılacaq. Fikrimizcə, yaşadığımız bu qısa hekayə mollaların "asanlaşdırmayıb çətinləşdirmələrinə" bariz nümunədir.

Bir ramazan günü universitet tərəfindən bizə verilən avtomobilin sürücüsü Xıdırəli əkəylə bir gəzintidən qayıdırdıq. Uzun müddət bir yerdə olduğumuzdan 50 yaşındakı qara, arıq bu uzun boylu Qazaxla, büroda müdir-işçi, şəxsi həyatımızda böyük və kiçik qardaş kimi olmuşduq. Xıdır əkə təmiz ürəkli, inanclı adamdı. O gün uzun müddət bərabər olmuşduq və Xıdır əkə mən oruc olduğum üçün yanımda heç bir şey yeyib-içməmişdi. Hətta yemək vaxtı gəldiyi zaman bir şey yeməsini rica etdiyim halda, heç yerə getmədi. İftara yaxın saatlarda avtomobildə gedərkən "Xıdır əkə sən niyə oruc tutmursan?" deyə

soruşdum. Oruc tutan adama hörmət əlaməti olaraq o da axşama qədər onsuz da oruc tutmuş kimiydi. “Amma mən namaz qılmıram ki” dedi. “Olsun” dedim. “Sanki mən cümə namazlarının xaricində namaz qılıram ki... Namazın yeri başqadır, orucun yeri başqadır. Ancaq oruc ikən namaz da qılım desən, əlbəttə daha yaxşı olar. Sən də namaz da qıl, oruc da tut”. Bu sözümdən sonra “Namaz qılaram, ancaq mollalar içki içənlər namaz qıla bilməz deyirlər” dedi.

Doğrudur, Xıdır əkə sovetlərdən qalan “məclis qaydalarına uyğun” bəlkə ildə bir neçə qədəh içənlərdəndi. Bu qədər içki içdiyi üçün namaz qadağan olunur, namaz olmayınca da oruc tutması “batil” olur. Aydın olur ki, mollaların bu tərzi “ya hər şey, ya heç nə” prinsipinə uyğundur. Xıdır əkəni anladım və israr etmədim.

Mollaların bu tərzləri Türkiyədən gedənləri də başa düşməkdə problem yaradırdı. Hətta gərginliyə səbəb olurdu. Xoş Türkistanlı dini vəzifə daşıyanlarla Türkiyəlilərin arasında gərginliyin yaranmasında “bizim mollaların” da “payı” vardı.

Qürbətdə insan nələr üçün darıxır, bunu ancaq qürbətdə yaşayanlar bilir. Heç təxmin etməyəcəyiniz bir anda ölkəmizdə ikən çox da düşkün olmadığımız bir yeməyin ləzzətini canınız istəyər, bəzən sözlərini belə tam bilmədiyimiz bir türkü qulaqlarınızda səslənir və zümzümə etməyə başlayırsınız. Vətəndən ayrılmayanlar Vətəni bir coğrafiya, bir torpaq parçası sanırlar. Halbuki, Vətən o torpaq parçasının üzərindəki çayıyla, şorbasıyla, əzanıyla, türküsüylə, hər şeyi ilə bir vəhdətdir. Hər nə qədər bu tarixi coğrafiyamızda gəzərkən çox da tarixə sığışmayan, ancaq hər yerdə özünüzdən bir şey taparaq qəriblik hissi yaşamazsınız. Buralar “hər halda sizindir”, hətta burada doğulub böyüyənlərdən daha çox onları yalnız bildiyiniz mövzularda “belə etməyin” deyə xəbərdar edəcək qədər sizindir. Bu halı Türkistana gələn hər Türkiyəli yaşayır. Nə qədər sizin olsa da, həsrət hər zaman ürəyinizin bir kənarında Anadolunu yada salır.

Bir ara hər vaxt müxtəlif məqamlarla oxunan əzan səsini duymaq istəyirdim. Türkistanda azanlar bir məqamda oxunur və doğrusu, Anodolunun inkişaf etdirdiyi, İtri kimi böyük musiqişünasların üzərində əməklərinin olduğu melodiyalarla oxunan azanları eşitməyə alışmış qulaqlara bu cür oxunan azan məqam çox da xoş gəlmir.

Aramızda Türkiyədən gəlmiş azan oxuya biləcək dostlarımız vardı. Onların həftədə bir dəfə də olsa məsciddə azan oxumaları bəlkə həsrətimizi bir az azalda bilərdi. Xahiş etdim, amma aldığım cavab məni çaşdırdı. "Mollalar icazə verməz" dedilər. Sən demə, Türkiyədən gedən din adamları ilə Türkistanlıların arası heç də yaxşı deyilmiş. Doğrusu heyrət etdim: din adamları kimi xalq üzərində təsirli bir qrupun, Türkiyədən gələnlərin əleyhinə olmasını nə lazımdırsa edib aradan qaldırmaq lazımdı. Bu soyuqluğun səbəbləri isə, açığı hər iki tərəfin "mollalığı" idi. Qazax mollalar Türkiyəlilər namaz libası geymədən namazlara gəldikləri üçün acıqlanırmışlar. Hər halda bu "səhvin" Qazaxlar arasında da yayılmasından qorxurmuşlar. Bizim "mollalar" isə Qazax məscidi mollasının Quran oxuyarkən bəzi səslərin tələffüzünü düzəldirmişlər. Hər ləhcədə səslər bir az fərqli çıxır, ancaq Türkiyədən gedən mollaların buna dözümləri yoxdur.

Bu cür kiçik hadisə ilə mollalar arasında gərginlik başlamışdı. Bunu mütləq aradan qaldırmaq lazımdı. Xalqla münasibətlərdə də bu aradan qaldırılmasa, Türkistanda olmağımızın təməl prinsipi də aradan qalxırdı.

Ramazan ayının gəlməsindən istifadə edərək bir plan hazırladıq. Qrupumuz üç nəfərdən ibarət idi: pensiyaçı, Müfti Ramazan Xoca, islam tarixi dosenti və keçmiş millət vəkilimiz Mehmet Şimşək bəy və mən. Onların hər ikisi tolerant insanlardı. Hədəf kütləmiz və məqsədimiz bəlli idi: Türkistandakı din adamları ilə Türkiyədən gələn qrupun bir-birinə yaxınlaşmasını təmin edəcəkdik. Din adamlarına nə Türkiyə haqqında, nə də dini mövzularda heç təbliğat aparmayacaqdıq. Hədiyyələr verərək və qarşılıqlı ziyarətlərlə aradakı səmimiyyəti təmin edəcəkdik. Bu planımızdan sadəcə Universitetin İdarə Heyətinin sədri Namiq Kamal Zeybək bəyə danışdıq və xərcləyəcəyimiz vəsaitlər üçün izin aldıq. O günlərdə Universitetin qonaq evi kimi istifadə etdiyi Turan otelinin idarə olunması mənə tapşırıldı. "Təmsil və qarşılama" məsələlərinə vəsait ayıracaqdıq.

Ramazan Xoca və Mehmet Ağabəy bu plan çərçivəsində Türkistandakı məscidləri ziyarət edib insanlarla münasibətlər yaradırdılar. Mən də bir yandan hədiyyə işlərini təşkil edib, digər yandan da səhər namazlarına məscid camaatının içinə qatılmağa cəhd edirdim.

İlk getdiyim səhər namazında məscidə gələn yaşlılar doğrusu, məni görəndə çox heyrət etdilər. Hər halda sübh namazı üçün gələn ilk Türkiyəli idim. Çünki Türkiyədən gələnlərin qaldıqları yerlə məscid arasında uzun məsafə vardı. Hətta mən də namaza gedərkən yanıma gözətçilərdən birini götürmək zərurətini hiss edirdim.

Getdiyim ilk sübh namazında mollanın namazın başlamasına az qalmış yetişə bildim. Camaat sadəcə 9 nəfərdən ibarət idi və mənim iştirakımla 10 nəfər olmuşdu. Yoldaşım məscidin həyətində məni gözləyirdi. Namaz bitən kimi oradan ayrıldım.

Bir neçə gün sonra daha erkən getmişdim. Qocalardan bir neçəsi ilə tanış olmaq imkanı qazandım. Onların orta yaş həddi 60-dan çox idi. Ağ saqqallı və sarğılıydılar. Sarğı sarımaq Qazax qocaları üçün şərəf hesab olunur. Namaz qıldıqdan sonra ən yaxınımda olan qoca qalmağım üçün işarə etdi. Sıraların sonunda dayananlar mollaya doğru yaxınlaşaraq kiçik bir dairə əmələ gətirdilər. Sıranın sağ yanında oturan İxlas surəsini oxumaya başladı. Üç dəfə təkrarladıqdan sonra növbə onun yanında oturana keçdi. O, da qazaxca qısa bir ilahi oxudu. Əmin deyildim, ancaq deyəsən Yesəvinin hikmətlərindən idi. Çünki dili hazırkı Qazaxca deyildi. Kimi Quran oxudu, kimi də ilahi söylədi və axırda uzun bir dua oxundu. Bu qocalar ya hələ təsəvvüflə maraqlanırdılar, ya da keçmiş təriqət üsullarından qalma ənənəvi davranışları göstərirdilər. Əmin deyildim, doğrusu maraqlanırdım da, ancaq suallarımdan narahat olacaqlarından qorxurdum. Bundan başqa, əgər təsəvvüflə bağlılıqları vardırsa da və bunları o səbəbdən edirdilərsə, mənə deməyəcəklərindən əmindim.

Üç nəfərlik qrupumuzun işləri çox yaxşı gedirdi. Ramazan ayının sonuna yaxın yeni dostlarımızı qaldığımız otelə "ağız açmağa" dəvət etdik. Qazaxlar Anadolunun bir çox sayda yörəsində də istifadə etdiyi kimi iftara "ağız açmaq" deyirlər. Ayrıca maraqlı olan bir məsələ də "oraza tutma" yəni oruc tutmaq deyimidir. Qazaxcada tutmaq feli yerinə "ustau" istifadə olunur. Kitabı tutmaq, Qazaxca "Kitabı ustau" şəklində söylənir. Ancaq oruc tutmaq yerinə oraza ustau deyilmir, "oraza tutu" deyilir. Oruclu olmaq "ağızbekitu" yəni ağız bağlamaqdır. İftar etmək isə "ağız açu" dur. Qazaxcadakı –u, şəkilçisinin Türkiyə türkcəsindəki –mak, -mək mənalarını verdiyi, hər halda başa düşülür.

Ağız açmağa olduqca çox sayda adam qatılmışdı. İftara gələn din adamları hər zaman kənardan baxdıqları Universitetin yeni binalarına ilk dəfə girirdilər. Otelin yeməkxana hissəsi Türkistana gələn Prezidentlərə də ziyafət verilən, olduqca müasir bir salon idi. Fikrimcə, qonaqlarımızın bir çoxu ilk dəfə belə bir lüks yerdə iftar edirdilər.

Biz əsla heç bir şeyin reklamını etmirdik. Evimizdə qonaqlarımızı qəbul etmək nəzakətiylə onları qarşılayıb izzətlə qonaq edirdik. Onsuz da bura bizim evimiz sayılırdı, çünki biz burada yaşayırdıq.

Əzanı gözlədiyimiz zaman aramızda "Bu gün bütün Xocalar buradadırlar, Türkistan iftar edə bilməyəcək" kimi zarafatlar da oldu. Əzan oxundu, Qazax adətincə hamımız oruclarımız açmaq üçün əzanın bitməsini gözlədik. Sonra dua oxundu və hamımız eyni zamanda orucumuzu açdıq.

Otelimizin düz yanında tələbə yataqxanaları vardı. Sovet dönəmində tələbə qızlar və oğlanlar eyni yataqxanalarda yaşayarmışlar. Yesəvi Universitetləri yataqxanalarında isə qızlar və oğlanlar ayrı-ayrı binalarda qalırdılar və Türkiyədəki kimi bir-birilərinin yataqxanalarına girib-çıxmaqları qadağan idi. Qonaqlarımız bu qaydadan son dərəcə məmnun olduqlarını bildirdilər. Söhbət şirinləşirdi. Gecə namazının vaxtının yaxınlaşdığını xatırladaraq icazə istədilər. Dəvətimizi qəbul edib gəldikləri üçün hər birinə ayrı-ayrılıqda təşəkkür edərək, bayır qapısına qədər hörmətlə yola saldıq.

Bu iftar mollalarla əlaqələrin yaradılması prizmasından bir dönüş nöqtəsi olmuşdu. Artıq cümə namazlarına getdiyimiz zaman bizi daha səmimi qarşılayırdılar. Hətta bir neçə dəfə Ramazan xocaya imamlıq təklif edərək cümə namazını onun qıldırmasını istədilər. Əzan oxuya bilmədiyimiz halda, namaz qıldırana çevrilmişdik.

Bu səmimiliyi davam etdirərək Ramazan xoca yeni bir hücuma başladı. Özü dərslərindən boş vaxt tapanda Ahıska Türklərinin yaşadığı məhəllədə uşaqlara Quran dərsi verirdi. Qazax Xocalarına öz uşaqlarına Quran öyrətmələrini təklif etdi. Xocalar uşaqlara pulsuz dərs keçəcəkdilər, ancaq biz onlara hər bir şagird üçün pul ödəyəcəkdik. Layihəmiz həyata keçmişdi. Qısa müddət ərzində müxtəlif məscidlərdə kurslara gələn uşaqların sayı səksəni ötmüşdü. Bir-iki məsciddə cüz oxumağı bitirib Quran oxumağa keçən uşaqlar üçün tədbir də görmüşdük. Oğlan uşaqlarına köynək, qızlara yaylıq, hədiyyə və təbii

ki, hamısına bir ədəd Qurani-Kərim almışdıq. Ahıska Məscidindəki gedən tədbirdə on uşaq hədiyyələrini aldılar. Ahıskalı uşaqlara bizimlə bərabər dostlar bir-bir, iki-iki hədiyyələri paylayırdılar. O anlarda diqqət etdim ki, uşaqlar Qurani-Kərimi əllərində elə necə gəldi tutmuşdular. Odur ki, onlara müraciətlə dedim: "Uşaqlar, digər millətlərdə başqa cür ola bilər, lakin biz Türklər Qurani-Kərimi heç bir zaman belimizdən aşağıda tutmarıq". İzləməyə dəyər bir mənzərə yarandı. Hamı birdən kitablarını qaldırıb sinələrinə tutdular.

Bayram namazlarında da əgər vaxtında gedən olursa ön sıralara dəvət edilirdik. Təbii, bu fəaliyyətləri müntəzəm davam etdirmək mümkün olmadı. Bu anlatdıqlarımız 1998-1999–cu təhsil illərində edilənlərdi. Daha sonrakı illərdə yeni gələn bir məmur Ramazan xocanı təhsil ilinin başlanğıcında "saqqalı" olduğundan ötrü "Universitetin imicini pozması" səbəbiylə Türkiyəyə geri göndərdi.

STANSİYA

Türkistanın taleyində mühüm rol oynayan binalardan biri, heç şübhəsiz Daşkənd-Orenburq dəmiryolu üzərində XIX əsr rus memarlığı ilə tikilən orta böyüklükdə olan stansiya binasıdır. 1902-ci ildə tikilən bu binanın ətrafında salınacaq şəhərciyin də sanki ilk toxumudur. Daha sonra düz onun yanında tikilən dəmir zavodu, dəmiryol xəstəxanası və digər kiçik bir neçə müəssisə ilə Yesidən qopan, Yesi xalqını bir az uzaqlaşdıran, hətta bəlkə bir az da yuxarıdan aşağı baxan, Barisovka adı ilə yeni bir rayon bu ətrafda yaranır. İnkişaf prosesi davam etdikcə köhnə Yesi rus qarnizonunun yerləşdiyi bölmələrlə birləşərək bu gün Türkistanın bir məhəlləsi halında öz fəaliyyətini davam etdirir.

Stansiya binası bu gün üzərində mavi rəngli hərflərlə "Qazaxıstan dəmiryolu" yazısını daşısa da, memarlıq nöqteyi-nəzərdən tarixini və buradakı vəzifəsini bir anda xatırladaraq Türkistana gələnləri və gedənləri qarşılayır və yola salır. Yaxın vaxtlara qədər binanın qarşısındakı ərazidə qoyulan Marksın və Engelsin heykəlləri də binanın memarlığında olan boşluqları tamamlayırdı. Bir metr ucalığındakı bu iki saqqallı insan başı heykəli Türkistanın sovet dönəmindən qalan heykəllərindən ən son dağıdılanları oldu. Dünyanı bürüyən bu iki nəzəriyyəçi xalqın gözündə Lenin və Stalinlə müqayisədə daha az nüfuzdan düşüblər. Bu səbəbdən onların heykəllərini götürmək üçün Türkistanın 1500 illik yubiley tədbirlərinə qədər gözləmək lazım gəldi. 2000-ci ilə təsadüf edən bu dönəmdə də bu fikrə qarşı çıxanlar çox olsalar da, "tədbirlər üçün şəhərə çox sayda xarici qonaq gələcək, hələ də onların heykəllərini burada görmələri Türkistan xalqı üçün yanlış düşüncələrə səbəb ola bilər" fikrindən yaranan bir "ar" duyğusuyla heykəllər götürüldülər.

Onu da qeyd edim ki, sovetlərin yaradıcı liderlərindən xalq arasında ən çox nüfuzdan düşəni Stalin olsa da, onu xüsusilə yaşlılar arasında istəyənlər də vardır. Bu həsrətin və "Ah, Stalin olsaydı" nidalarının ən çox eşidildiyi söhbət anları isə rüşvətxorluq ilə bağlı mövzuların danışıldığı zamanlardır. "Bir-ikisini asacaqsan, o zaman heç kimin bu işi etməyə cəsarəti çatmaz" məntiqi ilə çalışmağa başladığında yaşı altmışdan çox olanlarda Stalinə çağırış baş qaldırır. Ziyalılardan,

xüsusilə həqiqi ziyalılardan yaşı neçə olursa olsun, heç eşitmədiyiniz Stalin tərifləri də beləliklə başlamış olur. Lenin bu mənada daha şanslıdır və hələ də böyük miqyasda öz hörmətini qoruyub saxlayır. Ən azı keçmişin günahları üçün Lenini söyənlərə rast gəlmək çətindir. Ona olan hörmətin hələ də davam etməsinin əsl səbəbi Leninin ölümü ilə bağlıdır. Lenin 17 oktyabr inqilabından bir müddət sonra xəstələnmiş və inqilab tam başa çatmadan vəfat etmişdir. "O yaxşı işlər görəcəkdi, ancaq ömür vəfa etmədi" düşüncəsi ilə onun adına olan marağın davam etməsinin əsl səbəbidir. Buna baxmayaraq, keçmiş sovet ərazisində olduğu kimi, Türkistanda da Leninin heykəlini götürmək çətin olmayıb.

Hər sovet şəhərinin ana meydanlarını dolduran böyük Lenin heykəllərinin çoxunu sovetlərin dağılması ilə birlikdə adətən dəyişmənin simvolu halına gələrək ardıcıl ortadan qaldırılmışdır. Lakin bu bütün şəhərlərdə belə deyildir. Məsələn, Qırğızıstan Respublikasının paytaxtı Bişkekdə hələ də Leninin böyük bir heykəli şəhərin əsas meydanında dayanıb. Türkistanda isə keçmiş Kommunist Partiyasının binası qarşısında, şəhərin ana meydanlarının birində müstəqillikdən sonrakı 6 ildə varlığını davam etdirmişdir. Müstəqillikdən sonrakı illərdə Türk-Qazax Xoca Əhməd Yesəvi Universitetinin rektorluq binası olan bu yerdə işləyən Türkiyəli məmurlar da 3 il ərzində səhər işə gələrkən Lenin tərəfindən qarşılanmış və axşam yenə də onun tərəfindən yola salınmışdır.

Altı metr hündürlüyü və postamenti ilə birlikdə səkkiz metr ucalığında olan bu heykəli sökmək üçün Türkistanın o zamankı icra başçısı gizli halda gecə əməliyyatı hazırlamaq məcburiyyətində qalmışdır. Sovetlərin dağıldığı illərdə böyük sevinc nümayişi ilə Bakıda dağıdılan Lenin heykəllərinin əksinə Türkistanda heykəl xalqdan gizli şəkildə yoxa çıxarılır. Lenin heykəlinə bu dərəcə gizli əməliyyat hazırlayan icra başçısı xalqa bildirmədən hərəkət etməsində nə qədər haqlı olduğunu çox keçmədən anlayır. Heykəli götürdüyü gün günorta olmamış xalqı təmsil edən yaşlılardan ibarət bir heyət icra başçısı ilə görüşə gələrək "Leninin heykəlinə nə oldu?" soruşurlar. İcra başçısı qocalarla birlikdə bu heykəli götürməyin nə qədər yanlış bir iş olduğunu, bunu edən ədəbsizləri mütləq tapıb cəzalandıracağına və heykəli mütləq taparaq yenidən bərpa edəcəyinə söz verərək qocaları yola salır. Beləliklə, heykəl də götürülmüş olur.

Nəzəriyyəçi və praktik həyatda olanlarla həqiqətən əlaqəsi olmayan Marks və Engelsin heykəlləri üçün isə Lenin heykəlindən sonra daha dörd il gözləmək lazım gəlmişdir.

Heykəlləri bir kənara qoyaraq təkrar stansiya binasına dönmüş olsaq, burası ana giriş, yolçu gözləmə və restoran olmaq üzrə təxminən bir-birinə bərabər böyüklükdə üç salondan ibarətdir. Şəhərə baxan hissəsində bina önündə yolçu gözləyən bir neçə taksi sürücüsündən başqa adama rastlamaq olmur. Lakin əsas salonda hər zaman adamların sayı çox olur. Müxtəlif şəhərlərə gedə bilmək üçün bilet almağa gələnlər, qatar vaxtlarını soruşanlar olduğu kimi, ayaqüstü bilet satanlar bu salonda sıxlıq yaradırlar. Lakin əsl sıxlıq binanın dəmir yollarına baxan tərəfindədir. Geniş və hündür qapıdan sanki başqa bir aləmə çıxırsan. Digər qapıdakı sakitliyin əksinə bu tərəfdə həyəcanla çoxlu sayda insanlar gözləyir: yolçu qarşılamağa gələn Türkistanlılar, səfərə çıxanları yola salanlar, gələn qatarda bir-iki stansiya quru yemiş, mövsümə uyğun alma və başqa meyvələr satmaq niyyəti ilə gözləyən satıcılar, yük daşıyanlar, stansiya xidmətçiləri, kimi gəzərək, kimisi də divar diblərində kürəklərini divara söykəyib gözləyirlər. Bir-birinə paralel olan on iki dəmir relsin parıldayan üst səthlərinin xaricində illərdən yığılıb qalan yağlardan qaralan zəmin və bütün bunların üzərindən keçən uzun dəmir üst keçid bu hissənin soyuq görüntüsünü tamamilə artırır. Bura səhranın ortasında öz halında həyat mübarizəsi aparan Türkistan şəhərinin ümumi atmosferindən fərqli bir yerdir.

Bu dəmir relslər üzərindən Qazaxıstan dəmir yoluna aid qatarlarla bərabər rus və Özbək qatarları da keçirlər. Varlı yolçular Qazaxıstan ekspressinə üstünlük verirlər. Digər Atrau və Alatav ekspreslərinə görə yolçu daşıma haqqı bir az baha olsa da SP adlanan xüsusi vaqonları və digər hissələri olduqca təmiz və etibarlıdır. SP vaqonlar iki nəfərlik otaqlara bölünmüşdür və bu vaqonlarda yolçuların gecələr rahat yatması üçün verilən yataq dəstləri daha təmiz və yenidirlər. Həyat yoldaşları ilə birlikdə bu otaqları tutanlar adətən öz yataq dəstlərini istifadə etməyə üstünlük verirlər. Bundan başqa, bu vaqonlara səyyar satıcıların girməsi də digərlərinə nisbətən daha çətindir.

Normal vaqonlarda yolçuluq bir az cəsarət və mübarizə gücü tələb edir. Geniş arakəsmələrlə bölünmüş böyük bir salonu xatırladan

bu vaqonlarda yolçular arasında içki içənlərin üstünlük təşkil etməsi nə demək istədiyimizi aydınlaşdırır. Uzun yolçuluqların məşəqqətini azaltmaq istəyən bəzi yolçular içki içməklə vaxtı öldürürlər. Hətta yolçuluğa tədarüksüz çıxanlar üçün stansiyalarda vaqonlara minən səyyar satıcılar əllərindəki pivə qabları ilə xidmət göstərirlər.

İstər SP, istərsə də normal vaqonlarda yolçuların can və malları konduktorlara əmanətdir. Tünd göy rəngdə uniformaların içində qadınlı-kişili bu xidmətçilər özlərindən razı halda yolçuların arasında gəzişir, əmredici səs tonları ilə nizam-intizam yaratmağa çalışırlar.

Sovetlərin dağılmasından sonrakı xaos içərisində ən yaxşı işləyən sistem dəmiryolu daşımalarıdır. Təyyarələrin vaxtında uçmaması, hətta, səfərlərin ləğv edilməsi adi hal olsa da, qatarların hərəkətində bu cür hallara çox az təsadüf olunur. Xüsusilə ekspreslər vaxtında stansiyaya gəlirlər.

BEYNƏLXALQ TÜRK-QAZAX XOCA ƏHMƏD YESƏVİ UNİVERSİTETİ

Türkistan şəhərinin Çimkənd girişində qranitdən olan müasir, iddialı görünüşlü böyük binalar gələnləri qarşılayır. Bunlar Türkiyə ilə Qazaxıstanın birgə yaratdıqları Xoca Əhməd Yesəvi Universitetinin tədris binalarıdır. Bura, Qazaxıstanın müstəqilliyinin qazanılmasından sonra Türkistanın taleyini dəyişdirən müəssisə oldu. Əslində Universitet Türkistan Universiteti adı ilə Qazaxıstanın Prezidenti Nursultan Nazarbayev tərəfindən ölkənin müstəqilliyinin simvollarından biri kimi yaradılmışdır. Müstəqil Qazaxıstan yalnız yaradılması ilə deyil, yaradılma prosedurası ilə Türkistana və onun adını daşıyan Universitetə xüsusi bir əhəmiyyət verdiyini göstərir. Qazaxıstanın qaydalarına görə bir universitet açmaq üçün baş nazirin imzası lazımdır. Əgər baş nazir bir universitet açmaq üçün qərarı imzalayarsa, yeni bir təhsil ocağı fəaliyyətə başlamış olur. Lakin Türkistan Universitetinin yaranma qərarını birbaşa Nursultan Nazarbayev imzalayaraq, türklüyün ortaq tarixi, elm və mədəniyyət mərkəzi olan Türkistan şəhərini təkrar kimliyinə qaytarmağa verdiyi önəmi göstərmiş oldu. Yaranmasından iki il sonra Türkistan Universiteti Türkistan şəhərinin mənəvi sahibinə və Türk mədəniyyətinin əvəzsiz simalarından olan Xoca Əhməd Yesəvinin adı ilə Türkiyə və Qazaxıstanın ortaq Universitetinə çevrildi.

Bu layihə böyük iddialara sahibdir. Bir yandan Türkiyə və Qazaxıstan Əhməd Yesəvi Türbəsində birlikdə təmir işinə başlayarkən, digər tərəfdən isə onun adı ilə bir elm yuvasında türklüyün elm, mədəniyyət və mənəvi mirasının bərpasına qoşulmaq üçün bir universitet yaradılır.

Doğrusu, Xoca Əhməd Yesəvi Universitetinin yaranma fəlsəfəsindən həyəcanlanmamaq mümkün deyildir. Hələ də eyni həyəcanı ürəyində hiss edən bu sətirlərin müəllifi də universitetin emblemində olan Türkiyə və Qazaxıstan bayraqlarından təsirlənərək bir toplantıda təhsil işçilərinə bu ifadələrlə duyğularını anlatmışdır: “Dostlar, bu universitetin emblemina diqqətlə baxın. Bir yanda ay və ulduz, digər yanda günəş var. Bu bayraqlar bu emblemdə yan-yana

dayandıqca bu universitetdə qaranlıq olmayacaqdır. Əhməd Yesəvi babamızın adını daşıyan universitetimizin aydınlığında yetişən azad düşüncəli şahinlərimiz türklüyün parlaq səmalarında hər zaman yüksəklərə uçacaqlar".

Bu səmimi duyğulardan aldığımız güclə Türkistan şəhərinin həyatı çətinləşdirən bəzi mənfiliklərinə fikir vermədən şahinlərin yetişməsi üçün çox zəhmət çəkdik. Bu kitabın anlatdıqları da bu səbəbdən burada keçirdiyimiz dörd il içində tanıya bildiyimiz və qüdrətimiz çatdığı qədər anlatmağa çalışdığımız Türkistandır.

Qazaxıstan bayrağında günəşi qanadlarının arasına alan şahin fiquru hər dəfə baxdığım zaman mənim üçün çox böyük mənalar ifadə edib. Məlum olduğu kimi, şahin imici Türk mədəniyyət tarixində hər mərhələdə olmuş və mühüm əhəmiyyət daşımışdır. Şahin quşu təlim veriləndə o ovuna heç bir zərər vermədən sahibi üçün çalışan və onun verdikləri ilə kifayətlənən sadiq bir dost halına gəlir. Bu səbəbdən Türk fəlsəfəsində şahinik mühüm bir mərtəbədir. Onlar xarakterlərini və şəxsiyyətlərini yetişdirərək bu mərtəbəyə yalnız yaxşılıqları yaymaq və insanları pisliklərdən uzaqlaşdırmaq məqsədilə yaşamağa başladılar. Özlərinə şahini simvol götürən Türk xalqları isə, pisliklər üstünə göndərilmiş Tanrının qəzəbi, yer üzərində ədaləti və yaxşılıqları yaymağa məmur Tanrının qılıncı olaraq hər zaman xeyirxahlığın insanlar arasında daha çox yayılması məqsədilə yaşamışdılar. İqtidar gücünü əllərində tutan xaqanlar şəxsi zövq və səfaları yerinə "ac milləti tox, az milləti çox qılmaq", yer üzərində ədaləti bərpa etmək və yaymaq ideyalarına özlərini həsr edərək yaşamağa başlamışlar və bəlkə də bu səbəbdən böyük dövlətlərin sahibi olublar. Kaş ki, tarixin hər mərhələsində hər zaman belə ola bilsəydi. Ancaq ən azı bunu söyləmək mümkündür. İnsanlığın yaradılışında var olan yaxşılıq Türk mədəniyyətinin də gizli şifrlərində tarixin hər mərhələsində üstün dəyərlər uğrunda yaşamaq fəzilətlərinin yaşaması, xeyirxahlıqların insanlar arasında daha çox yayılması məqsədini saxlamış və yaşada bilmişdir. Türklüyün uğrunda mübarizə apardığı tarixi "qızıl alma"sı məncə əslində bu məqsədlə olmuşdur. Qızıl almanı realizə etmək lazım olduğu zaman onu günəşlə simvolizə etmişdir: xeyirxahlığın hakimiyyətini günəşə qədər yaymaq istəmişdir; günəşi fəth etmək və Tanrının ədalətini günəşə qədər hər yerə hakim etmək. Qazaxıstanın

bayrağında mavi zəmin üzərində günəşi qanadları arasına almış şahin mənə hər zaman bu dərin mənaları ifadə etmək üçün nəzərdə tutulmuş təsiri bağışlamışdır. Qazaxıstan bayrağını hazırlayan qrafikaçılar və ya ona rəy verən komissiyalar mənim bu hiss etdiklərimi düşünməmiş olsalar belə, nəticədə Türk mədəniyyətinin gizli şifrləri şəkil formasında hazırlanıb göylərə yüksəldilmişdir.

Bu iki Türk dövlətinin bayraqlarını emblemində yan-yana daşıyan universitet yeni dönəmdə Türkistan şəhərinin iqtisadi və mədəni həyatında mühüm rol oynamağa başlayır. Hələ uzaq iddialarına çatmaq üçün çox məsafə qət etməsi lazımkən iqtisadi qaynaqlar Türkistanın simasının bu gündən dəyişməyə başlamasına şərait yaratmışdır. Bölgədə əhalinin sayının ən yüksək artım sürəti Türkistan şəhərində olmuşdur. Ətrafda, Türkistan böyüklüyündə olan şəhərlərin hamısından əhali digər yerlərə köç edərək sayı azaldığı halda, bunun əksinə olaraq Türkistana gələnlərin sayı artmışdır. Bunun səbəblərindən biri də universitetlə bağlıdır. Tələbələr, müəllim heyəti, xidmətçilər və qoyulan sərmayələr son illərdə Türkistanın iqtisadi cəhətdən inkişaf etməsinə səbəb olmuşdur.

Universitetin yaranmasında iki ölkə prezidentinin Nazarbayev və Dəmirəlin zəhmətini də qeyd etmək lazımdır. Və əlbəttə Türkistan Universiteti dönəmindən etibarən rektor akademik Murat Jurinov və Türkiyənin iştirakı ilə birlikdə keçmiş Mədəniyyət Naziri Namiq Kamal Zeybəkin fəaliyyətləri də xüsusi vurğulanmalıdır.

Türkiyə Cümhuriyyətinin keçmiş nazirlərinə və universitetin yaranmasından bəri İdarə Heyətinin sədri vəzifəsində çalışan Namiq Kamal Zeybək üçün "Türkistanın Bayburtda doğulan oğlu" deyilsə yerinə düşər. O, türbənin restavrasiyasının başlanması və universitetin yaradılması və davamlı çalışmaları ilə müstəqillikdən sonra Türkistanda mühüm işlər görmüşdür. Deyilənlərə görə o, ölümündən sonra burada dəfn edilməyi arzulayır. Bunu bacara bilsə, Türkistan şəhərinin tarixində simvollaşaraq yerini alacaqdır.

Rektor, akademik Murat Jurinov Qazaxıstan Elmlər Akademiyası üzvü, 27 elm adamından biri, keçmiş Milli Təhsil Naziri olaraq böyük şəhərlərin həyat standartlarını bir kənara buraxaraq, Türkistan şəhərində yaşamağa üstünlük vermiş və bununla da böyük bir fədakarlıq göstərmişdir. Fikrimcə, Yesəvi soyundan olmasının bu seçimdə rolu

olmuşdur və arxasınca müəllimim və böyük qardaşım hesab etdiyim professor Orhan Kavuncunun həyəcanlarla dolu 18 aylıq bir xidmət dövrü gəlir. Mən Türkistan şəhərinə ilk gəldiyim 1997-ci ildə isə bir cüt insanla prorektor, professor Gülçin Çandarlıoğlu və Türkistan bölməsinin rektoru, professor Şərif Akdaşla tanış olmuşdum.

Belə ki, birgə həyəcanlarla şahinlərin yetişdirilməsinə çalışan və bizlər üçün şəhərin məhrumiyyətlərini isti dostluqları ilə unutduraraq burada keçən günlərimizi gözəlləşdirən Ali Akbaş, Özer Rəvanoğlu Ağabəylərimi, Vehbi, Dursun, Saleh, Mehmet, Sevda kimi dostlarımın, Ziya Başkan və İbrahim Karaköy kimi qeyrətli iş yoldaşlarımızın və daha neçə nəfərin bir-bir hekayətlərini anlatmaq bəlkə bu işimin məqsədini aşacaqdır. Lakin ortaq universitet olması səbəbiylə Türkiyədən bura işləməyə gələnlərin ruh halı və davranışlarındakı ortaq cəhətləri öyrənmək daha yerinə düşər. Türkiyədə Yesəvi Universitetinə işləməyə gələnlərin ruh hallarını və bu halından doğan davranışlarını ümumiləşdirərək belə xarakterizə etmək olar. I qrup kitablardan və eşitdiklərindən tanıdıqları Qazaxıstana üzərilərinə böyük missiyalar götürərək gəlirlər. Onların fikrincə "70 il kommunist idarəçiliyində olan və ruslar tərəfindən dilləri və mədəniyyətləri, mənəvi dəyərləri unutdurulan, maddi sərvətləri soyulan bu qardaşlarımızı qurtarmaq milli bir vəzifədir. Onlar gələcəklər və qardaşlarını qurtaracaqlar". Bu qrup min çətinlik və sıxıntıya qatlanmaq məcburiyyətində qalacaqlarını bildikləri halda Türkistan şəhərinə gəlirlər. Əslində bu gəliş onların düşündüklərinin həyata keçirilməsinin zənn edilən qədər asan olmayacağını başa salır. Sonra gəldikləri zaman görürlər ki, ortada xilas olmağı gözləyən bir xalq yoxdur. "Xilas ediciləri", min bir çətinliklə onlara çatmış olmasına baxmayaraq, burada insanlar gələnin fərqində belə olmadan öz gündəlik həyatlarına davam edirlər. Bu səbəbdən də onların qarşılanması bura gələnlərin ilk xəyal qırıqlığıdır. Heç kim "Xoş gəldiniz" deyə qarşılarına qaçmayıb boyunlarına sarılıb qucaqlamayıblar. Ancaq hələ ümidləri tükənməyib; xalqla təmasda olduqları zaman xalq onları anlayacaqdır. Onları Türkistanda olduqları birinci və ya ikinci gün şəhəri tanımaqları üçün daha əvvəl bura gələnlər bazara aparırlar. Çoxlu adamların içərisində onların önünə qaçanlar yalnız "dollar alırıq, dollar varmı?" deyə dollar ticarəti edənlər olacaqdır. Xəyallarının yıxıldığı zamandır. Bax, bundan sonra gedərək

çoxalan və tez-tez eşidilən “Ah, biz buraya nə ideyalarla gəlmişdik” deyərək başlarına döymək istəyirlər. Bu mərhələdən sonra Qazaxları, Türkistanı, Türkiyəni hər dilinə gələni tənqid etməkdən başqa görüləsi bir şey qalmaz. Bu qrupun bəzilərinin dillərində xilasedicilik, könüllərində yaşıl dollar istiliyi, bu ay nə qədər xərcləri olacaqdır deyə hesab aparanlar da var.

Digər bir qrup isə yenə bu həyəcanları yaşamaqla yanaşı, böyük iddialarla kiçik işlər görərək çata biləcəyini düşünənlərdir. Bir könül qazanmağın bir cahan qazanmaq olduğunu bilərək; ətrafdakılara sakit qonşuluq, dostluq əlaqələri ilə özlərini sevdirən, Qazaxları və Qazax mədəniyyətini sevən və öyrənməkdən zövq alan insanlardır ki, əsl xidməti bunlar göstərirlər.

Qardaş xalqlarımız arasında dostluğun inkişaf etməsinə tarixi köklərimizin yenidən qurulmasına xidmət edən hər kəsi buradan salamlayıram.

BAZAR

Hər gün axşam yığışdırılıb, hər səhər yenidən qurulan bazar Türkistan iqtisadiyyatının gündəlik fəaliyyətlərinin ən sıx olduğu yerdir. Stansiya məhəlləsindən şəhərə gələn prospekt üzərində yerləşən bu bazar Türkistanın ən mühüm mərkəzlərindən biridir. Hər cür yeməli-içməli şeylər, geyim əşyası, kitab, hətta bəzi elektrik əşyalarının satıldığı, qısası hər cür ehtiyac üçün xalqın gəldiyi yerdir.

Bazar "Yeni Türkistanla" stansiya məhəlləsini birləşdirən və bu günlərdə şəhərin ən hərəkətli prospekti vəziyyətindəki yolun üzərində qurulur. Bu prospekt ilə Yesəvi Türbəsi arasında isə ruslar gəlməzdən əvvəlki Türkistan məhəlləsi yerləşmişdir. "Keçmiş Türkistan" evlərinin Yesi məhəlləsindən əsas etibarı ilə çox fərqi yoxdur. Yalnız buradakı küçələr daha gözəldir.

Əslində şəhərdə buradan başqa əlavə yeddi səkkiz bazar vardır. Lakin ən böyük və ən sıx bazar bura olduğu üçün xalq arasında bazar deyildikdə ağıla bura gəlir. Türkiyədə bələdiyyələrin hazırlayıb işlətdikləri bazar yerlərini burada özəl təşəbbüs qrupları işlədir. Heyvan bazarı, maşın bazarı özəl qruplar tərəfindən işlədilir.

Bazar yerinə yaxınlaşması ilə birlikdə artan maşın sıxlığı və bu şəhərdə çox görülməyən maşın saxlamaq yeri probleminin başlanması, bu məkanda yaşanan canlılığın ilk işarətləridir. Bəzi piştaxtalar bazar yeri olan ərazinin xaricinə, yolun kənarına qədər gəlib çıxmışdır. Bunların başında bazar girişindəki kitab satış nöqtələri gəlir.

Keçmiş zamanlarda şəhərdə bir neçə kitab dükanı varkən, hazırda onların hamısı bağlanmış və Türkistanın mədəniyyət, ədəbiyyat və elm dünyasına açılan pəncərələri yalnız bazar kənarında qurulan bu kitab satış nöqtələrinin ixtiyarına qalmışdır. Buradan ala biləcəyimiz kitablar yalnız piştaxtanın üzərindəkilərlə məhdudlaşmır. Əgər axtardığınız bir kitabın koordinatlarını satıcıya versəniz, bir həftə və ya on gün içərisində tapıb sizə gətirər. Əlbəttə, bu sizi daha çox vəsait xərcləməyə məcbur edəcək. Bir kitab satan piştaxta üzərində bir zamanlar Almaatada "Jas Türkistan"(Gənc Türkistan) jurnalı tərəfindən Fadl Əlinin redaktorluğu ilə nəşr olunan "Atatürk" kitabını Türkistanlılara təqdim etmişdim. Mustafa Çokay Vəkfi tərəfindən çıxarılan "Jas Türkistan"

jurnalının Türkistan şəhəri təmsilçisi olduğumdan “Atatürk” kitabı ilə məşğul olmaq mənim payıma düşmüşdü.

Atatürk kitabı Qazax dilində nəşr olunan və Atatürkə Türkiyə gözü ilə baxan ilk və yeganə kitabdır. Beləliklə, kitabı oxuyanlarda Atatürk haqqındakı düşüncələri də tədqiq etmək imkanımız olurdu.

Cümhuriyyətimizin yaradıcısını anladan əsəri əvvəl havayı Türkiyə ilə Qazaxıstan arasında müştərək müəssisə olan Əhməd Yesəvi Universitetində çalışan əməkdaşlara və müəllimlərə paylamışdıq. Ancaq xalqın arasında da Atatürk haqqında da məlumat əldə etmək istəyənlər ola bilərdi və bizim onlarla əlaqə yaratmaq imkanımız çox məhdud idi. Elə bu məqsədlə də kiçik qiymətlə Atatürk kitablarını bazardakı kitabçıya verdik. Artıq xalq arasında maraqlananlar varsa buradan kitabı ala bilərdilər. Bir ay ərzində satılan otuz kitab bu mövzuya nə qədər maraq olduğunu bizə isbat etdi. Bəlkə əlimizdə daha çox kitab olsaydı, müəyyən vaxtdan sonra onların hamısı satılacaqdı, ancaq əlimizdəki kitablar məhdud sayda idi.

Kitabı oxuyanlardan bəziləri yorumlarını bizə söyləyirdilər. Atatürk haqqında ən böyük çaşqınlıqları onun şəxsən döyüşlərdə iştirak etməsi idi. Türkiyə Cümhuriyyətinin qurucusunu, sovetlərin qurucusu Leninlə müqayisə etmək öyrəşən şahinlər Atatürkün şəxsən döyüşməsinə heyrət edirdilər. Çünki Lenin inqilaba yalnız liderlik etmişdi. Bu fərq Qazax qardaşlarımıza görə Atatürkün lehinə dəyərləndirilir və “biz bunu bilmirdik” ifadələriylə qarşılanırdı.

“Atatürk” kitabı bizə bir şeyi: “Qardaş xalqların bir-birilərini yetərincə tanımadıqlarını və bunu aradan qaldırmaq üçün nə qədər az şey edildiyini” təkrar xatırladırdı.

Kitab satanlardan sonra çörək, qəzet və dondurma satan piştaxtalardan keçərək bazarın içərisinə girmək olur. Bazarın içindəki daha qələbəlik çörək piştaxtalarından çörək almağı unudanlar bazarın çıxışında kəpəyi yaxşıca üyüdülmüş buğda unundan bişirilən çörəklər ala bilərlər. Satıcıların “nan bar nan” dəyə satmağa çalışdıqları bu çörəklərdir. “Nan” sözü ümumiyyətlə, çörək mənasını versə də, bu evdə hazırlanan pidə anlamındadır. Ümumiyyətlə, bu xalqın sevdiyi çörək növüdür. Dilində daha çox rus sözləri işlədənlər, nar kimi qızarmış və görənlərin iştahanı açan bu çörəklərə “lipoşka” deyirlər. Başqa

piştaxtalarda görünən başqa çörək növü isə, adı da bişirmə üsulu kimi Rusiyadan gəlmiş olan "baton" dur.

Baton çörəklər kürələrdə bişirilir və Türkistanda işləyən kürələr olmadığı üçün 30 km uzaqlıqda Kentav şəhərindən gətirilir. 1 kiloluq zeytun yağı qablarına bənzəyən qəliblərin içinə xəmir tökülərək bişirilən batonların unu daha kəpəkli olduğu üçün rəngləri də nanlara nisbətən qaradır. Həzm problemi olanlar xüsusi ilə bu çörəklərə üstünlük verirlər. Xəmirlərinə su, duz və mayadan başqa qatqı maddəsi qatılmayan hər iki çörək çeşidi də ləzzətli olur.

Bazarın qapısından girdiyin zaman musiqi kasetləri satan piştaxtalardan yüksələn vəlvələ ortalığı hərəkətə gətirir. Bəzən Türkiyəli pop musiqisi sənətçiləri Tarkan və Mustafa Sandalın mahnılarının da çalındığı bu piştaxtalarda özbəkcə ritmik nəğmələr və ya qazaxca "termeler" ən çox çalınan musiqilərdir. Piştaxtalardakı kasetlərin çoxu pirat kasetlərdir.

Satıcıların Özbək mahnılarının ritmik olanlarını çaldırmaları təsadüfi deyil. Bu bir yandan xalqının yarısının Özbək kökənli olan Türkistanlıların diqqətini çəkmək, digər yandan toylarda oyun havası musiqi kaseti ehtiyacı olan Qazax müştərilərə xitab edə bilmək üçündür. Maraqlı olanı Qazax xalq musiqisi kimi çalınan nəğmələrin içində oyun havası şəklində musiqinin olmamasıdır. Bu səbəbdən cənubi Qazaxıstanda yaşayan Qazaxlar toylarında Özbək havaları ilə oynayıb əylənirlər. Son illərdə bu Özbək oyun havalarının arasına Türkiyədən gedən nəğmələr də qatılmağa başlamışdır. Hər halda 90-cı illərdə bu şəhərdə olan elə bir toy yoxdur ki, Mustafa Sandalın "Onun arabası var güzelmi, güzel" nəğməsi çalınmamış olsun. Bir çox Orta Asiyalı gəncin bildiyi Türk musiqisi o illərdə yenə "güzelmi güzel" idi. Piştaxtalarda yüksələn qazaxca musiqilər isə ümumiyyətlə, sözləri ilə sosial və mədəni həyatın problemlərini göstərən və xalqa öyüdlər verən xalq ozanlarının "terme" adlanan türküləri və ya yenə eşq yarışmalarında qeyd edilən deyişmələrdir. Aşıq deyişmələri Qazaxıstanda bu gün də ən çox tamaşaçı toplayır. Xalqın bu marağı kaset satışlarında da özünü göstərir.

Qəzet adıyla Türkistan bazarına çatan nəşrlər dövlət adamlarının fəaliyyətləri ilə bağlı xəbərlərin verildiyi, hətta yeni çıxanl "Karavan", ədəbiyyat qəzeti "Kazak ədəbiyyatı" və Cənubi Qazaxıstanda nəşr

olunan “Ayqaq” qəzetləridir. Bəzən piştaxtalarda ara sıra nəşr olunan “Türkistan” şəhər qəzetinə də rast gəlmək olur. Yeri gəlmişkən, bir qayda olaraq oxuya biləcəyiniz digər qəzetlər isə həftəlik çıxan “Jas Alaş” və “Qazaxıstan Zaman”dır. Sarı kağızda, ağ-qara formada nəşr olunan bu qəzetlər Türkistanın yazılı mətbuatdan ala bildiyi məlumatdır. Bunların xaricində nəşr olunan qəzet və jurnalları oxuya bilmək üçün abunə olmaq lazımdır. Lakin burada maraqlı olan iqtisadi sıxıntılar üzündən az sayda qəzet və jurnalın nəşr oluna bildiyi və nəşr olunanlardan da çox azının ümumi paylanmağa verildiyi bir vəziyyətdə “Qazax ədəbiyyatı” qəzetinin ölkənin çox tirajlı yayımları arasında xüsusi yeri vardır. Qazax yazarlarının şeir, hekayə publisistika tərzində yazılan yeni ədəbiyyat nümunələrinə və sənət, ədəbiyyat xəbərlərinə yer verən bu qəzetin satış tirajının artması xalqın sənət və ədəbiyyata olan sevgisinin təzahürüdür.

Bazarda bir az addımlasan, üzərində idxal yuyucu toz qutularının sıralandığı piştaxtalarla, yenə idxal markaların üstünlük təşkil etdiyi siqaret piştaxtaları qarşı qarşıyadır. Bu piştaxtalarda amerikan və ingilis markalar üstünlük təşkil edir. Yuyucu tozların üzərində orijinal markaların kiril əlifbası ilə yazılı və rus dilində açıqlamaları olanlar varsa da, revanşda olanlar orijinal xarici dildə yazılanlardır.

Siqaret piştaxtalarında da vəziyyət eynidir. Malboro, Kent, Maqna markaları ən çox bəyənilən məhsullardır. Hələ bunlardan Maqnanın xüsusi əhəmiyyəti vardır. Bu marka ilə eyni şeirin misrasında yer almaq kimi həddindən artıq bir yaxınlığımız yaranmışdır. Şair Ali Akbaşın Türkistanda olduğumuz uzun müddət bir-birimizi qonaq edərək çəkdiyimiz və hər nəfəsi ilə fikir dağıtmağa çalışdığımız anları xatırlayaraq:

“Haydı ağa, haydı, Yaqub,
Gəl, bir maqna da yandıraq.
Yandırıb dumana baxaq.
Bu yanan sərvətimizdir,
Bu sərvət yeməklə bitməz,
Bu sərvət dərya dənizdir.
İnəklər soylu və sağmal,
Qoyunlar saf və təmizdir.
.....”

deyərək bizi və əlimizdən heç düşməyən Maqnanı şeirdə bir araya gətirmişdir.

Tütündən bəhs edərkən Türkistanda tütünün istehsalı yalnız siqaret çəkmək ilə bağlı deyildir. Anadoluda bəlkə də yalnız Qəhrəman Maraş yörəsində olan "od atma" vərdişi çox geniş yayılmasa da, Türkistanda da vardır. Ön kəsici dişləri ilə dodaq arasına qoyulan meşə külü ilə qatışdırılmış və toz halına gətirilmiş tütün yarpağının, suyu tüpürcəklə qarışır və nikotin ağızdan əmilir. Vərdiş etməyənlərin ağzının içini bir anda yara edəcək qədər sərt olan bu qarışıq siqaretdən üstün tutulur. Bu maraqlı və dünyanın çox az yörəsində olan vərdiş, insanı Maraşlılar ilə Türkistanlılar arasında bir əlaqənin olub-olmadığı insanı düşünməyə vadar edir.

Çay paketlərinin üzərindəki markalara siqaretlərin üzərindəkilərə bənzəyir. Yalnız Səmərqənddən gələn kök çayların (yaşıl çaylar) üzərində özbəkcə ifadələr var. Digərləri kəkilləri görünən şəkildə üzərilərinə bir örtü atmış hindli qızların rəsmlərinin olduğu seylon çaylarıdır və məqbul sayılanlar Hindistandan gələnlərdir. Bu işin ustaları, yəni xanımlar bir baxışda bu fərqi ayırd edə bilirlər.

Geniş bir ərazidə qurulan bazar ilk gedənlər üçün qarışıq görünsə də, öz içərisində bir qayda-qanuna malikdir. Məsələn, meyvə-tərəvəz satanlar bir bölmə, ət satanlar ayrı bir bölmə, parça, elektrotexnika avadanlığı, quru meyvə, istifadə olunmuş əşya satanlar və hətta salat satanlar ayrı bölmələrdə yerləşmişdir. Və əlbəttə, ayaqüstü valyuta dəyişən səyyar valyuta dəyişmə köşkləri. Onlar bazara gələn Türklərin hamısını tanıyırlar. Çünki Türkiyəlilər onların ən yaxşı müştəriləridir. Hətta hər kəsin ayrıca valyuta dəyişəni vardır. Onu xüsusi ilə axtarıb tapırlar. Bəzən müştəri tapmaq yarışında mübahisə belə yarana bilər. Müştəriləri özlərinə çəkmək üçün bir-biriləri ilə yarışmaq Qazax bazar satıcılarının davranış formasıdır. Özbək satıcılar bu mövzuda başqa tərbiyəyə malikdirlər. Sıralar halında dayanan piştaxtalar üzərindəki mallar bir-birlərinə qarışacaq qədər yaxın dururlar. Bir malla maraqlanarkən malını tərifləyən satıcı müştərisi yanında duran eyni cins bir malla maraqlanmağa başlayınca, o dəqiqə susar və ondan etibarən qonşusu sizə malını anlatmağa başlayar. Bax, bu davranışı göstərən satıcı böyük ehtimalla Özbəkdir. Özbək satıcılardan birisi əsla

qonşusunun malı ilə maraqlanan müştərini öz piştaxtası önünə çəkmək üçün mallarını tərifləmək kimi bir hərəkətə yol verməz.

Bazar yeri davranışlarına ilk öyrənilməsi lazım olan isə "Kaş! Kaş! (Qaç! Qaç!)" nidası eşidildiyi zaman ən yaxın piştaxtanın kənarına sığınmaq lazımdır. Yoxsa bəziləri sizi itələyərək arxalarında sürüdükləri arabalarıyla keçərlər. Arabaçılar haqq alaraq bazardan alınan ərzaqları taksilərə və ya xüsusi maşınlara qədər daşıyırlar. Qazaxca araba sözü yalnız bu daşıyanların istifadə etdikləri əl arabaları və bir də at arabaları üçün istifadə olunur. Türkiyədə avtomobillər üçün istifadə etdiyimiz araba yerinə isə "maşın" sözü işlədilir.

Türkistan bazarının ən diqqət çəkən bölmələrindən biri də heyvan mənşəli qidaların satıldığı qapalı bölmədir. Bu hündür, zavod atelyelərini xatırladan binanın girişində yumurta satanlar, sonra isə bal satanlar və içəridə ət və süd satanlar düzlənmişlər. Qarşı tərəfdəki çıxış qapısı isə idxal toyuq ətlərinin satıcıları tərəfindən işğal edilmişdir.

Yumurta satanların önlərində duran yumurtaların üzləri kiçik damğalarla bəzəkli isə bu, onların gəldiyinin işarəsidir. İstisnasız hər yumurtanın üzərində köynək düyməsi böyüklüyündə siyah rəngli möhürlər olur. Kənd yumurtalarında isə bu möhür yoxdur və onlar digərlərindən hər zaman bir az bahadır.

Bal satanlar vedrələrə doldurduqları süzmə balları sıra-sıra piştaxtaların üzərinə qoyurlar. Bunlardan vedrələrin içində şəkər ağlığında görünənləri pambıq çiçəyinin ballarıdır. Pambıq tarlalarının yaxınlığında saxlanılan arılar bu ağ çiçəklərdən onların rəngində ağ bal hazırlayarlar. Lakin təəssüf ki, şəfalı olması ilə məşhur olan bal, pambıq təsərrüfatında həddindən çox istifadə olunan yarpaq tökən gübrələr və kimyəvi gübrələrin qalıqları ilə qarışıq halına gəldiyindən insan sağlığı üçün riskli yeməyə çevrilir. Bu xüsusiyyəti bilənlər pambıq balına üstünlük vermirlər. Digərləri isə qızılı rəngdə çiçək ballarıdır və istehsalı geniş yayıldığından hər mövsümdə bol və ucuz tapılır.

Bu böyük binanın ümumi görüntüsünə bir qismi beton piştaxtaların üzərində olan, bir qismi də piştaxtalardakı qarmaqlara asılan ətlər hakimdir. At və qoyun ətləri ən sevilən ətlərdir. Sığır və keçi ətləri isə daha ucuz və yoxsulların istifadə etdikləri ətlərdir. Bazar satıcıları arasında kişilərin üstünlük təşkil etdiyi tək bölmə bu ət satılan

yerlərdir. Digər hissələrin hamısında satıcılar ümumiyyətlə, orta yaşdan yuxarı qadınlardır. Bu yaş qrupu qadınlar geyimlərindən çox işləri ilə maraqlanırlar. Lakin aralarındakı gənc qızlar yayda, yeriyən insanların ayaqlarından tozların qalxdığı, qışda soyuqların hakim olduğu bazar şəraitində belə makyajlarını təzələmədən piştaxtaların arxasına keçmirlər. Soyuqdan üşüyən və titrəyən əllərivlə piştaxtanın arxasında ənlik-kirşanlı çalışan gənc qızların bu halı doğrusu kədərlidir.

Hər bazarda olduğu kimi, bu bazarın da ən yaxşı hissəsi meyvə-tərəvəz satılan bölmələrdir. Hündür sütunların altındakı bu bölmə Türkiyə bazarlarına öyrəşənlər üçün və ya Daşkənd bazarlarını görənlər üçün görüntü etibarı ilə çox zəngin deyildir. Kartof, yerkökü, soğan, sarımsaq kimi yer altında yetişən tərəvəzlər olduqca boldur. Bu çeşid tərəvəzlər bazarın kənarına yığılırlar. Kələm, badımcan, bibər və pomidor yer üstündə yetişən tərəvəzlər arasında asan tapılanlardır. Bunların arasında bibər haqqında bir neçə söz söyləməyə dəyər. Bunlar Türkiyədə Arnavut bibəri, xalq arasında bəzən acılığın gücünü ehtiva edən cin bibər adlanan növə bənzər kiçik bibərlərdir. Ancaq bunların acılığını dadanlar Türkiyədəkilərə "cin bibər" deməklə haqsızlıq etdiklərini anlayacaqlar. Çünki cin bibərlərin acısı bunların yanında mələk xasiyyətlidir. O dərəcədə acıdırlar ki, şorbaların içinə parça halında atmazlar. Acı sevənlər bu bibərlərin qurusunu bütöv halda şorbaların suyunda bir-iki saniyə saxlayaraq istədikləri ləzzəti təmin edirlər. Bunları beş saniyədən çox saxlamaq şorbanı yeyilməz hala gətirir.

Meyvə çeşidi baxımından da çox seçim yoxdur: alma, ərik, armud, nar və iri xurma ən çox tapılan meyvələrdir. Bir də mövsümündə çiyələk və albalı. Naringi, banan, kivi kimi lüks meyvələr xaricdən gəlir və olduqca bahalıdır. Bir də çox tapılan meyvə üzümdür. Üzüm növü baxımından Özbəkistan qədər zəngin olmasa da, yayın əvvəlində tez yetişən növlərdən başlayaraq bir çox sayda çeşidini dadmaq mümkündür. Ancaq ən yaxşısı kişmiş deyilən tumsuz qara üzümlərdir. Bunların da içində irisi, balacası, daha şəkərlisi kimi onlarca çeşidi vardır. Bol olan bu meyvələr qurudularaq hər mövsümdə satılır və xalq onları tez-tez istifadə edir. Adətən Türkistanda açılan süfrələrdə hər boşqabın içində mütləq kişmiş qurusu, rəngli kağızlara bükülmüş şəkərlər və ərik tumu da olur.

Qurudulacaq qədər bol yetişən bir digər məhsul isə yemişdir. O da üzüm kimi yayın əvvəlində tez yetişən növləri ilə bazara daxil olmağa başlayır və bundan sonra yemiş iyi şəhərdən heç əskik olmur. Bu gözəl meyvə, ana Vətəni olan Orta Asiyanı, "bura mənim Vətənimdir" dərəcəsində başdan-başa öz iyi ilə bürüyər. Hər yerdə ona yoldaşlıq edən qarpız da bu ətrafda eyni ölçüdə bol olan meyvələrdəndir.

Orta Asiyanın əlbəttə bir başqa vaz keçilməzi də heç şübhəsiz düyüdür. Akmərcan düyü qrupunun onlarca çeşidi vardır. Orta Asiyada olan düyü növündən daha çox sayda da plov çeşidi vardır. Bu diyarda adətən hər şəhərin, hər rayonun özünə xas plov bişirmə üsulları vardır. Gözəl bir mütəxəssis yediyi plovdan onu bişirənin haradan olduğunu təxmin edə bilər. Bundan başqa, digər yeməkləri bişirmək işi qadınların olsa da, xüsusilə Özbəklərdə plov bişirmək kişi işidir. Orta Asiyalı kişilərin hamısı plov bişirməyi bacarırlar. Qoyun əti, yerkökü və quyruq yağının düyülərə verdiyi ləzzət həqiqətən də Türkistan plovunun dünyadakı şöhrətinə layiqdir.

Düyü plovu bu qədər geniş yayıldığı halda, Orta Asiyalılar qarğıdalını heç tanımayıblar. Deyəsən, qarğıdal yerinə sovet dönəmində qruşa adlı bir taxıl növündən istifadə olunurdu. Buğda ilə yulaf arasında bir bitki olan qruşadan bişirilən plovlar və müxtəlif yeməklər bəziləri tərəfindən düyüyə nisbətən üstün tutulur.

Bazarın maraq çəkən bölmələrindən biri də paltarların satıldığı yerdir. Palto, corab, uşaq geyimləri və hər cür geyim əşyası burada bir yerdə satılır. Lakin bu əşyaların böyük hissəsi qadınlar üçün nəzərdə tutulmuşdur. Bu bölmədə alıcıların da, satıcıların da böyük əksəriyyəti qadınlardan ibarətdir. Bu ətrafda zərif cinsin nümayəndələri ən ağır iqtisadi çətinliklər içərisində belə öz lətafətlərini qoruya bilirlər, geyimlərinə diqqət edirlər. Əgər hər hansı bir xarici vətəndaş burada qadınların geyimlərinə baxsa və digər yerləri görmədən ayrılsa, bu şəhərdə iqtisadi sıxıntının olmadığını zənn edər. Orta yaş və ondan yuxarı yaşlardakı xanımlar üçün bu vəziyyət bir az fərqli olsa da, digərləri üçün həddindən artıq keçərlidir.

Hər geyim tərzinin bir modası olsa da, bu yerlərdə heç vaxt moddan düşməyən geyimlər kürklər və papaqlardır. Tülkü dərisindən dovşan kürkünə qədər tüklü geyim əşyalarının hər növünə rastlamaq

mümkündür. Lakin ən etibarlıları vizon və qaragül, digər adı isə astraqan dərilərindən hazırlananlardır. Hər bir adamın sosial statusu ilə kürklərin keyfiyyət və rəngləri arasında uyğunluq olur. Dünyada yalnız bu coğrafiyada hazırlanan astraqanlar qaragül qoyununun quzularının dərilərindən hazırlanır. Astraqanların xarici görünüşü nə qədər gözəl və əsil olsa da, hazırlanma şəkli son dərəcə narahatlıq doğurur. Astraqan istehsalı üçün nəzərdə tutulan quzular doğulan gündə hətta həmin saat içərisində kəsilərək dəriləri çıxarılır. Çünki doğuşdan sonrakı hər keçən saat içərisində dəri üzərindəki yumşaq yunların butaları açılmağa və rəngi dəyişməyə başlayır. Astraqanların butaları kiçik və rəngi parlaq olanları məqbul sayılır. Bunu daha yaxşı təmin etmək üçün quzunun daha doğuş başlamazdan əvvəl ana qarnından alınması yoluna belə əl atılır. Astraqanların ən geniş yayılan rəngi qaradır, daha sonra boz olanlar gəlir. Ən az rastlanan və dolayısı ilə ən qiymətli sayılanı isə "altınsur" deyilən qızıl rəngindəki dərilərdir. Bunlardan hər növünü Türkistan bazarında tapmaq mümkündür.

Əhalinin sıx olduğu yerlərin dəyişməz ünsürlərindən biri olan dilənçilər Türkistan bazarında da çoxluq təşkil edirlər. Türkistan bazarında dilənçilik edənlər Tacik kökənlilərdir. Bir Qazaxın dilənçilik etməsinə əsla icazə verilmir. Bunu qadağan edən dövlət deyil, birbaşa Qazax xalqının özüdür. Bir Qazax dilənərsə, onu ilk görən Qazax tərəfindən pislənərək mütləq oradan uzaqlaşdırılacaqdır. Qazaxlar arasındakı ailə bağlarının və bir birinə kömək etmək duyğusunun hələ də çox güclü olması, onsuz da dilənçilərin yaranmasına heç bir şərait yaratmır.

Dilənçilərin bir hissəsi insanların mərhəmət duyğularını oyadaraq, qılıqlara girərək və yazıq səs və ədaları ilə Allah rizası üçün sədəqə istəyirlər. Digər bir qrup isə xidmətləri əvəzində pul alırlar. Bunlar əllərində ağac bir sap taxılmış qabların içində yandırdıqları üzərlik otlarını tüstülədərək çıxan dumanla insanları əhatə edirlər. Nəzəri qovacağına inanılan bu ayinin əvəzində onlar zəhmət haqqı tələb edirlər. Bu işi görənlər yenə də Taciklərdir. Yaxşı alveri getməyən satıcılar da üzərlik yandırırlar.

QƏBİRİSTANLIQ

Cümə məscidində bayram namazlarının çıxışında qələbəliyin bir hissəsi isə Yesəvi Türbəsinə istiqamət alır. Şəhərin Özbək məzarlığı məscidə yaxın olduğundan, xüsusilə Özbəklər əvvəl məzarlığa, sonra Yesəvi Türbəsinə gedirlər.

Özbək qəbiristanlığı Yesəvi Universitetinin ərazisinin sonunda, Yesi məhəlləsinə görə yolun qarşı tərəfində yerləşir. Özbək qəbiristanlıqları Anadolu məzarlıqlarına çox bənzəyir. Qəbirlərin ətrafı dəmir qəfəslərlə örtülür və qəbir başlarında adətən ağzı yuxarıya doğru dayanan ay olur. Sovet dönəmində qazılan bəzi qəbirlərin başlarında olan oraq-çəkiclər diqqəti cəlb edir. Hətta az-az rastlansa da, həm oraq-çəkic, həm də ay şəklinin birlikdə olduğu məzarlar da vardır. Özbək məzarlarını Anadoludakılardan ayrılan ən bariz tərəfi, məzar daşlarında orada yatanın adı, doğum, ölüm tarixi ilə birlikdə, bir də mərmərə işlənmiş şəkillərin olmasıdır. Demək olar ki, hər qəbrin məzar daşında orada yatanın bir şəkli var.

Tanış olmayanlar üçün Qazax məzarlıqları bir kənd zənn edə biləcəkləri böyüklükdə olan tikililərlə doludur. Atalar mədəniyyətinin daha sıx olduğu Qazax ənənələrində hər məzarın üzərinə adətən bir günbəz tikmək adətdir. Hətta həyat yoldaşlarına və ya qohumlarına bu günbəzləri tikdirməyənlər qınaq obyektinə çevrilirlər. Adətən bu günbəzlər sanki bir kənd əmələ gətirir. Günbəzlərin təpələrində isə mütləq metal parçasından ay şəkli olur. Şair Ali Akbaşa "Qazax məzarlığı" şerini yazdıran bu məzarlıqları görmədən Qazax mədəniyyətini anlatmaq mümkün deyildir.

ÇAYXANALAR

Türkistanda maşınların sayı çox olduğundan, yolun ətrafında çayxanalar sıraya düzülür. Kiçik yeməkxanalara bu yerlərdə çayxana deyirlər. Burada "şişli" adlanan şiş kabablar bişirilir. Bunlardan maraqlı olanı cümə məscidinin düz qarşısında yerləşən "Ümidə" çayxanasıdır. Hər cümə namazından sonra baş çəkdiyimiz Ümidə çayxanası bir Özbək ailənin öz oturduqları evdir. Çayxananın aşpazı, xidmətçisi, hər biri ailənin üzvləridir. Burada hər şey, müştərinin qarşılanması, yerləşdirilməsi, qonaq edilməsi ənənəvi Özbək mədəniyyəti ilə həyata keçirilir. Atalarının ölümündən sonra evin idarəetməsini öz üzərinə götürən anaları evinə qonaq qəbul etmiş kimi sizi qarşılayır, hal-əhval tutur. Burada yaşayanlar gəlinlərlə, qızlarla bərabər çox böyük bir ailədir. Hətta bizim kimi bura tez-tez gedib-gələnlər bu ailənin sevincinə də, kədərinə də ortaq olurlar. Böyük gəlinin qızı olduğu zaman müştərilərin çoxu bu hadisəni qeyd edib hədiyyələr verdilər. Bu hədiyyələri "apay" əvəzsiz qoymur, o da müştərilərinin xüsusi günlərində hədiyyə göndərir.

Orta Asiyada "şişli" adlanan şiş kabablar şişə çox yağ vurularaq bişirilir. Şişin üzərinə bir ət, bir yağ doldurulur. Əslində bu bişirmə tərzi heç də səhv deyil. Çünki ətin yağları üzərində toplanan ləzzət maddələri kababı daha yumşaq və dadlı edir. Türkiyədən gedənlərin yağ yeməyini çox sevmədiyini bilən "Ümidə" kafesində şişliyə çox az yağ qatılır. Buralarda şişli mütləq sirkə turşusunun içinə sarımsaq, tərəotu əlavə edilərək hazırlanan "uksız"la birlikdə süfrəyə verilir. Bu ləzzətə öyrəşməyənlərə çox ləziz görünməsə də, buranın adamları uksızı ətin üzərinə tökürlər. Ləzzəti bir yana, onun səhhət üçün çox faydası vardır. Xüsusilə, isti yay aylarında şişli yeyənlər uksızla birlikdə yesələr təzyiq problemindən xilas olurlar.

QAZAXI SORUŞSAN, DOMBIRANIN QOLUNDADIR

Xalq arasında deyilir ki, hər iki Qazaxdan biri mütləq bir musiqi aləti çalmağı bacarır. Biz bu iddianı yumşaldaraq deyirik ki, Türkistan şəhərində hər ailədə mütləq bir nəfər musiqi aləti çalır və bu çalınan alət dombradır.

"Qazaxı soruşsan, dombıranın qolundadır". Bu yəqin ki, xalqla onun musiqisi arasındakı əlaqəni ifadə edən ən gözəl sözdür... Dombıra, iki telli musiqi aləti və bəlkə də Anadolu sazının atasıdır. Anadolu sazının da üç telli olduğu illər uzaqda deyildir. Sazda tel sayının çoxalması 80-100 illik məsələdir. Bəlkə daha əvvəl, o da dombıra kimi yalnız iki telli idi.

Ailə məclislərində, qonaqlar çox olanda şirin söhbətlər zamanı söz dombıraya verilir. Sevgi, həsrət dolu, insanın yaşantılarını anladan türkülər səslənir. Dombıranın iki teli üzərinə vuran barmaqlar və qısa sapının üzərində gəzən əllər elə bir səs gözəlliyi yaradır ki, insan bilmir bu cür əllərə, yoxsa dombıranın özünə çaşıb qalsın? Dombıra çalan adamın sazın köksündə gəzişən sağ əlin barmaqları başqa, qol üzərində gəzişən sol əlin barmaqları isə başqa ahənglə insan qulağına xoş gələcək səslərin yerlərini tapır.

Küylər isə başqa aləmdir. Rəsmin sehri nə isə, Qazax musiqisinin sehri da küylərdir. Küy sözün, dilin köməyinə müraciət etmədən, yalnız əlin, telin və sazın köməyi ilə duyğuları anlatmaqdır. Sehrli musiqi olan küylərin dombıraları da, sənətçiləri də ayrıdır və ümumiyyətlə, küy çalan kişilər "en" söyləməyə çox maraqlı deyildir. Onların küylərini dinləyib ardından en çalmaları üçün israr edənlərin xətrinə dəyməzlər, ancaq bu istəkdə olanların musiqi duyumu səviyyələrinə ağız büzərlər.

Küy, dombıra ilə də çalınır, ancaq əsil klassik yerini qıl qopuzla icra edildiyi zaman tapır. Onsuz da, xalq arasında danışılanlara görə, küyün atası da, qıl qopuzun ustası da Qorqud Atadır. Rəvayətlərə görə, Dədə Qorquda, qıl qopuzun necə ediləcəyini röyasında göstərmişlər. Yuxuda öyrədilmək və röyada vəzifələndirilmənin necə bir müqəddəs tərəfi varsa, qıl qopuzun səsində də sanki o müqəddəslik vardır. At tükündən hazırlanan bu yaylı çalğı aləti inləməyə başladığı zaman təbiət bir araya toplanmış, qıl qopuzun qarnından səslənirmiş kimi bir

başqa aləm yaranır. Bəzən ondakı atların kişnəməsidir, bəzən maral buynuzdan üflənən bir döyüş xəbəri, ya uşaqların səsi və ya şux qadının qəhqəhəsidir... Bu təsirindəndirmi, yoxsa səsindəki vəlvələdəndirmi bilinmir, qıl qopuz Qazaxlar arasında hər zaman böyük bir hörmətlə ələ götürülür və dinlənilir.

Qorqud Atanın qıl qopuzla bağlı röyası özüylə qalmır, nəsillər boyu davam edir. Bu gün də bu röyanın sahibləri vardır və yaşamaqdadır. Xalq arasında jıravşı adlanan kişilər qıl qopuzla Dədə Qorqud hekayətlərini danışırlar. Bu gün də Türkistana gətirmək və bir konsert verdirmək üçün çox cəhd etməyimizə baxmayaraq, heç cür nail olmadığımız, Nukusta yaşayan qoca jıravşı, bu işi yerinə yetirənlərin yaşayan son təmsilçilərindən biridir. Söylənilərə görə, jırvaşı otuz yaşlarında ikən Dədə Qorqudu yuxusunda görür və onun vəzifələndirilməsi ilə ertəsi gün Qorqud Atanın hekayələrini qıl qopuz müşayiət etməyə başlayır. Mülakatı yapan soruşur: "Bəs sizdən sonra?". Özündən arxayın "Narahat olmayın, mənim kimi birisi və ya biriləri gördükləri yuxu ilə bu işi davam etdirər" deyir.

Mədəniyyət necə bir şeydir, bunu dərk etmək çətindir. Kuantum elektronu kimi, nə zaman var, nə qədər var, müəyyənləşdirmək çox çətindir, ancaq o hər hansı şəkildə hər zaman vardır. Jıravşılar kimi Qazax musiqisinin Cənubi Qazaxıstanda hələ dipdiri yaşayan bir növü, "termələr" də tarixin dərinliklərindən süzülüb gəlir.

Tarixçilər deyirlər ki, Türk musiqisi əvvəl Şamanların xalqa təlqin və ayinlərindən kökünü aldı. Din adamları xalqa nəsihətlərini musiqi vasitəsiylə etdilər. Bu metodun bu gün hələ də yaşayan forması termələrdir. Onlar sözləriylə, xalqa öyüdlər verib, doğru yolu göstərməyə çalışan, bəlkə bir az da maarifləndirmək uğrunda estetiki bir kənara buraxmayan əsərlərdir. Deyəsən Qazax termələrinin və termə mədəniyyətinin Anadoluda yaşayan növü də deyişmədir. Termə və deyişmə arasındakı bənzərlik yalnız maarifləndirmə və sazın telinə ilk toxunulduğu ən qədim günlərimizdən bu günlərə gəlmələrindən başqa bəzən duyğu və düşüncə olaraq çox olmaqdadır.

Anadoluda Qul Hikmət bir deyişmədə "Qafil gəzmə çaşqın, bir gün ölərsən, Bülbül kimi dilin olsa nə fayda" deyərkən Qazax terməci də Orta Asiyada "qara torpağa girdikdən sonra, bülbül kimi dildən nə fayda" deyə səslənir.

Qazax musiqisi deyildiyində, əlbəttə bu coğrafiyada ilk yada düşən aşıqlardır. Qazax dilində aşıqlara "Tökmə Akın" deyilir. Digər şairlərə isə "Jazma Akın" (Yazma Akın) deyilir. Qazax xalqı şifahi şeir deyən şairləri yazılı şairlərdən üstün tutur. Səbəbi isə çox aydındır: bədahətən deyən aşıqlar çox az düşünərək şeirlərini deyirlər, yazılı şairlər isə bəlkə aylarla, bəlkə də illərlə düşünmək imkanına malik olurlar. Bu şərtlər altında xalq haqlıdır.

Aşıqların hünərlərini göstərdikləri, alışdıqları yarışmalar yəni, "aytıslar" xalqın ən çox marağını çəkən mədəniyyət tədbirləridir. Hər il regionlar üzrə və ölkə miqyasında təşkil olunan yüzlərlə aytıslara olan marağın yeganə səbəbi xalqın aşıq sazına və sözünə olan marağıdır. Ayrıca hər "akın"nın bir də tərəfdar qrupu vardır. Bu tərəfdarlar ilk olaraq aşığın qohum-əqrəbası və yerliləridir. Aşığın aytısda qalib gəlməsi eyni zamanda onu tanıyanlar arasında böyük bir şərəfdir. Bu səbəbdən aşıqlar deyişərkən öz nəsillərini tərifləyib başqalarına sataşarlar.

Türkistanın qürur qaynağı olan aşıq isə, dəyərli dostumuz və qardaşımız Bekarıs Joybekovdur. Qazaxıstan miqyasında keçirilən aşıq yarışmalarında 5 il ardıcıl olaraq 1-ci olmuş və Türkistanlı həmyerlilərinə qürur yaşatmışdır. Gənc yaşına baxmayaraq, çox şəxsiyyətli, təvazökar, Qazax mədəniyyətini dərindən bilən Bekarıs Joybekov Türkistanlıların könlündə taxt qurmuşdur.

BU GÜN JELTOKSAN BAYRAMI: QUTLU OLSUN BAVURUM*

Türkistan şəhərində hər il ciddi şəkildə və önəm verilərək qeyd olunan günlərdən biri, 16 Jeltoksandır. Bu söz, Qazax Türkcəsində Dekabr ayı mənasını verir. Dekabr ayının yaxın dövrlərdə Qazax tarixində çox mühüm bir yeri var. 1986-cı ilin dekabr hadisələri və 1991-ci il Qazaxıstanın müstəqilliyinin elan olunması, ikisi də dekabr ayında həyata keçdi. Qazax Türklərinin Sovet imperiyasına qarşı ən böyük etirazı 16 dekabr 1986-cı il tarixdə baş verdi.

Qazaxların rus tabeçiliyinə daxil olduğu 1734-cü ildən bu yana tarixləri üsyanlarla (etirazlarla) dolu, ancaq sayı 40-a çatan bu etirazların heç birisi 16 dekabr 1986-cı ildəki hadisə kimi nəticə vermədi. Bu üsyanlar Kenesarı üsyanı kimi bəziləri 30 ilə kimi davam etdi; Yeddusu üsyanı kimi bəziləri bir gündə səksən min Qazaxın birdən öldürülməsi kimi çox qanlı və ağır nəticələr verdi, amma söylədiyimiz kimi, heç biri dekabr hadisələrinin verdiyi tarixi nəticələri vermədi.

Qazaxıstanı 30 il idarə edən Dinməhəmməd Kunayev 1986-cı ildə vəzifədən çıxarılmışdı. Qazaxlar üçün Kunayev bir simvoldur. Qazaxıstanda son texnologiyaya uyğun tikilən yollar, açılan zavodlar, məktəblərin bir çoxu Kunayevin əsəridir. O, yalnız Qazaxıstana gələn iqtisadi rahatlığın, sənayeləşmənin simvolu deyil, eyni zamanda "Qazaxıstan Qazaxlarındır" arzusunun və ideyasının da simvoludur. Kunayevlə birlikdə Qazaxlar Qazaxıstanın idarəçiliyində söz sahibi olmağa başlamışdılar. Qazax kökənli olan Qazaxlar üçün çalışan ilk Qazaxıstan Kommunist Partiyası baş katibi yenə də Kunayevdir.

Sovet idarəçiliyi uzun zaman Kunayevi millətçilik etməkdə günahlandırdı. Bir gün Moskva Kunayevin vəzifədən çıxarıldığını və yerinə bir rusun təyin edildiyini elan etdi. Qazax xalqı ya bu qərarı qəbul edəcək və illərdir kommunist idarəçiliyinin o ağır basqılarına qarşı müxtəlif yollarla dirhəm-dirhəm qazandığı milli qazanclarını itirəcək və ya "xeyir" deyəcəkdi: "Qazaxıstan Qazaxlarındır".

Alma-ata için-için qaynayırdı.

Qazaxıstan için-için qaynayırdı.

Adlarını müstəqillik tutqularından alan Qazaxlar taleyin onlara yazdığı rus əsarətinə illər boyu üsyan etmişdilər, ancaq onu heç zaman məğlub edə bilməmişdilər. İndi Kunayev bu müstəqillik tutqusunun, bir cür simvoluydu. Olanları sakit şəkildə müşahidə edə bilərdimi?

Ziyalılar bunu müzakirə edirdilər.

Universitetlərin yataqxanalarında işıqlar sabaha kimi yanırdı, gənclik bunu müzakirə edirdi: "Boyun əyməli, ya etiraz etməli?"

Gözlənilən oldu: adı azad olan Qazax baş qaldırdı. Moskvaya "yetər!" deyildi. "Yetər! Qazaxıstan Qazaxlarındır".

On minlərlə gənc küçələrə çıxmışdı. Universitetlər boşalmışdı.

Muxtar Şahanovlar, Mekimtas Mirzəəhmədovlar, Rəhmanqul Berdibaylar... Yüzlərlə adam küçələrdə idi.

Xalq küçələrdə idi.

Generallar, mayorlar, polkovniklər Qızıl Ordunun verdiyi ulduzları söküb atmış, "bizə ulduzlarınız deyil, al bayraqdakı günəşimiz lazımdır" deyirdilər. Onlar da küçələrə çıxmışdılar.

Qazax Qazaxıstanı istəyirdi.

Polis çaşıb qalmışdı.

Təhlükəsizlik qüvvələri çaşıb qalmışdılar.

Moskva çaşıb qalmışdı.

16 dekabr SSRİ–də millətlər məsələsinin aysberqi idi. Ardınca qoca bir dağ vardı: illərin yox edə bilmədiyi, təbliğatın ən incə texnologiyalarının zəiflədə bilmədiyi Vətən və istiqlal istəyi vardı.

Əllərində yalnız "Qazaxıstan Qazaxlarındır" inancından başqa heç nəyi olmayan gənclərin üzərinə kalaşnikovlar atəş püskürürdü. Alma-ata qan gölünə dönmüşdü. Qızıl Ordu Alma-ataya batalyon üzərinə yeni batalyonlar göndərirdi.

Bu gün Qazax bir xalq, bir ürəkdir və o ürək tək bir şey hayqırırdı: "Qazaxıstan Qazaxlarındır".

Yetmiş ildə qazanılanlar əldən verilməməliydi.

Və nəhayət Moskva ordusunu geri çəkdi.

Alma-ata Qazax qanıyla sulandı. Minlərcə insan şəhid oldu.

O gün dekabr şəhidlərinin ruhu şahin olub günəşli göy bayrağa yerləşdi. İndi onlar azad səmadan müstəqil Qazaxıstan torpaqlarını seyr edirlər. Qazaxıstan müstəqil yaşadıqca əbədi aləmdə rahat olacaqlar. Ruhları şad olsun!

Həqiqətdə Qazaxıstan 16 dekabr 1986-cı ildə müstəqil oldu, ancaq müstəqilliyin rəsmi elanını 5 il gözləmək lazım oldu. Qəhrəman Qazax xalqı 16 dekabr 1991-ci ildə Qazaxıstan Respublikasının müstəqilliyini elan etdi.

Əgər 1986-cı ildə 16 dekabr hadisələri olmasaydı, bugünkü müstəqil Qazaxıstan da olmaya bilərdi. Başında Moskvadan təyin edilmiş rus idarəçiləri ilə sovetlərin dağılmaq müddətinə girəcək olan Qazaxıstanı kim bilir, hansı sıxıntılar gözləyəcəkdi. Bu gün də torpaqlarında bəzi rus şovinistlərinin gözü olan Qazaxıstan, hansı macəralara sürüklənəcəkdi?

Sovetlər dağılarkən Qazaxıstan idarəçiləri daha erkən bir tarixdə müstəqillik elan edə bilərdilər. 1991-ci ilin avqustu, oktyabrı, noyabrı müstəqillik üçün uyğun günlərdi, amma onlar böyük bir şüurla 16 dekabrın gəlməsini gözlədilər və o gün müstəqilliklərini böyük siyasətçi Nursultan Nazarbayevin səsindən bütün dünyaya eşitdirdilər.

Bu gün Qazaxıstan müstəqilliyinin yeddinci ilini bayram edir.

Qutlu olsun Bavurum!

Qutlu olsun Qardaşım!

Ruhlarınız şad olsun Jeltoksan Şəhidləri!

**Bavur: Qardaş, qohum*

MİLLƏTİN ULU GÜNÜ: NOVRUZ

Bütün Orta Asiya kimi Türkistan şəhərinin də böyük təntənə ilə qeyd etdiyi bayram, "Millətin ulu günü: Novruzdur". Qazaxıstanda elə bir şəhər yoxdur ki, bu sözü böyük plakatlara yazdırıb, xalqın ən sıx olduğu meydanlara asdırmamış olsun. "Millətin Ulu Günü Novruz bayramı qutlu olsun". Mart ayının 22-ci günü bayram səbəbi ilə rəsmi tətildir.

Novruz farscadır, Qazaxcası "yeni gün"dür. Qazaxların yeni ili bu gün başlayır. Qışın gedişi, baharın gəlişi bayram edilir. Yeni bir il, yeni bir dönəm artıq başlayır. 1930-cu illərin sonundan etibarən novruz bayramları 1988-ci ilə kimi qadağan olunmuşdur. Bu ildə Qazaxıstan təkrar Novruzu bayram etməyə başlamışdır. Yeni novruz şənlikləri də sanki yeni bir dönəmin başlanmasının ilk işarətlərindən olmuşdur. Bu gün bütün Qazaxıstanda böyük təntənə ilə qeyd edilən millətin ulu günü, Qazaxların təbiətlə iç-içə, onun qanunları ilə birlikdə yaşadıqları köçərilik dövründən gələn adətlərin davamı olduğu qədər, yetmiş il sürən qadağalar dönəmindən sonra milli qazancların da qeyd olunduğu gün kimi yaşanır. Uzun illərdir böyük şəhərlərdə yaşayan Qazaxlar daxil, bu bayrama böyük həyəcan ilə qatılmalarının arxasında bu halı da görmək lazımdır. Çünki Novruzun yenidən qeyd olunmağa başlanmasından sonra, bütün Türkistan Cümhuriyyətləri üçün çox böyük yeniliklər və dəyişikliklərin yaşandığı illər gəldi: sovetlər dağıldı, müstəqillik gəldi. Novruzda oxunan:

"Millət sağ olsun,
Ruzisi bol olsun,
Haraya getsə yolu açıq olsun,
Bəxti aydınlıq olsun,
Millətin ulu günü qutlu olsun"

duaları qəbul edildi və millətin bəxti də, yolu da açıldı və müstəqillik əldə olundu. Bu dua hər novruzda demək olar ki, hər yerdə, bəzən Xızırın novruz duası deyilərək, bəzən yaşlıların öz arzuları olaraq novruz tədbirlərində söylənilir.

Qazax dilini yaxşı bilən heç kim "yaz gəldi", "payız gəldi" demir. Hər fəslin özünün xüsusiyyətlərinə görə ayrı bir gəlişi vardır və Qazax

bunu mütləq o qəlbiylə söylər: “Yay çıxdı, payız düşdü, qış gəldi və bahar doğuldu”. Həm təbiətdə, həm də bütün Qazaxıstanda novruzla birlikdə bahar doğulur. 1988-ci ildə təkrar qeyd olunmağa başlanan novruzlarla Qazaxıstan üçün istiqlalın baharı da doğulmuş olur.

Novruz şənlikləri bütün Ulu Türkistanda olduğu kimi, Türkistan şəhərində də xalq və dövlətin əl-ələ verib keçirdikləri ən böyük tədbirdir. Türkistan şəhərində tədbirlərin keçirilmə yeri İcra Hakimiyyəti qarşısındakı Esim Xan Meydanı və yanındakı parkdır. Bayramdan xeyli əvvəl bu yer şənliklər üçün hazırlanmağa başlanılır. Meydandakı hazırlıqların ən maraqlıları Türkistanın ətraf kəndləri üçün təsis edilən çadırların qurulacağı hissələrdir. Novruz meydanında çadır qurmaq o kənd üçün şərəfdir və o il hansı kəndlərin çadır qura biləcəkləri İcra Hakimiyyətində bir neçə ay əvvəl keçirilən iclaslarda müəyyənləşdirilir. Qazaxların “kiiz üy” yəni “keçə ev” dedikləri otaqların qurulması zamanı kəndlər arasında adətən bir yarışma gedir. “Kimin kiiz üyü daha gözəl və bəzəkli olacaqdır?! . Bu şirin rəqabət bayram şənliklərini daha da maraqlı edir.

“Kiiz üy qurmaq” və ya “şangrak qaldırmaq” Qazax ənənəsində öz-özlüyündə böyük bir hadisədir. Kiiz üy yüz illər boyu davam etdirilən köçəri həyatın və onun içində yaranan mədəniyyətin bir simvoludur. Kiiz üyün daşıdığı bu mənaları Türkiyə türkcəsində “otaq qurmaq” deyimiylə bəlkə bir az əvəz etmək mümkündür. Köçəri Qazax üçün “Otaq qurmaq” həyatda mövcud olmanın rəmzidir.

Sırdəryanın boyundakı Qazaxlar və dolayısıyla Türkistan şəhəri Qazaxıstanda köçəriliyi buraxıb “palçıq evlərə” ilk keçən oturaq yerlərdir. Bölgənin sosial tarixində suyu bol və əkinçiliyə əlverişli Sır boyunun oturaq həyata erkən keçmək kimi bir xüsusiyyəti vardır. Oturaq həyatla birlikdə keçə çadırlar əvəzinə Qazaxların palçıq evlərdə həyatı da başlamışdır. Yəni oturaq həyata ilk keçən və otaqda yaşamağı tərk edən Qazaxlar bu ətrafda yaşayırlar. Odur ki, otaq qurmanın və ona verilən mənaların bu bölgədə çox böyük əhəmiyyəti vardır.

Otaqların keçmişdən sahibinin etibarına görə “ağ otaq”, “qara otaq”, “”qırmızı otaq” kimi adları varmış. Böyüklüyünə görə isə 4 qanaddan 18 qanada kimi müxtəlif böyüklükdəki otaqlar hələ də qurulur. Qanad dedikləri otağın yerə oturan və yan divarlarını əmələ gətirən ağacdan hazırlanan bölmələrdir. Qanadlar bir-birinə əlavə

olunaraq silindir əmələ gətirir. Otağın damı isə "uık" və "şangrak" deyilən iki hissədən ibarət olur. Şangrak otağın ən yüksək və orta nöqtəsidir. Bu səbəbdən otağın simvolu da şanqrak deyilən və bir çənbərin içərisinə ikisi şərq-qərb istiqamətində, digəri ikisi də cənub-şimal istiqamətində bir-birini üstəgəl işarəsi şəklində kəsən çubuqlardan yaranır. Qazaxın həyatını, varlığını, ruhunu, mədəniyyətini, bir sözlə, hər şeyini simvolizə etmək gücündəki bu şəkil, ona yüklənən mənalarıyla Qazaxıstan Dövlət Gerbində də yerini almışdır.

Otağın ən yüksək və orta nöqtəsindəki şanqarakla, kənar divarları bir-birinə bağlayan uzun ağac parçaları isə "uik" adlanır.

Bu üç ana hissə lazımi qaydada bir araya gətirilib üstü yundan sıxlaşdırılaraq hazırlanan keçələrlə örtülür. Otaq divarlarının işi xalçalarla döşənir. Orta Asiyanın bir çox yerində bu gün də gözəl naxışlarla bəzənmiş xalçalar evlərin divarlarına asılır. Anadolu kəndlərində də rast gəlinən bu adətin qaynağı yəqin ki, otaqların divarlarına asılan xalılardır...

Otağın ən müqəddəs yerlərindən birisi şanqrak isə, digəri də qapısındakı eşikdir və eşiyə basmaq heç yaxşı qarşılanmır. Novruzda qurulan otaqlara girərkən də mütləq buna diqqət etmək lazımdır.

Otaqların qurulduğu ərazidə dolaşarkən, otaqların yanında duranlar sizi içəri dəvət edirlər. Bu da keçmiş Qazax obalarının adətidir. Obaya gələn qonağı hər kəs dəvət edir, ancaq qonaq istədiyinin otağına girir. Atalar sözündə bir Qazax "Qonaq, seçib qonar" deyilir. Burada da, otaqlar arasında dolaşarkən bir otaq sahibi sizlərdən içəriyə təşrif buyurmanızı xahiş edər.

İçəridə o kənd tərəfindən hazırlanan qımızdan-quruda, qırmandan-qorğaya, hər şey qonaq üçün hazırlanmışdır. Otağa girdikdən sonra təqdim olunanlardan heç deyilsə, birindən kiçik bir parça da olsa yemək lazımdır. Onsuz da bunun üçün otaq sahibləri israr edirlər. Bir şey yeməyə niyyətinizin olmadığını görüncə "ağuz tiygiziniz" (ağız değiniz) ricalarıyla qonaq edərlər. Ağız demək, "dem dadmaq" (ləzzəti dadmaq), duz-çörək haqqı deyilən köklü törə içində çox mühüm bir yerə sahibdir. Bir nəfər duz-çörək daddığı, çörəyinə ağız vurduğu ailənin üzvlərinə illər boyu yaxşı duyğular bəsləməlidir. "Bir acı qəhvənin 40 il xətri" olması kimi duzuna, çörəyinə ağız

dəydiyi ailənin üzvlərinə qarşı pislik etmək böyük heysiyyətsizlik hesab edilir. Bəlkə də bu səbəbdən qonaq edilən otaqda bir dost qazanılır.

Novruzda yalnız bu otaqlar içində deyil, evlərdə də süfrələr açılıb qonaq gözlənilir və bu gün evlərin qapıları axşama qədər açıq saxlanılır. Dostlar, qohumlar, qonşular bir birinə bayram təbrikinə gedirlər. Hər yerdə olduğu kimi, Türkistanda da bayram əsasən uşaqlar və gənclər üçündür. Yeni paltarlarla və hədiyyələrlə sevindirilən uşaqlar müxtəlif oyunlarla axşama kimi bayram edirlər.

ADƏM OĞLUNUN QIZIL BEŞİYİ: TƏBİƏT

Göy üzünün dünyanın hər yerində eyni göründüyünü zənn etməyin yanlış olduğunu bu şəhərdə anlayacaqdım. Türkistanda gündüzlər geniş üfüqlərin arxasında qeyb olan göy üzü, gecələr ayrı bir sehrlə üstümdə durur. Elmi cəhətdən necə izah edilir, bilmirəm, ancaq dünyanın bu yerində, sanki göydə daha çox sayda ulduz vardır və parlaqlıqları başqa yerlərdən daha güclüdür.

Bu qənaətimi başqalarından da soruşaraq yoxlayıram. Bəli, hamı eyni qənaətdədir: burada göy üzü başqa cür görünür. May ayının gəlməsi ilə birlikdə buludların yoxa çıxdığı gecələr ayrı bir ilham qaynağıdır. Hələ yaz gecələri, onu gözləyənlərə doyulmaz vaxtlar bəxş edər. Gündüzün yandırıcı istisindən sərinləyən səhra bir-birinə qarışan işıldaquş və çəyirtkə səslərinin arasında səhərə qədər davam edəcək bir tamaşaya hazırlanır. Göy üzündə hər yana şəfəqlər saçar kimi parlayan ulduzlar bütün səhranı kristal bir çilçırağın altında saxlayır. Bu bənzərsiz görüntüləri seyr etdikcə, bəlkə də tarixdə astrologiya elminin Orta Asiyada bu qədər inkişaf etməsinin səbəbi göy üzünün bu dərəcədə cəzbedici olmasındandır deyə düşünürsən. Və ya bəyaz gecələrin yazarı Dostoyevski əgər Türkistan gecələrini görmüş olsaydı, "Bəyaz Gecələr"in yanında bir də "Brilyant gecələr yazmazdımı?

Çoban ulduzu, qütb ulduzu, karvanqıran... İllər əvvəl öyrəndiyimiz ulduz adlarını və onların yerini təkrar kəşfə çıxırıq və bəzilərinin qazaxca adlarını öyrənirik: şolpan, dəmirkazık, eşşəkqıran bayaq saydığımız ulduzların qazaxca isimləridir. Göy üzünün ən parlaq, hər zaman sabit şəkildə yerində dayanan ulduzuna "dəmirkazık" deyirlər. Dəmir qarmaq kimi göydəki yerini dəyişdirmədiyi üçün belə adlanır. Ancaq hər ulduz onun qədər bir yerdə dayanmaqda qərarlı deyildir, onun təbiətini tam bilməsəniz karvanınız gedə bilər. Bu səbəbdən Yupiterə, Anadoluda Karvanqıran, Qazaxıstanda "eşşəkqıran" ulduzu deyiblər. Adında bir az fərqlilik olsa da, hekayətləri eynidir. Karvanqıran ulduz dan ağarmadan bir müddət əvvəl görünüb qeyb olması xüsusiyyəti ilə tanınır. Bu səbəbdən keçmiş dövrlərdə karvançılar, sabaha vaxtında hazırlaşmaq istəyənlər bu ulduzu təqib edərmişlər. Gediləcək yolları uzun olan karvançılar gecələr bir növbətçi

qoyaraq bu ulduzun doğulmasını gözləyər və onu görüncə qalxıb yol hazırlığa başlayarlarmış. Dan yeri sökülüncə yola çıxarlarmış. Bir dəfə bir karvan növbətçi qoyub istirahətə çəkilmişdir. Karvan başçısı növbətçiyə tapşırmışdır: "Ulduz doğunca bizləri oyandır!" Talehsiz növbətçi özü də yatıb yuxuya qalmışdır. Oyandığı zaman gözləri qarşısında bir ulduzun par-par yandığını görür. O həmin dəqiqə karvançıları oyandırmış, hazırlaşıb yola çıxmışlar. Lakin səhər heç cür açılmırmış. Ağır yüklərin altında tərləyən heyvanlar gecənin soyuğunda bir-bir ölməyə başlamışlar. Sən demə növbətçi yatıb yuxuya qalmanın təlaşı işində Zöhrə ulduzunu Karvanqıran zənn etmiş, ikisi də göy üzündə bir-birlərinə yaxın yerlərdə dayanan bu ulduzları qarışdırmışdır. Əfsanələrə görə bu səbəbdən ulduzun adı Karvanqıran və ya qazaxcası Eşşəkqıran qalmışdır. Anadoluda bu ulduz türkülərin mövzusu olmuşdur. Aşıq Veysəlin belə bir şeri var: "Evlər yıxan, bellər bükən, (Karvanqıran) doğmayaydın sarı ulduz, mavi ulduz, ulduz, ulduz hey". Bax o ulduz Karvanqırandır.

Ulduzları idarə edirmiş kimi, onları yoxlayırmış kimi, hər gecə göy üzünü bir başından başına dolaşan ay da, bu diyarda ayrı bir gözəlliyə sahibdir. Hələ ayın 14-ü olduğu zaman əməlli-başlı böyüyüb, sanki yeni ölçülərinə arxayın kimi hələ günəş qeyb olmadan onunla göy üzündə hakimiyyət iddiasına girmiş şəkildə erkəndən doğuşu hər səfərində insana ayrı bir həyəcan verir.

Bu coğrafiyada ay və ulduzun hərəkətlərindən hesablanan bir təqvim haqqında da məlumat alacaqdıq. Dövlətimizin bayrağı və bütün Türk Dünyasını təmsil edəcək qədər geniş yayılan ay-ulduz şəklinin, mədəniyyətimiz içində bir təqvim hesabında qarşıma çıxması doğrusu, məni çox həyəcanlandırmışdı. Bəli, Türk bayrağının gözəl elementləri, ay-ulduz yalnız Türkiyə üçün deyil, Azərbaycan, Özbəkistan, Türkmənistan kimi dövlətlərin ya bayrağında, ya da dövlət gerblərində yer alır. Dövlət orqanlarının emblemlərində yer almaqdan başqa, ay-ulduza bütün Türk Dünyasında qadınlarımızın zinət əşyalarında, qəbirlərin məzar daşlarında rast gəlmək olur. Bu isə burada yatanın Türk və müsəlman olduğunu bildirir. Ay və ulduz, bu möhtəşəm ikilikdən bir də təqvim hesabı aparıldığı mənim üçün qəribədir. Günəş təqvimi və ay təqvimlərini bilir və istifadə edirdik, lakin ay-ulduz təqvimi mənim üçün tamamilə fərqliydi. Qazax yaşlılarının hələ də

istifadə etdikləri bu hesablama ay və ülkər ulduzunun qarşılaşdıqları vaxtlardan çıxaraq hesablanırdı. Təqvim haqqında nə isə öyrəndikcə həyəcanım daha da artırdı.

Ay və ülkər ulduzunun hər qarşılaşmaları bir aya müvafiq gəlirdi və ay-ulduz ayları 27-32 günlük dəyişən müddətlərdən yaranırdı. Ay-ulduz təqvimində bu müddətə "tokıs" yəni "dokkuz" deyirdilər. Bu dönəmlərin adı da ayın neçənci günündə ölkələrlə qarşılaşdığına görə adlandırılırdı. Məsələn, göy üzündə ay 5 günlük ikən, Ülkərlə qarşılaşarsa, o ayın adı "bestokız" (beşdoqquz), 13 günlük qarşılaşarsa "onuştokız ayı", iyirmi beş günlük qarşılaşarsa "jirmi bes dokız ayı" olaraq adlandırılır. Ülkər ulduzunun görünmədiyi ayın 40 günlük müddət ilə də bir hesab formalaşdıran köçəri Qazax və bəlkə də köçərilik dönəmindəki bütün Türk xalqları, bu gün istifadə etdiyimiz günəş təqvimi ilə uyğun bir təqvim yaratmışdır. Ay təqviminin ərəblərdə, günəş təqviminin qərbdə yarandığını bilirik. Ay-ulduz təqvimi isə Türk təqvimi olmalıdır.

İlin adlarını 12 aya bölüb, adına doqquz deyən köçəri xalq mövsümləri də "doksan" olaraq adlandırmışdır. "Jaz toksan, Jeltoksan kıs toksan və jıl toksan". "Jaz toksan", yaz; "jel toksan" sonbahar, "kıs toksan", qış və "jıl toksan" ilk baharı əvəzləmişdir. Bu doxsan günlük mövsüm mənim uşaqlığıma dair xatirələrimi canlandırırdı: uşaqlığımı keçirdiyim kənd həyatı içərisində biz də qışı qar və soyuqdan bezir və baharın gəlişini səbirsizliklə gözləyərdik. Atam günəş təqviminin qış hesabına çox etibar etməz və evimizin divarında asılı yarpaqlı Maarif Təqvimindən hər yarpağın altında kiçik hərflərlə yazılmış "Noyabr" ayına baxırdı. Bu noyabr ayı günəş təqvimindəki noyabr ayından fərqli idi və yüz səksən gün davam edirdi və ilk doxsanı qışdı. Doxsan günlük noyabr bitdiyi zaman isə bahar gəlirdi. Uşaqlığıma aid bu xatirələr yadıma düşür və atamın doxsan günlük noyabr doxsanları ilə Qazax toksanlarının bir əlaqəsi vardırmı görən, deyə düşünürəm.

Bu ərazidə günəş hər yaz səhəri yenidən iqtidarını elan edir. Hələ iyul ayının girməsiylə birlikdə başlayan və qırx gün davam edən "şildə günləri". Bax, o zaman onun gücü əfsanələşir: kiminə görə istilik kölgədə 45 dərəcədir, kiminə görə açıqda 55. Günəşin istisiylə qarışan zehinlər rəvayətləri də artırdıqca artırırlar. "Filan yerdə bu gün, günəşin

istisiylə yumurta bişiriblər". Bu günlərin yeganə əfsanəsi və ortaq mövzusu artıq günəşdir.

Bu əfsanələrə qarşısına gələn hər şeyi vurub-yıxan sərt küləkləri və qışda qovuran soyuqları da əlavə etmək lazımdır.

Türkistanlıdan soruşmuşlar, Türküstanda ildə neçə dəfə külək əsir? "İki" demişdir. "Necə ola bilər?" soruşmuşlar. Necə olacaq: altı ay şərqdən qərbə, altı ay da qərbdən şərqə əsən iki külək. Bu dərəcə də olmasa da, xalq arasında danışılan bu lətifə bir həqiqəti dilə gətirir: Bu bölgədə külək heç əskik olmur. Ancaq o küləklər səhranın tozunu, qumunu sovuran fırtınalar şəklində əsdikləri zaman əfsanələşirlər. Yozumlar başlanır: bu gecə yenə ruslar Baykonurdan raket atdılar və ya Ural quruduqca bizləri də qurudacaqdır.

Bu söylənənlər doğrusu, həqiqətə çox da uyğun deyildir. Türkistandan 350 km uzaqlıqda yerləşən Baykonur kosmos bazasından hər raket atıldığı zaman bölgədə müdhiş bir fırtına əsir. Əgər təsadüfən, raketin atılmasına rastlasanız, göy üzündə çox sehrli bir mənzərə seyr etmək imkanı da əldə etmiş olursunuz. Kim bilir nə qədər radiasiya və necə qazlar buraxaraq göy üzünə yüksələn kosmik gəmilər böyük bir quyruqlu ulduz keçirmiş kimi arxalarında bir bəyazlıq buraxaraq dünyamızdan ayrılırlar. Bax, bu mənzərəni seyr edənlər ertəsi gün əsəcək müdhiş küləklərə də hazır olmağa başlayırlar. Hələ may ayında tarlalarda yetişməkdə olan məhsulu olanlar və ya sentyabrda yığımı gözləyən pambıq yetişdirənlər, bax o biçarələr üçün bu mənzərə bir fəlakət xəbərçisidir. Çünki ertəsi gün raketin əmələ gətirəcəyi külək məhsulların zərər görməsinə səbəb olacaqdır. "Ah, vicdansız adamlar" deyə söylənərək çəkilən ahlar, raketlə birlikdə nifrətləri də göyə yüksəldir.

Ural dənizinin quruması da bu fırtınaların sayını artırmışdır. Pozulan təbii tarazlıq ilə artan fırtınalar, Uralın qəzəbi kimi Orta Asiyanın səhrasında əsib dayanır. Bu fırtınalar həqiqətən də qəzəbdir. Quruyan Ural dabanından yüklədiyi qumu, kilometrlərlə səhraya saçaraq məhsuldar tarlaları səhraya çevirir. Şirin sulara duz daşınır. İçilən sular içilməz olur, suyu zəhər edirlər.

Unuda bilmədiklərimdən biri də qışda, bəzi günlərdəki soyuqlardır. Davamlı olmasa da, bu soyuqlara tutulduğun bir gecə onları unudulmaz edir. Yenə belə bir soyuq Türkistan gecəsində bir

kilometr olmayan məsafəni yerimək məcburiyyətində qalmışdıq. Fərqinə almadan getdiyimiz yol bitməz olmuşdu. Dondurucu soyuğun iztirabını zarafatların istiliyi ilə bir az da olsa unutmaq üçün bərabər yeridiyimiz Qazax qardaşım Bahıtcan Muhammedova sataşdım: "Mənim atalarım, səninkilərdən ağıllı imiş!" dedim. Soyuqdan titrəyən dişlərinin arasından "Niyə?" deyə soruşdu. "Niyəsi varmı? Bu qədər soyuq ölkədə yaşamaq olarmı? Onlar da çıxıb gediblər Anadoluya" mən bir yandan gülüb, bir yandan addımlarımı daha da şıxlaşdıraraq yeriyərkən, ağıllı Qazax cavab verməmək üçün gecikmədi: "Ataların haqqında söylədiyində haqlı ola bilərsən, bəs sən niyə geri döndün?" Bəli, deyəcək söz yoxdu. Ova gedərkən ovlanmışdım. Birlikdə soyuqda donub qalan qəhqəhələr çəkərək ən yaxın isti məkana sığındıq.

ULU TÜRKİSTANIN TRAGEDİYASI: URAL

Ulu Türkistanın xəritəsinə baxanlar Xəzər dənizinin şərqində böyük bir mavilik görürlər, bax bura Uraldır. Türkistanlı dəniz deyir: Ural Dənizi. Əslində o mavilik günümüzdə xəritədə göründüyü qədər böyük deyil. Çünki Ural qurudu. Dəniz qurudu, iki-üç parçaya bölündü, ortasında adalar yarandı.

"Ural ölüb gedərkən" –heç kim ah çəkmədi-ölüb gedən Vətən-su deyil! Belə hayqırır bir Özbək şair: "ölüb gedən Vətən...."

Ural quruyur, quruduqca ana Vətənimiz Türkistanı da qurudur. Suların çəkildiyi ərazilər çöl oldu, qum dənizinə döndü. Yalnız suyun çəkildiyi ərazilər deyil, arxasından bütün Ülu Türkistan çöl olmağa başladı.

Əvvəldən Ural ətrafındakı insanlar balıqçılıqla dolanardılar. Uraldan on minlərlə ton balıq tutulardı. İndi Uralın suyunda canlı yaşamır. Uralın suyu zəhər oldu, ətrafını da zəhərləyir. Bölgədəki şəhərlər, kəndlər boşalır. Qalanlar ya xəstə, ya da gedəcək yerləri olmayan insanlardır. Onlar da Uralla birlikdə ölümü gözləyirlər.

Türkistan şəhərində də quyu sularında kirəcləşmələr artır. Dünənə qədər zövqlə içilən quyulardakı sularda artıq çöl suyu dadı var. Uralı qurutdular. Daha çox pambıq almaq üçün damarlarını kəsdilər. Uralı bəsləyən Amudəryanı, Sırdəryanı kanallara bölüb çölə axıtdılar. İstiqamətini çölə çevirib "aş bu çölü" dedilər. Ulu Türkistanın qan qədər qiymətli suyu, damarlarından çıxıb qızğın qumların arasına axdı. Çöl suya inanarmı? Qoca Amudərya çölün ortasına doğru axdı. Çöl suya inanmadı, amma Aral qurudu.

Pambıq tarlalarına axıtdıqları, çölə axıtdıqları azmış kimi, Uralı poliqon etdilər.

Bilmirəm, neçə metr yerin altında atom sınaqları edib Uralın qarnını parçaladılar. Qurudulan damarlarına bir də bu əlavə olununca dözə bilmədi Ural, yeraltına sızdı Ural.

Su deyil, qımızdır Ural,
Bir ağıllı qızdır Ural,
Nadan əlində qalınca
Yer altına sızdı Ural."

Göllər şairimiz Ali Akbaş belə deyir.

Amansız sovet rejimi milyonlarla insanlarla yanaşı, Uralı da öldürdü.

Uralı tanımamaq Ulu Türküsatn coğrafiyasını tanımamaqdır.

Uralı anlamamaq, Ulu Türkistan coğrafiyasındakı insanların ruhunu anlamamaqdır.

Uralı düşünməmək, Türkistan Cümhuriyyətlərinin gələcəyinə maraq göstərməməkdir.

Uralın fəryadını eşitməmək insanlığın səsinə qulağına kar etməkdir.

Bu gün Türkistan coğrafiyasında Özbəki, Türkməni, Qazaxı, Qırğızı Ural qədər maraqlandıran ortaq bir məsələ yoxdur. Hər tərəfdən, hər kəsin üzüldüyü, Ulu Türkistanın üzüldüyü ortaq məsələ Ural tragediyasıdır.

Bunu bilən hər kəs Urala qaçdı. Amerika Birləşmiş Ştatlarının Dövlət Katibi köməkçisini göndərdi. Avropalılar Ural üçün bürolar qurdular, adamlar göndərib Uralın ətrafında növbətçi qoymaya başladılar. Dünya Bankı vəsait ayırdı. Dünya Uralın köməyinə gəldi.

Deyəsən, təkcə biz Uralı anlaya bilmədik. Bir çox dünya ölkələri Ural üçün nümayiş xatirinə də olsa, nə isə etməyə çalışır. Bəs biz harada idik, Türkiyə harada idi?

Ulu Türkistanda insanlar bunu bizdən soruşurlar: “Bəs Türkiyə hanı?” Üzümüz qızarır, cavab verə bilmirik.

Türkiyə insanlığın ortaq dəyərlərinə sahib çıxmaq istəyirsə Ural da olmalıdır.

Türkiyə Türkmən, Özbək, Qazax Türkistanlıların könlünə girmək istəyirsə Ural da olmalıdır.

Türkiyə Ulu Türkistanı anlamaq istəyirsə Ural da olmalıdır.

Və Türkiyənin Türkistan Cümhuriyyətlərinin gələcəyi ilə bağlı düşüncələri varsa, Ural da olmalıdır.

Ural qurudu. Ural çöl oldu. Ural yanır.

Qardaşlarının bağrı yanarkən “ah” çəkməyənə qardaş deyilməz.

Ural üçün “ah” Türkiyədən yüksəlməlidir.

Əmin olun, Ulu Türkistan səbirlə bu “ahı” gözləyir.

İGİD QANADLARI: ATLAR

Böyük ordular atlar üzərində üz-üzə gəldikləri zaman döyüş meydanlarında necə bir mənzərə yarandığına maraq göstərənlər mütləq "kökpar" oyununu seyr etməyə getməlidirlər. Hekayə yazarları, roman yazanlar, film çəkənlər keçmiş meydan döyüşlərini xatırladan bu oyunu seyr etdikləri zaman yaranan təsvir daha çox həqiqətə yaxın olacaqdır. Bəlkə də kökpar bu meydan döyüşlərinin idman formasına keçirilmiş şəkli və ya əsgərlərin əlində qılıncları olmadan çıxdıqları bir meydan qarşılaşması olaraq dəyərləndirilsə, şişirdilmiş olmaz.

Bəli, kökpar həm atların, həm də onları sürənlərin təlim gördüyü bir döyüş məşqidir ki, kökpar oynanan meydanın görüntüsü gerçəyindən geri qalmır. İki komandanın bir-birinə doğru hərəkətə gəlib oyunçulardan birinin ortadakı oğlağı götürməsi ilə birlikdə meydan canlanır. Onlarca atın ayaqlarını yerdən qaldırdığı toz duman içərisində atların bir-birilərinin üzərinə şığıması, iri gövdəli atların sinələri ilə sanki düyün düşmüş kimi bir-birinə qarışan sıxlığı yarıb keçməsi, o toz-duman arasında oğlağı rəqib oyunçudan qapıb bir həmləylə qələbəliyin içindən çıxıb dördnala çapan oyunçunun dayandırılması üçün edilən həmlələr kökparda həyəcanın ən yüksək nöqtəyə çatdığı anlardır.

Kökpar meydanında atın özü də, onu sürənin də dözümlülüyü və qabiliyyəti imtahandan keçir. Bu meydanda at üstündə qala bilən hər bir şərt altında ata minməyi bacarır. Qazaxların kökpar dediyi, Orta Asiyanın bəzi yerlərində oğlaq oyunu, "kökbüri" və ya "buzkaşi" deyilən bu oyun əsrlərdir olduğu kimi, bu gün də Türkistanlıların ən əsas əyləncələrindən biridir. Baharın gəlməsiylə birlikdə Şavuldur yolundakı ərazi və ya Kentav tərəfindəki geniş düzənliklər kökpar oynanan atlılarla dolmağa başlayır.

Sağlam bir bədən, iti gözü olan və yaxşı minicilik tələb edən kökparda hər kəs iştirak edə bilməz. Bu səbəbdən də Türkistandakı kökparçıların hamısı bir birilərini tanıyırlar. Hətta Cənubi Qazaxıstandakı kökparçılar bir-birlərinin qabiliyyətlərini, zəif və üstün cəhətlərini yaxşı bilirlər. Onu da qeyd edim ki, bəzi məşhur kökparçıların adları və hünərləri bütün Qazaxıstanda məşhurdur və hətta onları qonşu Qırğızıstan və Özbəkistanda da tanıyırlar.

Böyük mükafatlarla təşkil olunan kökpar oyunlarına qonşu xalqlardan da kökparçılar dəvət olunurlar. Bu kökpar oyununda hər cinsdən olan atları bir yerdə görmək mümkündür. Zərif əndamı ərəb atları, uzun boyunları ilə dünyaya bir az təpədən baxan Akhaltəkə atları, əsil ingilislər və ya iri gövdəli Kökçetav atları və müxtəlif mələzlər kökpar meydanında şücaətlərini göstərirlər.

Kökpar başlayarkən dualarla kəsilən oğlaq sahənin ortasına buraxılır. Komandalar hakimin əmri ilə oğlağı qapmaya çalışır. Oğlağı alan qrup öz yoldaşlarını qoruyaraq, əvvəldən müəyyən olunmuş bir sərhədi keçməyə çalışır. Böyük bir qarışıqlıqda cərəyan edən oyunda atların və oyunçuların qabiliyyətlərinə görə vəzifələri vardır. Məsələn, iri gövdəli atlar sinələri ilə vuraraq oğlağı qapdırmamaq üçün bir araya toplanmış qarşı qrupu yararaq aralarına girmək üçün yol açırlar. At üzərində daha yaxşı hərəkət edə bilən güclü atsürənlər onun qrupun arasına girərək oğlağı qapmaya çalışırlar.

Kökparın bu geniş yayılan etibarını bilməyən avropalı atçılar yaxşı bir kökpar atına iyirmi, otuz min dollar qiymət qoyulduğunu da heç cür anlaya bilməzlər.

Dünyada məşhur olan oğlaq oyununun başqa bir şəkli də Anadoluda oynanılır. Muhittin Aralın nəql etdiyinə görə Samsun və Bafra ətrafında post yarışları yörənin ən maraq çəkən əyləncələrindəndir. Anadoluda post yarışlarının məlum olan digər adı isə post qovğasıdır. Hələ dilimizdə yaşayan "post qovğası" deyimi qaynağını yəqin ki, bu yarışlardan alıb. Post yarışlarında qələbə çalmaq Orta Asiyadakı oğlaq oyununda olduğu kimi böyük şan və şərəf idi. Keçən əsrin 70-ci illərində yörə dəliqanlıları post yarışlarını səbirsizliklə gözləyərdilər.

***

"Türk ata minən kimi bütün qayğılarını, əndişələrini unudur, qorxusu gedir, könlü coşur. Dördnala gedən atın üzərindən dünyaya, cahanın hakimi ədasıyla baxır. Atdan endikdən sonra darıxmağa başlayır", bu ifadələr Qazaxıstanın ən məşhur elm adamlarından olan türkoloq professor Rəhmankul Berdibaya aiddir. "Ata minəndə Allahı, atdan enəndə atı unutma!" deyən atalar sözündə də eyni ruh halı anladılır. Bu ruh halını ifadə edən bir deyimi də anamdan eşidərdim "Türk ata minəndə özünü bəy sanır".

Bu sözlərin həyatda necə öz əksini tapdığını bir Qazaxın at üzərindəki duruşuna baxaraq görmək mümkündür. Piyada yeriyərkən çiyinləri düşmüş, başı bir az öndə olan Qazax atın üzərində başı dik, dünyaya meydan oxuyurmuş kimi baxmağa başlayır. Çünki o atla birlikdə böyüyür. Onun ata ilk minməyi təntənə ilə qeyd olunur. Yeddi yaşı olan uşaqlar dostunu-tanışını dəvət edərək, qoyun kəsib süfrələr quraraq "at mindirmə toyu" təşkil edirlər. Ata minmək hələ də atalar üçün mühüm məsələlərdən biri sayılır. Ata mindirmə toyundan sonra at və Qazax bir-birilərinin ən yaxın dostu və yoldaşı olurlar. "At igidin qanadıdır" bir Qazax atalar sözündə belə deyilir. Atlı igid üçün uzaqlar yaxındır, çünki o qanadlıdır.

Yeddi yaşında yəhərə oturan Qazax, 8-10 yaşlarına çatanda artıq yaxşı at minicisidir və xalq arasında çox məşhur olan "beygə" yarışlarının miniciləri bu gənc süvarilərdən seçilir.

Beygə yarışları da, kökpar kimi və hətta ondan daha çox xalq arasında maraq doğuran yarışlardandır. Beygədə ata daha az yük qoyulması üçün çəkiləri az olan gənc minicilərə üstünlük verilir. Beygə toylara, düyünlərə rəng qatan yarışlardır. Bu gün dünyada təşkil olunan ən ağır şərtlərə malik dözümlülük yarışları beygələrdir desəm yanılmaram. Yalnız atın deyil, onu minənin də müqaviməti vacibdir. Bu ağır şərtlərə malik beygələr bir yaşındakı atlar arasında "tay beygəsi", iki yaşındakı atlar arasında "qulum beygesi" olaraq təşkil olunur. Lakin əsl iddialı beygələr daha böyük yaşdakı atlar arasında, adətən bir liqa üsulu kimi şəhər, bölgə və ölkə üzrə keçirilir. 30, 40, hətta 50 km məsafənin qət olunduğu bu yarışlar olduqca iddialı keçir və mükafatları da çox yüksəkdir. Məsələn, Türkistan kimi şəhər bölgəsində birinci yerə çıxana avtomobil verilərkən, ölkə miqyasında olan yarışlarda mükafat yeni model ciplərdir. Bir Türkistan beygəsində birinci yerə çıxan uşağın qazandığı maşından çox, ona verilən maşının açarı ilə maraqlanması diqqətimi cəlb etdi.

Qazaxlar arasında geniş yayılan və at üzərində oynanılan "avdarıspak" oyunu da böyük qoçaqlıq tələb edir. Oyunçular atları ilə bir-birilərinə yaxınlaşaraq rəqiblərini at üzərindən düşürməyə çalışırlar.

Toylarda, şənliklərdə gənclərin qatıldıqları "tengə aluv" oyununda isə minici at üzərində ikən yerdəki metal pulları toplamağa çalışır.

Qazax şənliklərinin zövqlü yarışlarından biri də “kız kour” yəni “qız qovalamaq” oyunudur. Gənc qızlar və oğlanlar arasında təşkil olunan bu oyunda əvvəlcə müəyyən bir məsafə təyin edilir. Buraya bir hakim qoyulur. Qızlar gənc oğlanlardan 10 metrə qədər irəli çıxırlar. Yarışda hakimə qədər olan məsafədə qızın altındakı dəsmalı almaq lazımdır. Dəsmalı almayan yarışı uduzur.

At yarışı deyilərkən, rahvan at yarışlarını da yaddan çıxarmamaq lazımdır. Qazaxların “jorqa jarıs” dedikləri və Anadoluda da təşkil olunan rahvan at yarışları xüsusi yeriməyə öyrədilmiş atlarla təşkil olunur. Anadoluda olduğu kimi, Qazaxıstanda da rahvan atlara xüsusi ehtiram göstərirlər. Çünki bu rahvan atlar minicisini heç yormadan gəzdirir. Qazax onun üzərində kresloda oturmuş kimi rahatdır.

Atla iç-içə yaşayan Qazaxların dilində atla bağlı sözlər hər halda ayrı bir lüğət olacaq qədər çoxdur. Atın yaşı ilə bağlı çoxlu sözlər var. Məsələn, yeni doğulan ata Qazaxlar “kulun” (qulun) deyirlər. Qulun 1 yaşı olunca tay lur. Dişi taylara “batyal” deyilir. İki yaşında “kunan”, üç yaşında “dönən” və dörd yaşında “betsi” olur. Atların rəngləri, xasiyyətləri, davranışları ilə bağlı sözlər bir yerə yığılsa, böyük bir lüğət alınar.

AT ƏTİ VƏ QISRAQ SÜDÜ

Bugünkü ev atının atası olan, Tarpan və Prezevalski atlarının olduqları coğrafiyalar Türklərin yaşadıqları ərazilərdir. Atı əhliləşdirərək dünya mədəniyyətinə qazandıran Türklərdir. Atın ilk əhliləşdirildiyi zaman ətindən və südündən yararlanmaq məqsədi güdüldüyü zənn edilir. Daha sonra onun ilk dəfə nəqliyyat kimi və döyüş vasitəsi olaraq istifadə olunması Türklər tərəfindən həyata keçirilmişdir.

Türkistanda at idman, iş-güc, ət və südündən istifadə məqsədilə saxlanılır. Orta Asiya səhralarında gedərkən bu məqsədlə yetişdirilən "yılkılara" tez-tez rast gəlmək olur.

At südündən hazırlanan, tarixi Türk içkisi - qımız, digər Qıpçaq Türklərinin yaşadığı bölgələrdə olduğu kimi, Türkistanda da sevilən içkilərdən biridir. Qısraq südünün mayalanması ilə əldə edilən qımız bu gün də, Qazax, Qırğız, Tatar, Özbək, Türkmənlərin istifadə etdikləri kimi, Türkistan şəhərində də geniş şəkildə hazırlanır.

Baharda dünyaya gələn kiçik taylarla birlikdə qımız mövsümü da açılmış olur. Hər evdə ilin ilk qımızını içmək bir bayrama dönür. Qısrağın ilk südü qatı olur və daha yağlı olan ağız südüdür. Bu ağız südündən hazırlanan qımıza da "üz qımız" deyirlər və üz qımızın içilməsi üçün yaxın qohumlar, dostlar dəvət olunurlar.

Qazaxıstanda həqiqi qımız at dərisindən hazırlanan və içi məlikə ağacının dumanıyla hisə verilmiş və adına "saba" deyilən tuluqlarda hazırlanır. Saba olmadığı zaman ağac yayıqlar istifadə olunur və yenə məlikə ağacının dumanıyla hisə verilməsi lazımdır.

Qurudulmuş və adına "kor" deyilən qımız mayası sobanın dibinə qoyulur və tuluq qısraq südüylə doldurulur. İlıq bir yerdə yarım saat qədər saxlanılır. Yumurta böyüklüyündə kor əridiyində qımız hazır olur. Artıq südün dadı turşumuşdur və qımız hazırdır. Qazax qımızın mayalanmasına "asıtmaq" deyir, yəni südü acılaşdırmaq.

Mayanın əriməsiylə birlikdə artıq süd olmaqdan çıxmış qımıza "yuvaş" və ya "saumal" qımız deyirlər ki, mayanın az olması səbəbindən bundakı alkoqol faizi haradasa sıfıra yaxındır. Kiçik uşaqlara və ya yaşlılara içirirlər. Sinir xəstəliklərinin müalicəsində də

bu qımızdan istifadə olunur. Qımızın saxlanılması zamanı içindəki maya da irəliləyir və alkoqol faizi bir qədər artır. Ancaq maya nə qədər çox olursa olsun, alkoqolun faizi 1-1,5-i keçmir. Bu acılıq nəticəsində qımızın dadı turş ayranın dadına dönür və içilməsi sərtləşir.

Qımızın bir digər növü də "sarı qımız"dır. Sarı qımız yayın ortasında, səhranın otları yaxşıca saraldığı zaman sağılan südlərdən hazırlanır. Qımızın qidalılıq gücünü daha da artırmaq və dadını, rayihəsini bir az dəyişdirmək üçün içinə bir az bal qataraq içməyi sevənlər də vardır. Bu qımıza "bal qımız" deyirlər.

Bunların xaricində adlarını eşidib də, heç dadmadığımız qımızlar da vardır. Məsələn, bol maye ilə hazırlanıb uzun müddət gözlənilən "tünemel" qımız 3 gün, yəni 72 saat boyu mayalanan "kunan" qımız, dörd gün gözlənilən "dönən qımız", beş günlük "betsi qımız", daha çox gözlənilənlərə "asau qımız" deyilir ki, bu qımızlar acılığından asılı olaraq ət və digər başqa şeylərlə yanaşı yeyilir.

Baharda qımız mövsümü dualarla açıldığı kimi, payızda dualarla bağlanılır. Payızda südləri azalan qısraqlardan sağılan südlər bir neçə gün saxlanılaraq sirkə qımız hazırlanır. Sirkə qımızı içmək üçün el-oba dəvət olunur, süfrələr qurulur. Süfrədə içilən bu qımızlar ilin son qımızları olur.

Qımızın ən qiymətli olduğu mövsüm heç şübhəsiz qış aylarıdır. Qısraqların süddən kəsildiyi bu aylarda Qazaxın köməyinə qısır qısraqlar gəlir. Qışda qısraqların südündən hazırlanan bu qımıza da "qısır qımız" adı verilir. Xəstələr, canı qımız istəyən hamilə gəlinlər və çox hörmətli qonaqlar üçün bu qımızdan istifadə olunur.

Qımızın insan sağlamlığına çox faydalı olduğuna dair elmi fikirlər mövcuddur. Bu xüsusiyyətinə görə sinir sistemi, nəfəs yolu xəstəlikləri olan Qazaxlar yayda yaylaqlara çıxaraq, burada 15-20 gün yalnız qımız və qatıqdan hazırlanan diyetdən istifadə edirlər.

Atın südü kimi, əti də bu ərazilərdə sevilən yeməklərdəndir. Orta Asiyada hörmətli qonaqlara verilən "beşbarmaq" yeməyi qoyun əti ilə olduğu kimi, at əti ilə də hazırlanır. Yenə bölgənin ən məşhur qidalarından olan "kazı" yalnız at ətindən hazırlanır. Kazı hazırlanarkən atın qabırğa ətindən istifadə olunur. Atın qalın bağırsağı təmizlənir və ətlə doldurulur. Qabırğa ətləri bağırsağa doldurulmazdan əvvəl istiot, sarımsaq, duz və zövqə görə digər ədviyyatlarla doldurulur. Sucuq

şəklini alan kazı həmin dəqiqə bişirilmir. Hazırlanan ədviyyatların ətə hopması üçün bir müddət gözlənilir. Mükəmməl bir ləzzət dadan ətlər səhər yeməyi daxil, hər zaman yeyilə bilər.

TÜRKİSTANDA MİSSİONER FƏALİYYƏTLƏRİ, BÖRÜ BƏY

Qaziantəpdə dünyaya gələn bir ingilislə Türkistan şəhərində qarşılaşa biləcəyimi heç ağlıma gətirə bilməzdim. Dünyada Qaziantəpdə doğulan neçə ingilisə rast gəlmək olar ki? Ancaq biri burada idi. Öz dinlərini Orta Asiyada yaymaq üçün fəaliyyət göstərənlərin arasında çalışırdı. Türkistandakı saylarının neçə nəfər olduğunu bilmirəm. Ancaq fəaliyyətlərinə görə 10 nəfərdən az olmamalıdırlar. Antəpli ingilisdən başqa liseydə ingilis dilində müəllimlik edən 20-25 yaşlarında iki gənc qızı tanıyırdım. Antəplinin həyat yoldaşı da vardı. Onların evinə tez-tez gedib gələn 4-5 nəfərdən bəhs edilirdi.

Türkistana gəldiyim ilk günlərdən etibarən onların fəaliyyətləri haqqında çox şey eşidirdim. İstər Qazaxlar, istərsə də Türkiyədən gedən yoldaşlarımız bu fəaliyyətlərdən narahat olduqlarını söyləyirdilər. Gəncləri təlqin edərək iqtisadi sıxıntıda olan insanları maddi yardımlarla öz dinlərinə keçirməyə çalışırdılar. Missionerlərin tarix boyu istifadə etdikləri bütün metodları burada sınayırdılar. Çox böyük uğurlar əldə etməsələr də, öz yanlarına çəkdikləri bir neçə nəfər cəmiyyətdə ciddi narahatlıq yaratmışdı. Bu məsələ yalnız Türkistan şəhərinin deyil, bütün Orta Asiyanın problemi idi. Əslində onların Türkistana xüsusi əhəmiyyət verdiklərini də söyləmək olardı.

İstanbulda qeyri-müsəlman ailələrin qonşuları onlarla münasibətlərindən çox məmnun olaraq "çox yaxşı insanlar, kaş ki, müsəlman olsaydılar, axirətləri gözəl olardı!" dediklərinə dair rəvayətlər söylənilir. Əlbəttə hər insan öz dinini ən doğru inanc sistemi olaraq görür. Belə olmasa o dində qalmaz. Bu səbəbdən başqa insanların da "bu həqiqətləri" görmələrini və onların da "qurtuluşa" çatmalarını istəyə bilər. Buraya qədər hələ ki, hörmət duymaq mümkündür. Ancaq öz dinini iqtisadi sıxıntıları olan insanların vəziyyətlərini istismar edərək yaymağa çalışmaq istəyini qəbul etmək mümkün deyildir.

"Nə etmək?" deyə çox ağıllı bir gənc olan Dinis başda olmaq üzrə, bir neçə yoldaşımla bərabər düşünürdük. Axırda missionerlər

haqqında lətifələr söyləyib, xalq arasında yaymağa qərar verdik. Beləliklə, xalq missionerləri gördüyü zaman onun təlqinlərini dinləmək əvəzinə, lətifələri xatırlayıb güləcəkdi. Heç kimin burnu qanamadan Türkistanı missionerlərin başına dar edəcəkdik. Çoxlu lətifə fikirləşmişdik. Doğrusu, bəziləri bərbad olsa da, artıq onları xalq arasında yaymağa başlamışdıq.

Bir axşam saat 10-da iş otağında əyləşmişdim ki, Dinislam, Noyabr və Jipekin də aralarında olduğu altı tələbə dostum yanıma gəldilər. Gərgin olduqları üzlərindən məlum idi. Əvvəlcə öz aralarında bir problem olduğunu və məni hakim etməyə gəldiklərini düşündüm. "Necəsiniz" deyə soruşdum, "yaxşı deyilik, çox pis xəbər almışıq" dedilər.

Yesəvi Türbəsinin düz qarşısında keçmiş bir otel binası vardı. Uzun illərdən bəri boş qalan bu binanı missionerlər satın almaq istəyirdilər. Üç mərtəbəli və böyük bir tikili olan bu yerin aşağı mərtəbələrini məktəbə, bir hissəsini isə kilsəyə çevirəcəkmişlər.

Eşitdiklərim doğru ola bilməzdi. Yer seçiminə baxın, cürətə baxın! Düz Yesəvi Türbəsinin qarşısında kilsə tikmək! Bu provokasiyanın bütün Qazaxıstanda və hətta bütün Türk Dünyasında əmələ gətirəcəyi çaxnaşmanı düşünmək belə istəmirəm. Hər nə səbəbdən olursa olsun, bu gün burada yaşayanların gözləri önündə bu hadisənin cərəyan etməsinə müşahidəçi olanları tarix bağışlamazdı.

Bu məsələnin həqiqət olduğunu dəqiqləşdirmək lazım idi. Haradan öyrəndiklərini ətraflı şəkildə soruşdum. Söylədiklərindən mən də əmin oldum. Səhər saat on birin yarısında onlar İcra Hakimiyyətində olacaqdılar və dostların verdiyi məlumata görə binanın satış müqaviləsi imzalanacaqdı.

Nə edəcəklərini soruşdum. Əvvəlcə məktəblər arasında imza toplayacaqlarını söylədilər. Əlbəttə, bu etiraz etməməkdən daha yaxşı idi. Lakin imza toplayaraq bu məsələyə mane olmaq mümkün deyildi. "Başqa nə edə bilərik?" deyə soruşdum.

Aralarından birisi "İcra Hakimiyyəti qarşısında mitinq keçirmək istəyirik, ancaq..." dedi. Onun halından mənim bu fikrə qarşı çıxacağımı yəqin etdiyi bəlli idi. Məndən hər zamankı kimi "heç bir dostumuzu sıxıntıya salacaq bir şey etməyin" kimi sözlər gözləyirdilər.

«Neçə nəfər toplaya bilərsiniz?» deyə soruşdum. 300-400 nəfərdən az adam olmayacağından əmindilər. “Haydı, elə isə nə edəcəyimizi düşünək”.

Üzləri açılmış, könülləri coşmuşdu.

İlk işimiz idarəetməsi məndə olan tələbə yataqxanalarının müdirlərinə bu gecə yataqxanalara baş çəkməmələrini söyləmək oldu. Tələbə yataqxanalarında gecə elektrik kəsilməsi də bu gecə tətbiq olunmayacaqdı. Yataqxanalar tələbələrin ixtiyarına verilmişdi.

Bir qrupumuz da ertəsi günə çatdırılması vacib olan şüar və plakatları hazırlayacaqdı. Bu işlər üçün lazım olan karton, parça və digər ləvazimatları Vecih Ağabəy təmin edirdi. Gecə 12-də açılan emalatxanalar da gənclərə təslim edilmişdi.

Oğlan yataqxanasında toplantı üçün ən uyğun yer həyət idi. Tələbələrin hamısı buraya çağırılmış və öz dostları tərəfindən onlara missionerlərin cürəti və sabahkı nümayiş qərarından bəhs edilirdi. Təmiz qəlbli Qazax gəncləri həyəcanlanmışdılar. Bu nümayişin atalarının etdiyi Jeltoksan hadisələrinə də oxşar tərəfləri vardı. Qazax gəncləri arasında şüar söyləmək ənənəsi olmadığı üçün həyəcanlarını “Allahü-Əkbər” deyə bağıraraq ifadə edirdilər. Bu səslər yaxınlıqdakı qız yataqxanasında da həyəcanı bir anda yüksəltmişdi. Hər iki yataqxanadan səslərin yüksəlməsi təzyiqi əməlli-başlı artırırdı.

Nümayiş planımız bəlli idi: səhər saat 10-a yaxınlaşarkən hamı Universitetə gedir və ya oradan keçirmiş kimi İcra Hakimiyyətinin qarşısında Esim Xan Meydanının ətrafındakı küçələrdə toplaşmalıydı. Düz saat 10-da, bir an içində meydan çıxaraq şüarlar səsləndiriləcəkdi.

Bu tələşın içində Türkiyə tərəfindən prorektor Ziya Başqan Bəyi tapmışdım. “Ağabəy, sənə yataqxanalar tərəfindən bir pas atsam, sinəni qabağa verərsənmi?” Cavabı qısa və dəqiqdi: “At, səndən gələn hər şey üçün sinəmi qabağa verərəm”. Ziya bəylə dialoqumuz sadəcə bu qədər idi. İcra Hakimiyyəti və rektorluq binası eyni meydanın kənarında yan-yana durduqlarından, Qazaxıstanın ilk icazəsiz mitinqi Ziya bəyin otağının pəncərəsinin düz qarşısında olacaqdı.

Ertəsi gün saat ona yaxınlaşırdı və mən yerimdə dayana bilmirdim. Mənim mitinqə qatılmağım doğru deyildi, ancaq olduğum yerdən baş verənlərdən xəbər almağım çətin olacaqdı. İki dost mənə xəbər gətirəcəkdi, amma onlar da mitinq bitdikdən sonra gələcəkdilər.

Saat on birə beş dəqiqə işlədiyi zaman gözlədiyim xəbəri Doğan bəy gətirdi.

Yataqxanaların texniki işlərinə baxan dostumuz təsadüfən meydanın yanından keçərkən tələbələri görmüşdü. "Xoca! Xoca! Meydan çiçək açmışdı. Bizim tələbələr əllərində plakatlar missionerləri protest edirdilər". Allaha çox şükür, mitinq başlamışdı. Artıq davamı gəlirdi. Allah köməkləri olsun! "Mən bu dəqiqə kameranı alıb gedirəm" Doğan dedi. Doğan bəy çiynindən düşürmədiyi kamerası ilə Türkistanda mühüm bildiyi hər hadisəni çəkərdi. Gəlməyinin səbəbi kamerasını götürmək idi. "Dayan!" dedim. "Nə edirsən? Polisə, KQB-yə öz əlimizlə sənəd verəcəyikmi? Olmaz. Özün gedirsən, get. Ancaq bu dəfə kameranı götürmək olmaz!" Nə dediyimi anladı. Onu gözləyən taksiyə minib meydana getdi.

Mitinqin arxasını Ziya bəy danışdı: missionerlər mitinqdən təşvişə düşmüşdülər. Yalnız missionerlərmi? İcra hakimiyyəti, rektorluq, polis və şəhərin bütün öndə gedənləri təlaş içindəydilər. Rektorun köməkçiləri tələbələrdən dağılışmalarını tələb edirdilər, lakin heç kim dağılmaq istəmirdi.

Şahid olanlardan aldığımız məlumatlara görə, missionerlərin heyəti on birin yarısında icra başçısının otağına əsəbi bir şəkildə girərək yüksək səslə: "Bayırda olanlar nə deməkdir?" deyə soruşmuşdur. O zamana qədər kim bilir, hansı təsirin altında qalaraq onlara tərs cavab verməyən Türkistanın icra başçısı: "Yesəvi torpağında kilsə açdığınız zaman sizi güllə qarşılamayacaqlar ki... Çıxın bayıra!" deyərək missionerləri otağından qovmuşdur. Hətta Türkiyə türkcəsi ilə eyni şəkildə söylənən və Qazax kişilərinin bir çoxunun çox yaxşı bacardığı sin-kaflı cümlələrdən də bir çoxunu üzlərinə qarşı və arxalarından söyləmişdir.

Pisniyyətli missionerlərin İcra Hakimiyyətinə girmələri ilə çıxmaları bir olmuşdur. Onların İcra Hakimiyyətindən çıxdıqlarını görüncə mitinqi sona çatdırmaq Ziya bəyin üzərinə düşmüşdür. Bir az əvvəl şəhərin öndə gedənlərinin sözünə etibar etməyən tələbələr Ziya bəyin "Bitdi, yoldaşlar məqsədə nail olduq" sözü ilə səssizcə dağılırlar.

Bu mitinqdən sonra Türkistanda missioner fəaliyyətləri bıçaq kimi kəsildi.

Mitinqdən sonra 6 aya yaxın bir vaxt keçmişdi ki, Ankarada bir konfransda "Orta Asiyada missioner fəaliyyətləri" haqqında məlumat verən bir dosentimizin Türkistanlı gənclərin bu mübarizəsindən bəhs etdiyini öyrənmək məni çox xoşbəxt etdi. Xoşbəxtliyimin səbəbi hərəkatımızın elmi təbliğata keçməsindən çox, əksini düşündüyüm zaman duyduğum rahatlıq hissi idi: ya o məlumatda mitinq yerinə Yesəvi Türbəsinin düz qarşısında kilsə açıldığından bəhs edilsəydi, necə olacaqdı? Millətin üzünə necə baxardıq, necə söyləyərdik ki, biz o zaman Türkistanda olmuşuq.

Missionerlər Antəpli xaric olmaqla, bütün adamlarını Türkistandan çıxarmışdılar; bir o qalmışdı. Həyat yoldaşını göndərib, özü yalnız yaşayırdı. Onu da uzaqdan təqib edirdik. Görünən heç bir fəaliyyəti yox idi. 60-dan çox yaşı olan bu adam ağarmış saqqalı ilə arada-bir lazım olan şeyləri almaq üçün şəhərə çıxır, vaxtının çoxunu isə adətən evində keçirirdi. Ev işlərini görən ailədən başqa onun evinə gəlib gedən yox idi.

1997-ci ilin oktyabrında həyata keçirdiyimiz bu mitinqdən sonra üç il keçmiş və Türkistanda missioner fəaliyyətləri tamamilə dayandırılmışdı. Lakin 2000-ci ilin mayında Antəpli təkrar gündəmə gəldi. Türkiyədən gələn işgüzar bir tarix dosentimiz Antəplini kəşf etmişdi. Özü də necə bir kəşf. Bizim Antəplinin necə dəyərli bir elm adamı olduğundan bəhs edilirdi. Sən demə, Antəpli bu müddət ərzində "Türkistanda İslam" mövzusunda bir kitab hazırlayırmış. Doğrusu, onun tədqiqatçı olduğunu bilirdik. Bu yaşlı vaxtında Qazaxıstanda bir namizədlik işinə başlamış və dissertasiyasını Qazaxca müdafiə etmişdi. Dissertasiyasının redaksiya olunması üçün kömək istədiyi Qazax ədəbiyyatçıları heyranlıqla "dissertasiyada bir dənə də olsun Qazax dilində qrammatik xəta tapmadıqlarından" bəhs edirdilər. Mən bu vəziyyəti şişirdilmiş hesab edirdim və onun dissertasiyasını bir Qazaxa yazdırdığını düşünürdüm.

Bu arada Qazaxlar öz aralarında Antəpliyə Qazaxca bir ad da qoymuşdular: Böru bəy. Ancaq bu qədər ola bilərdi. Tam da "börü"nü tapmışdılar! Börü Qazax dilində boz qurd mənasını verir. "Börü bəy" isə "boz qurd bəy" deməkdir.

"Tüküstanda İslam" tədqiqatı isə yeni idi. Bunu ingiliscə hazırlayıb və İngiltərədə nəşr etdirməyi planlaşdırırmış. Bu böyük

tədqiqatçını kəşf edən işgüzar tarixçimiz, Türkiyəli tarixçi olan prorektoru inandıraraq 2000-ci ilin mayında Börü bəy üçün bir konfrans təşkil etmişdilər.

Belə şey ola bilməzdi! İllərlə mübarizə apardığımız adamı kürsümüzə çıxardıb məşhurlaşdıracaqdıq. Buna dözmək mümkün deyildi. Əlimizdən gələn hər şeyi edib, bacardığımız qədər vəziyyəti başa salmağa çalışırdıq, lakin anlamaq istəyən heç kimi tapmırdıq. Hələ də digər prorektor vəzifəsini davam etdirən Ziya bəyə "bu adamlar nə edirlər?" deyə soruşdum. Əllərini iki yana açıb çarəsiz boyunu bükdü. Birinci prorektor bəlkə bir az da bizim acığımıza bu konfransı keçirməkdə qərarlı idi. Nəhayət konfrans günü gəldi və gördüklərin məni daha çox məyus etdi. Artıq Börü bəyin konfrans verməsinə məyus deyildim. Məni daha çox məyus edən konfrans keçirilən mədəniyyət mərkəzinin əməkdaşlarının Börü bəyi canfəşanlıqla qarşılamalarıydı. Məmurlar, texniki işçilər, hər biri öz çalışdıqları məkanı "şərəfləndirən hörmətli Börü bəyi" kiçik olsa da, hədiyyələr verərək sevgi və hörmətlə qarşılayır və "xoş gəldiniz" deyirdilər. Bu mənzərəni seyr etmək mənə pis təsir etmişdi. Doğrusu, bu konfransı təşkil edən birinci prorektorun özünə belə, vəzifədə olarkən Börü bəyə edilən hörmət ona göstərilməmişdi.

Börü bəyin konfransı başladığı zaman dissertasiya işinin dili haqqında deyilənləri xatırladım: Börü bəy Qazaxca çox gözəl danışırdı. Bu salonda qazaxcanı yaxşı bilən Türkiyəlilərdən biri də mən idim. Lakin Börü bəyin istifadə etdiyi qazaxca mənimkindən yaxşı idi. Hətta qazaxcanı bu dərəcə yaxşı bilən Qazaxlar belə azdır, desəm şişirtmiş olmaram. Digər tərəfdən konfransın tərtib olunmasına səbəb olan işgüzar dosentimizin bütün təkidimizə baxmayaraq, vaz keçməyən birinci prorektor və salondakı bir çox Türkiyəlinin kürsüdə söylənənlərin bəlkə onda birini anlaya biləcək səviyyə vardı. Lakin konfransı dinləyən universitetdə oxuyan Qazax tələbələr sıxıntı içində idilər. Konfrans bitən zaman eşitdiklərinə etirazları vardısa da, sitəmləri daha çox idi. Onlardan bir neçəsi "bu adam Qazaxları geridə qalmış cəmiyyətlərlə bir tutdu, dinimizi, mədəniyyətimizi pislədi. Niyə bunu danışdırdınız?" deyə bizə sitəm etdilər.

O il Börü bəy də, mən də Türkistandan ayrıldıq. O, təkrar Türkistana getdimi, bilmirəm. Ancaq doğrusu, Börü bəyi təqdir

etməmək mümkün deyil. Kaş ki, bizim də Türk mədəniyyəti üçün, sənin öz missiyan üçün göstərdiyin qeyrət qədər qeyrət edən Börü bəylərimiz olsa!...

BAKSI XANSEYİD

Bir Türkistan axşamında günün yorğunluğunu atmaq üçün etdiyimiz gəzintilər zamanı, Əhməd Yesəvinin qızı Gövhər Ana Türbəsinin türbədarının "Zikr var, görmək istəyirsinizmi?" sualıyla məndə başlayan həyəcanı, bizi Baksı Xanseyidə və islamdan əvvəl Göy Tanrı dininin hələ də İslam içində yaşayan izlərinin içinə aparacaqdı.

Bu suala ilk etirazım heyrətlə açılan gözlərlə ona baxarkən, "Yesəvi zikrimi?" deyə soruşmaq olmuşdu. Doğrusu, Türkistana gəldiyim gündən bəri Yesəviyədən izlər axtarmaqla məşğul idim. Türk mütəfəkkirlərinin ilk və ən böyüklərindən olan Əhməd Yesəvi Həzrətlərinin yolçularından bir xəbər, bir bilgi qırıntısı axtarırdım. Bura gəlməzdən əvvəl oxuduğum bir kitabda amerikalı tədqiqatçı, Yesəviyə təriqətinin bu gün də davam etdiyini iddia edirdi. Aleksandr Benigson adlı Orta Asiya mütəxəssisi məşhur amerikalının yazdıqlarına görə "Yesəviyə sovet işğalından sonra hələ də davamçıları olan təriqətlərdən idi". Hətta o dönəmdə Yesəviyənin öndə olanları əvvəl sovet işğalını dəstəkləyirlər, çox keçmədən sosialistlərlə münasibətləri pozulur və onlarla mübarizəyə başlayırlar. Bu mübarizələr sovetlər dönəmində də uzun illər davam etmişdir". Tədqiqatçının əsərində əvvəl işğalın nədən dəstəkləndiyi, sonra niyə əks mübarizəyə başladıqları və bu mübarizə zamanı nələr etdiklərinə dair heç bir məlumat yox idi. Doğrusu, bu iki sualın cavabını tapmaq çox çətin kimi görünürdü: əvvəl bir aldanma və dəstək, tanıdıqdan sonra üz-üzə dayanmaq. Yesəviyə və sosialistlərin fikir və davranışlarını düşününcə, aralarındakı münasibət bu şəkildə dəyişməli idi. Sonra? Hansı davranışlarını dəyişdirdilər? Sovetlərlə mübarizədə hansı strategiyanı və taktikanı istifadə etdilər. Passiv və ya aktiv, nə kimi mübarizələr apardılar? Bunları təxmin etmək daha çətindi. Üstəlik Benigson, Yesəviyənin işğal dönəmində "İşanlar" adıyla məlum olan sovetlərin dağılmasından sonra da İşanların var ola biləcəyini yazırdı. Tarixin bəlkə ən qəddar rejimlərinin altında yaşayarkən və üstəlik onunla mübarizə apararkən varlıqlarını necə davam etdirə bilərdilər? Yeni üzvlər daxil etdilərmi? Daxil etdilərsə, onları necə sınadılar və onlara necə təklif etdilər? Öz aralarında əlaqəni necə yaratdılar? Bu gün onların sayı nə qədərdir?

Suallar bir-bir ağlımdan keçir, marağım və həyəcanım artırdı.

Gövhər Ana Türbəsini ziyarətə gəlib gedərkən onun yanında kiçik bir evdə yaşayan türbədar ailə ilə yaxınlıq etmiş və onlara Yesəviyənin bu gün də olub olmadığına dair üstü örtülü suallar vermişdim. Əgər Türk mistikasının bu ilk təşkilatı hərəkatının davamçıları hələ də varsa, türbədar ailənin bunlardan xəbərdar olma ehtimalı çox böyükdü. Türkistan şəhərinin keçmiş adıyla "Kommunizm", yeni adıyla Yesi məhəlləsinin arxasında, Arslan Baba Türbəsinə gedən Şavuldur yolu üstündəki bu kiçik türbəni mütləq ziyarətə gəlməli idilər.

Doğrusu, bu suallarıma çox da qaneedici cavab almamışdım, onsuz da çox açıq bir cavab da gözləmirdim. Səksən il əvvəl yer altına çəkilmiş və gizlilik pərdəsini üzərinə çəkmiş bir quruluşun, bir-iki təşəbbüslə ortaya çıxacağını gözləmək sadəlövhlük olardı. Yalnız bu təşəbbüslərimiz bizi Yesəviyəyə və ya İşanlara çatdırmasa da, xalq mədəniyyəti nöqteyi-nəzərindən çox diqqət çəkici olan yerlərə aparacaqdı.

Tez bir taksi tapıb yola çıxdıq. Türbədarın tərifiylə yol gedirdik. Türkistanın Qızıl Orda çıxışında bir məhəlləyə gəlmişdik. Məhəllədə Şəhər İcra Hakimiyyətinin xalqa payladığı beş yüz metr torpaq ərazilərdə üzərində adamların özlərinin tikdikləri kərpic evlər var idi. Maşınımızın məhəlləyə girməsi ilə it səsləri də artmağa başlamışdı. Nəhayət bir yerdə dayandıq və bizləri qarşılayan ev sahiblərinin isti münasibətləri ilə içəriyə təşrif buyurduq. Evə girərkən üzərində nəyin olduğunu tam anlaya bilmədiyim gur atəş yanırdı.

Əvvəlcə salona keçirildik. Evin geniş salonunda divar diblərinə sərilən və adına "körpəcə" deyilən geniş yer döşəkcələrinə oturmuş bir qələbəlik vardı. Hamısının zikr üçün gəldiyi bəlli idi. Girişdən sağ tərəfə kişilər, sol tərəfə isə qadınlar oturmuşdu. Qələbəlik arasında bizim oturacağımız yerin boş saxlanılması və həmin bu boş yerə "buyurun" deyilməsi bizim gələcəyimizdən buradakıların da xəbərlərinin olduğu qənaətini yaradırdı. Yerimizə oturub ətrafdakılarla təkrar salamlaşıb, hal-əhval soraraq gözləməyə başladıq. Salonun dolu olan qapı önləri ilə sağ və sol divar kənarlarına baxmayaraq, "baş hissə" adlanan kənarı boş qalmışdı.

Çox keçmədən bu hissənin nədən boş olduğunu anlayacaqdıq. Üçü qadın olmaqla, yeddi nəfər topuqlarına qədər enmiş ağ libasların

içində salona girdilər və onlar üçün ayrılan yerlərdə oturdular. Başlarında, alınlarına bantlar taxılmış ağ örtüklər vardır. Əvvəlcə gözüm bantların rənglərinə ilişdi. Biri xaric, digərlərinin başındakılar yaşıl idi. Anadoluda Ələvi məkanlarına yaxın yerlərdə satılan Həzrət Əli və ya Hacı Bektaş təmsilçilərinə və ya səma rəqslərində bəzi folklor qruplarının üzvləri başlarına parlaq yaşıl bağlayırlar. Hətta başlarındakı ağ örtüyün duruşu da səmaçıların baş örtüklərini xatırladırdı. Ağlar içindəki üç kişinin sağına, üç qadının da soluna oturduğu ortadakı kişinin isə başındakı bant qırmızı idi. Bu qırmızı qızılı rəngə çalırdı. Daha sonra adının Xanseyid olduğunu öyrəndiyimiz ortada oturan bu kişi yəqin ki, ən böyükləri idi.

Onların hamısı özündən çox əmin tərzdə hərəkət edirdilər. Qırmızı bantlı olan biz də daxil olmaq üzrə salondakılarla baş və göz hərəkətləri ilə salamlaşdıqdan sonra tədbiri açdı. Sıralanmasını səhv və saylarını əksik xatırlaya bilərəm, ancaq Sayramda İbrahim Ata, Şavuldurda Arslan Baba, Türkistanda Yesəvi Baba, Gövhər Ana, Umay Ana, Ökeş Ata... başda olmaq üzrə bir çox övliyanın ruhu üçün fatihələr oxundu. Cəm halda Esma ül Hüsnadan bəzi isimlər təkrarlanmaya başlandı. Bəzən qazaxca ilahilər də oxunurdu. Yarım saat, bəlkə də bir az daha artıq vaxt keçmişdi ki, hamımız birlikdə ayağa qalxdıq. Ağ paltarlılar salonun ortasına doğru hərəkət etdilər. Bellərinə bağladıqları qurşaq indi diqqətimi cəlb etdi. Hər birinin başındakı bantla eyni rəngdə qurşaqları vardı. Xanseyid toplaşanlara açıqlama verərkən onlar da bellərindəki qurşağın arasına saldıqları qamçıları çıxarırdılar.

Xanseyid "bizim işarə etdiklərimiz ortaya çıxacaq və onlara açmaları deyilənə qədər gözlərini bağlı saxlayacaqlar" deyirdi. Bu arada kənarda gözləyənlərin vəzifəsi hündür səslə "dak salmaq" sözünü təkrar etmək idi.

Əvvəlcə özləri "dak salmaq" deyərək ikinci hissəni başladılar. Yığılan adamlar hamısı bir ağızdan eyni şeyi təkrar edirdi. Sonra Xanseyid başda olmaq üzrə hər biri bir nəfəri salonunun ortasına çağırırdı. Çağırma forması da maraqlı idi. Əllərindəki qamçını dairə halına gətirib və bir adamın başından keçirərək boyun hissəsinə endirdikdən sonra özlərinə doğru çəkirdilər. Ortaya çıxan insanlar "dak salmaq" səslərinin arasında gözləri bağlı öz ətraflarında fırladılırdı. Bu zaman kimisi mövlana səmaçıları kimi öz ətrafında fırlanır, kimisi

tullanmağa başlayır, hətta bəziləri özlərini yerə çırpırdı. Adamların zamanı bitəndə Xanseyidin nəzarətində gözləri açması söylənilir və yerlərinə keçib otururdular.

Xanseyid qamçısını boynuna taxıb məni ortaya çağırdığı zaman yavaş səslə təşəkkür etdim. Ortaya çıxmaq istəmədiyimi görüncə israr etmədi və məni buraxaraq yanımdakını çağırdı.

Nə qədər zaman keçdi, bilmirəm, amma salondakı hər kəs bir-bir ortaya çıxmışdı ki, böyük bir mis ləyəninin içində qızdırılaraq qızıl qora dönmüş tökmə soba qapağı salonun ortasına gətirildi. Evə girərkən gur yanan atəşin bu soba qapağını qızdırmaq üçün yandırıldığını indi anlayırdım. Salonun ortasındakı ağ köynəkli yeddi nəfər sıra ilə çılpaq ayaqlarını qələbəliyin heyrət dolu baxışları arasında qızıl qor halındakı soba qapağına vururdular. Qələbəlikdən "dak salmaq" səsləri əməlli-başlı yüksəlmişdi. Hər biri iki və ya üç dəfə sıra ilə qapağa ayaqlarını vurdular. Bunlar tamamlandıqdan sonra bir kişi qapağın üzərinə bir az su tökdü və qızıl qor halındakı qapağın üzərində su o dəqiqə buxarlanaraq yox oldu.

Bundan sonra Xanseyid əlinə ucu qızıl qor halına gətirilmiş bir dəmir çubuq alaraq sıra ilə hər kəsin qarşısında durdu və çubuğun qor ucunu dili ilə yalayaraq insanların üzünə üflədi. Tək-tək bu hərəkət tamamlandıqdan sonra dualar oxundu və "amin" deyildi.

Qələbəlik dağılarkən bizə qalmağımız üçün işarə edildi.

Evin xanımları biri kişmiş, üzüm, badam və rəngli şəkərlərlə birlikdə çaya qonaq etdilər.

Aralarında olduğum bu adamların "işanlar" olmadıqlarını anlamışdım. Bu, oxuduğum kitablardakı Yesəvi toplantılarından fərqli bir şey idi.

Hələ ilk çayımızı içib bitirməmişdik ki, uzun boylu, qarabuğdayı bığları dodaqlarının kənarından bir az kənara çıxan bir nəfər içəriyə girdi. Gələnin bir az əvvəl başı qırmızı bantlı, tədbiri idarə edən Xanseyid olduğunu anlamamışdım. Bizi tanış etdilər. Bir neçə dəqiqə əvvəl özündən arxayın dünyanın hakimi kimi davranan qızğın qoru ayağı ilə basan, dili ilə yalayan adam getmiş, yerinə çiyinləri çökük, sakit görünüşlü, hətta bir az da utancaq adlana bilən 45-50 yaşlarında bir Qazax gəlmişdi.

Tanışlıq və hal-əhval tutandan sonra tədbir haqqında fikrimi soruşdu. Doğrusu, mənim də soruşacağım çox sual var idi. Çaşqınlığımı gizlətmədim və bunun "klassik Yesəvi zikri" olmadığı haqqındakı qənaətimin doğru olub-olmadığını öyrənmək istədim. Xanseyid "Yesəvi Babanı biz də çox sevir və hörmət edirik, ancaq bizim etdiyimiz Yesəvi zikri deyil. Biz baksıyıq" dedi.

Baksı, tarixi məlumatlara əsasən şamanlardır. Şamanizm və ya göy Tanrı dininin, din adamlarına verilən isimdir.

"Ancaq toplantıda bir çox islam ünsürü var idi. Hətta bir arada "siz bir iki nəfərə namaz qılmağı öyrənməsini tövsiyə etdiniz. Baksılıq şamanizmdə də var, burada bir ziddiyyət yoxdurmu?".

Səmimi bir təbəssümlə Xanseyid "dediklərıniz doğrudur" deyə cavab verdi. "Atalarımız islam dinini qəbul etdikdən sonra müsəlmanlar baksı adətlərinə çox müsbət baxmamışdılar. O dönəmdə yaşayan baksılar da baksılığın islama zidd olan qaydalarını atıb, ancaq islama zidd olmayan qaydaları tətbiq etməyə davam etmişdilər. Bu arada zaman içində islam mistikası ilə paralel Allahın isimlərinin təkrarı, Peyğəmbərimizə salavat kimi ünsürləri də əlavə etmişdilər. Beləliklə, aradakı münaqişələr bitirilmiş yəni, baksılıq islama uyğun hala gətirilmişdir. Bizlər atalarımızın islamın qəbulu dönəmində olduğu kimi, bəzi xəstəliklərin müalicəsi ilə məşğul oluruq. Gördüyünüz kimi, biz də müsəlmanıq".

Xanseyidlə bu şəkildə, təsadüflə başlayan dostluğumuz uzun müddət davam etdi. Hətta o dönəmin baş naziri Büləәnd Ecevit tərəfindən xüsusilə təqib edilən və Tanıtma Fondunun dəstəyi ilə çəkilən "Hacı Bektaş sənədli filmi" üçün çəkiliş qrupu Türkistana gədiyi zaman bu yerdə baksı ənənəsi ilə bağlı çəkiliş etmək xahişimizi qırmayaraq çəkilişlərə icazə verdi.

Bu sənədli filmlə Xanseyid, baksıları və onların adətlərini Türkiyədə tanıdan bəlkə də ilk baksı oldu.

AĞARAN SAÇLARA İNAD GƏNCLƏŞƏN ÜRƏK

Maşında beş nəfər - bir Qazax, bir Qırğız, bir Uyğur və iki Türkiyəli Bişkekə gedirdik. Qırğız və Uyğur dostlarımız Bişkekdə qalacaq, digərlərimiz Alma-ataya gedəcəkdik. Türkistan şəhərindən ayrılandan çox vaxt keçmişdi. Xüsusi maşınla 8-9 saat davam edən Türkistan –Bişkek yolçuluğunda Türkiyəli Ağabəyimiz fasilə verərək yemək yeməyimizə icazə vermirdi. Bişkekə çatınca Adana kababı yeyəcəkdik.

Qırğız sərhədindən keçdik. Hər hansı bir problemlə qarşılaşmamışdıq. Bir az irəlidə polis maşınımızı dayandırdı. Pasportlarımızı yoxladı və Uyğur dostumuzla mənim pasportumda "əskiklik" tapdı. DTK-nın xaricilər üçün şöbəsi olan PVQİ-ə gedəcəkdik. PVQİ-dəki məmurlar məsələni daha da böyütmək niyyətində idilər. Qazax dostumuz da bizimlə bərabər idi. Digərləri PVQİ binasının qarşısında maşında gözləyirdilər. Üç saata yaxın PVQİ macərasından sonra Türk–Qırğız qardaşlığına istinadən sərbəst buraxıldıq və həmin dəqiqə Bişkeki tərk etmək tövsiyəsi aldıq.

Yarı tövsiyə, yarı təlimat xarakterli qərara baxmayaraq, on bir saatdır gözlədiyimiz Adana kababımızı yeyəcəkdik. Bir saata yaxın kababçıda verdiyimiz fasilədən sonra, Qırğız və Uyğur dostlarımızı Bişkekdə qoyaraq, Alma-ataya doğru yola çıxdıq. Bişkekin Alma-ata çıxışına yaxın bir yerdə yol soruşmaq üçün dayanmışdıq ki, bir maşın sürətlə qarşımızda saxladı. Bizə yaxınlaşan sükan arxasındakı dostumuza amerikan filmlərindəki kimi bir şəxsiyyət vəsiqəsi çıxarıb göstərərkən "polis" dedi və sonra maşınımızın arxa qoltuğuna oturaraq öndəki maşını təqib etməyimizi söylədi. Gecə yarısıydı.

Biz PVQİ-dəki məmurların oyununa gəldiyimizi düşünürdük. Maşınımızın nömrəsini verərək bizi təkrar saxlamışdılar. Qarşımızda gedən maşın əsas yoldan çıxdı və qədim bir binanın qarşısında dayandı. Yanımızdakı "düşün" dedi. Düşdük. Mənə baqajı açmağımı söyləyərkən, Ağabəyi içəriyə apardılar. Əl çantalarımızdan başqa bir şeyin olmadığı baqajı göstərdikdən sonra məni də eyni istiqamətdə apardılar.

Sağda, solda kasa qırıqlarının yatdığı boş bir koridordan keçərkən " bu necə polis məntəqəsi" deyə düşünürdüm ki, kiçik bir otağa girdik. Əllərimi qaldırmamı və divara yatmağımı istədilər. Buranın polis məntəqəsi olmadığı bəlli idi, görəsən bu adamlar həqiqətən polis idilər? Mən divara söykənib, üzərimin axtarılmasını gözləyərkən Ağabəy adamlara qışqırmağa başladı. Üzərimi axtaran adamı kənara itələyərək Ağabəyə yaxınlaşdım. Onun üzərini axtaran adam Ağabəyin yanındakı dollarları "yoxlayarkən" bir-ikisini oğurlamağa cəhd etmişdilər.

İkimiz yanaşı, "yoxlanılan əşyalarımızı" toplayaraq bayıra çıxdıq. Qazax dostumuz maşının yanında idi. Onu içəriyə aparmamışdılar. Maşını tez işə salmasını xahiş etdik.

Polis qiyafəsindəki mafiyadan xilas olmuşduq. Ağabəy təkrar üstündəki pulunu saydı, 100 dollar əskik idi. Onu oğurlayarkən hiss etməmişdik. Bir yandan da yaxşı qurtardığımız düşünürdük. Arxa kresloda oturan Ağabəy təhlil etməyə başladı: "Qırğız dövləti bu kimi qruplara mane olmasa, xarici sərmayənin gəlməsi azalar. Onsuz da öz sərmayəsi olmayan Qırğızıstanın inkişafı ləngiyər...".

Dodaqlarımda incə bir təbəssümlə düz arxamda oturan Ağabəyi dinləyirdim. Nəhayət dözmədim: "Bir gündə canımızı iki dəfə güclə qurtardıq. Bu mafiya töküntüsünün etdiklərindən sonra icazə ver, bir-iki saat da ola Qırğızlara hirslənək. Sonra yenə Qırğızıstanın necə xilas olacağını və Türk Dünyasını müzakirə etməyə davam edərik". Türkiyə türkcəsini çox gözəl bilən Qazax dostumla birlikdə gülməyə başladıq. O da bizə qoşuldu.

Əsəblərimizin son dərəcə xarab olduğu o gərgin anda belə Qırğızları və Qırğızıstanın yaxşılığı üçün düşünə bilən Ağabəy, Özər Rəvanoğlu idi. O, gənclik illərindən etibarən özünü Türklük və Türk Dünyasına həsr edən nümunə bir şəxsiyyətdir. İstanbulda Ötüken Nəşr Evinin yaradılması, bir çox dərnək və dərgi fəaliyyətləri, "Türklük" deyilən partiyanın sıralarında ac-susuz mübarizələr, Azərbaycan və Qırğızıstanda Osmanlı memarlığı ilə tikilən iki məscidin palçığına qarışan alın tərləri...

İndi yaşı altmışı keçən Ağabəyin dizləri avqust ayında belə üşüyür. Səbəbi Bişkekdə Lenin meydanında qılınan bayram namazıdır. O günü xatırlayınca Özer Ağabəyin gözləri parıldayır: "On minlərlə

insan meydanı doldurmuşdu. İnsanlar mənfi 15-20 dərəcə soyuqda, qarın-buzun üzərində bayram namazına tələsirdi. O zaman Leninin heykəli hələ də meydanda dayanırdı".

O soyuqda dizlərini nə qədər şiddətli üşütdü isə, damarlarında əmələ gələn problem nəticəsində hələ də isinmir. Amma o hər bayram yaxınlaşarkən "Ah, mümkün olsaydı, bayram namazını Lenin Meydanında qılsaq" deyir. Son günlərdə onun ən böyük arzusu "Şabdan Batur" la bağlı bir sənədli kitab yazmaqdır.

Bir gün Bişkekdə tanış olduqları Qırğız xanım ondan xahiş edir: "Məndə bir yazı var, ərəblərə göstərdim, oxuya bilmədilər, İranlılara göstərdim, bir şey başa düşmədilər, bir də siz baxın!" Əlbəttə, Özer Ağabəy deyir.

Hər anlatdığında hələ də çox həyəcanlanır: "Qadının gətirdiyi yazıya baxanda gördüm ki, altında Əbdülhəmid Xanın möhürü var. Qadının gətirdiyi bir tarixi əsər idi, bir padşah fərmanıydı. Həm də Anadolu ilə Tanrı dağlarını bir-birinə bağlayan bir fərman idi". "Ailə mirasıdır" qadın demişdi.

Sənəddə Qırğız bəylərindən Şaduman Batır mədh edildikdən sonra "həccə gedərkən bütün Osmanlı torpaqlarında səyahətinin rahatlıq içində keçməsinin təmin edilməsi" əmr edilirdi. Qırğızların qısaldaraq "Şadman Batur" dedikləri Şaduman Batır, həccə gedərkən İstanbula baş çəkmiş, çoxlu hədiyyələr vermiş, cənnətməkan Əbdülhəmid Xanın hüzurunda olmuş və bu fərman ona verilmişdi.

Qadın Şaduman Batır üçün "Mənim böyük babam" deyirdi.

Özər Ağabəyin ağlına "Asiyada beş Türk" kitabındakı Hüsaməddin gəlir. Qırğız xanım Şaduman Batırın nəvəsi Hüsaməddin üçün "Babam" deyir. Qarşısında oturan bu xanım Türkiyənin Mahsusa Təşkilatından beş gənc Türk zabitinin də qatıldığı, Qırğızların ən böyük istiqlal hərəkatını sərvətinin son qəpiyinə qədər dəstəkləyən Hüsaməddinin qızıdır.

Bu günlərdə Özər Ağabəyi ən çox həyəcanlandıran mövzu Anadolu və Tanrı dağları arasında gedib-gələn bu böyük ailənin kitabını yazmaqdır. "İşlərdən fürsət tapa bilmirəm" deyə heyfsilənir.

Saçlar ağararkən ürək necə gənc qalır?! Bunu hamı səndən öyrənməlidir, Ağabəy!.

YAŞAYAN DƏDƏ QORQUD

Rəhmanqul Berdibay Türkistan deyilincə mütləq anladılması lazım olan şəxsiyyətlərdən birisi və ən əsasıdır. Onun adı olmadan Türkistanın şəhərinin mədəni həyatının bir tərəfi əskik olacaqdır. Rəhmankul Berdibay, "elim, yurdum deyib, xalqım deyib" gecə-gündüz yatmayan ziyalılardandır. Qazax xalqının mədəniyyətinə hakim, Türk Dünyasının hər küncünü ovcunun içi kimi bilən bir alimdir. Bilmək hər zaman kifayət deyil. Bu bilgi ilə əməl edib gəncləri Türklüyə istiqamətləndirməyə səy göstərən, Türkün tarixini, mədəniyyətini sevdirən bir "ağsaqqal"dır. Tanıyanlar ona "zəmanəmizin Dədə Qorqudu" deyirlər.

Qoca Qorqud "Qazaxı axtarırsan, kənarda deyil, dombıranın qolunda ara" deyir. Qazax özünün xalq musiqisi aləti olan dombıraya hopmuşdur. Qazaxın ruhunu, mədəniyyətini, dərdlərini, sevincini, hər şeyini bu pərdələrin arasında tapmaq mümkündür. Təbii ki, əgər görməyi, duymağı bacarırsanız.

Bir axşam onun əlində heyrət doğuracaq qədər dəyişən, adətən danışan dombıranı dinləyərkən elektrik kəsildi. Bu gözlənilməz hadisəni böyük bir talehsizlik kimi dəyərləndirən bizlər "Heç yeriydimi?" deyərkən o, "üzülməyin" dedi və zil qaranlıqda əlini təkrar dombıranın qolunda gəzdirməyə başladı. Qaranlığın içindən gələn dombıranın səsi sanki əvvəlkidən daha fərqliydi. Yaşayan Dədə Qorqud bizləri qaranlığın içindən Qazax tarixinə doğru apardı. "Bu Koroğlunun nərəsi, bu səslər Dövlət Girayın əsgərlərdən qaçışı, indi başlayan Qazaxın köçü... Qazaxı onunla tanımaq, Qazaxı ondan dinləmək ayrı bir gözəllikdir. Çünki o yalnız Qazax xalq ədəbiyyatı professoru deyil, eyni zamanda qəzetçi, ədəbiyyat tənqidçisidir. Son yarım əsrlik Qazax ədəbiyyatında elə bir ədəbi əsər yoxdur ki, onun qələmindən tənqid almamış olsun. Bir tarix-etnoqrafiya kitabı yoxdur ki, səhifələrinin arasına Qorqudun göz nuru enməmiş olsun. Və son əlli ildə yetişən heç bir Qazax ziyalısı yoxdur ki, Berdibayın yazdığı bir kitabı, bir məqaləni oxumamış olsun.

O ziyalılarla mübahisəlidir. Öz tarixini, mədəniyyətini tanımayan ziyalıları "gözübağlılar" adlandırır. "Onların gözləri, öz millətlərinin

dəyərlərini görmür. Mədəniyyət imperializminin hazırladığı bu manqurtlar yalnız Qazaxın gözübağlıları deyil, bütün Türk Dünyasında bunlardan vardır" deyir. Gözləri bağlı olanların gözünü açmaq üçün Berdibay yeni - "Baykaldan Balkana" isimli kitab nəşr etdirdi.

Əsərin mövzusu Türk Dünyası, Türk xalqlarının ortaq ədəbi mirası, ortaq taleyi və Türk birliyi ideyasıdır. İki hissədən ibarət olan kitabın birinci hissəsində Saxa, Altay, Uyğur, Xakas, Tuva, Özbək, Tatar, Türkmən... bütün türk xalqları tarixi etnoqrafik və ədəbi mənzərələrlə doludur. Bu xalqların çətin taleləri mədəniyyət və ədəbiyyatları tanıtdırılır. İkinci hissədə Türk xalqlarının gələcəkləri müzakirə edilir və Türk Birliyi olmadan heç birinin ayaqda durmayacağı vurğulanır. Onun sətirlərini oxuyarkən Türklük sevgisi sətirlərdən çıxaraq sizi də bürüyür. "Bayrağı enməmiş, istiqlalı sönməmiş, yıxılmayan, yıxıla bilməyən Türkiyə" deyərək Türkiyə Türklüyünü anladan sətirlərdəki həyəcanı hiss edərək siz də coşursunuz.

Kitab Türkiyə türkcəsinə də çevrilərək "Biliq" Nəşrlər Evində işıq üzü gördü.

Rahmankul Ağamızın qazaxcanı istifadə etməkdəki hünəri və qazaxcaya bağlılığı son dərəcə yüksəkdir. Qorqudumuz Amerikaya bir konfransa dəvət edilmişdir. O illərdə Amerikada doktorluq təhsili alan dostum Orxan Söyləməz Rəhmankul Berdibayın gələcəyini öyrənincə könüllü olaraq onu qarşılamaq vəzifəsini üzərinə götürmüşdür. Orxan nəql edir: "Xocanı təyyarə limanında qarşıladım, birlikdə konfrans keçirilən şəhərə gəlirdik. Söhbət edərkən Qazax dilini yaxşı bilmədiyimdən, ingilis dilində sözlər işlətmək məcburiyyətində qalırdım. Yanımda rus dilində lüğət də götürmüşdüm, ingilis dilində dərdimi anlada bilməyincə lüğətə baxıb sözləri rusca deyirdim. Anlayırmış kimi özünü göstərir, ancaq davamlı qazaxca danışırdı. İki-üç gün söhbət bu formada davam etdi. Anladım ki, Xoca nə rusca, nə də ingiliscə bilmir. Daha sonra konfransda amerikalılarla bir az ingilis dilində, ancaq Rusiyadan gələnlərlə çox gözəl rus dilində danışdığını görüncə anladım ki, "Qorqud Dədəmiz mənimlə qəsdən bu şəkildə öz dilimizdə ünsiyyət qurmağa cəhd edirmiş".

Hadisəni özünə danışdığım zaman güldü. "Biz, birimiz Qazax, birimiz Anadolu Türkü olsaq da, dilimiz birdir. Dünən bu dillə

danışaraq, Türk Dünyasının hər tərəfini rahatca gəzmək mümkün idi. Bu gün bir az bir-birindən fərqlənmişdir, ancaq bir az cəhd etsək təkrar rahatca bir-birimizi anlaya bilərik. Biz cəhd etməsək, kim cəhd edəcək?".

Altmış altı yaşındakı gənc, Türkiyə türkcəsini öyrənmək üçün hələ də cəhd edir.

Türklüyün də səndən öyrənəcəyi çox şey vardır, Qorqud Dədə!

TÜRKİSTAN ŞƏHƏRİNİN ƏN YADDAQALAN XATİRƏSİ

Türkistan şəhərindən danışarkən burada öz həyatım üçün çox mühüm iki hadisəni qısa da olsa nəql etməliyəm. Yoxsa özümə və sevdiklərimə haqsızlıq edərəm. Bunlardan birincisi, Türk Dünyası idealı arxasınca qaçarkən gecikən evliliyimin ilk illərinin bu tarixi şəhərdə keçmiş olması və digəri isə bircə qızım Özgənin Türkistan şəhərində dünyaya göz açmasıdır.

Toyumuzdan bir həftə sonra, həyat yoldaşımla bərabər Türkistana gəlmiş və bir toy da Qazax adətlərinə görə burada etmişdik. Universitetdən müəllimlərin, tələbələrin və texniki işçilərin qatıldığı bu mərasim çox gözəl keçmişdi.

Mənimlə birlikdə böyük bir həyəcan və sevgiylə Türkistanın məhrumiyyətlərinə də qatlanmağı gözə alan həyat yoldaşım işində də eyni həyəcanı davam etdirirdi. Ona verilən vəzifə Universitetdə açılan xalq təhsil kursu çərçivəsində tələbələrə Türkiyə türkcəsi öyrətməkdi. Həyat yoldaşım əsil təhsilliləri, xalı toxumaq, biçmək-tikmək, bərbərlik kimi sənətlər öyrənən tələbələrə dərs saatlarının az olmasına baxmayaraq, qısa müddət ərzində çox yaxşı dərəcədə Türkiyə türkcəsini öyrətməyi bacarmışdı. Hətta tələbələr türkcə biliklərini ilin sonunda bir teatr tamaşasını səhnədə göstərəcək qədər irəliyə getmişdilər. Ali Akbaş Ağabəyin yazdığı əsərin səhnələşdirilməsi hamını çaşdırmışdı. Bu müvəffəqiyyətdən 15 gün sonra arzumuzun əksinə Universitetdən ayrılmağımıza qərar verilmişdi. Lakin bu hadisə hələ də içimizi isidərək xatırladığımız bir müvəffəqiyyətdir.

Lakin Türkistanın bizdəki ən böyük və Allah ömür verdikcə əsirgəməyəcək xatirəsi qızım Özgə Züleyxanın dünyaya gəlməsidir. Türklüyün ilk beşiklərindən, Türk mədəniyyətinin mənəvi memarlarından Yesəvi Babanın əbədi məkanı ideallarımızın simvolu olacaq qədər böyük Türkistan şəhərinin adının şəxsiyyət vəsiqəsində doğum yeri olaraq yazılması bizdə qalan ən böyük xatirədir. Bizlər bundan çox böyük xoşbəxtlik hiss edirik. İnanırıq ki, Özgə də bu xatirə ilə qürur duyacaq tərzdə formalaşacaqdır.

2000-Cİ İİİN OKTYABRINDA TÜRKİSTANIN TOYUDUR

Türkistan şəhəri 2000-ci ildə 1500 illik yubileyini qeyd edəcək. UNESKO tərəfindən yaranmasının 1500 il olduğu elan edilən Türkistan şəhərində məskunlaşma tarixi haqqında isə müzakirələr hələ də davam edir. Son arxeoloji tədqiqatlarda, Türkistan şəhərinin yaranma tarixinin 2200 il olduğu iddiası ortaya atıldı. Türkiyə və Qazaxıstanın birgə Universiteti olan Əhməd Yesəvi Universitetində aparılan tədqiqatlara görə Türkistanın tarixini daha da qədimə aparan arxeoloji qalıqların tapıla bilinəcəyi ehtimalı var. Tədqiqatçılar, bütün enerji və imkanları ilə çalışırlar, lakin UNESKO bu tarixi 1500 il elan etdiyindən, gələn il Türkistan şəhərinin 1500 illik yubileyi qeyd olunacaqdır.

Oğuz Xanın paytaxtı Piri Türkistan, Xoca Əhməd Yesəvinin istirahət etdiyi yer və Türk Dünyasının mənəvi mərkəzi Türkistan şəhərində 1500 illik yubiley həyəcanı hər kəsi bürümüşdür. Şəhər əhalisi Türkistanın 1500 illik yubileyinə hazırlaşır. Hətta yalnız Türkistan şəhəri deyil, bütün Qazaxıstan Türkistanın bayramına hazırlaşır. Türkistanın 1500 illik yubileyi ilə bağlı yaradılan Hazırlıq Komitəsinə Qazaxıstanın baş naziri rəhbərlik edir.

Türkistan toya hazırlaşır.

Ötən günlərdə Türkistanda bir toplantı keçirildi. Bu toplantının digər toplantılardan, digər hazırlıq tədbirlərindən fərqi Qazaxıstanın bütün şəhərlərindən nümayəndələrin buraya qatılması idi. Sanki Bayandır Xan çadır qurmuş və boy bəylərini bir yerə toplamışdı. Hər şəhərin təmsilçi Türkistanın 1500 illik toyunda necə iştirak edəcəyindən danışdı.

Türkistan xoşbəxt idi. Biz də xoşbəxt idik. Ancaq toplantını seyr edərkən bunu düşündük: Türk Dünyasının mənəvi mərkəzi Türkistan şəhərinin yubiley tədbirinə qatqılar, kaş ki, bütün Türk Dünyasından olaydı; bu toplantı yalnız Qazaxıstanın şəhərlərindən gələn təmsilçilər arasında deyil, bütün Türk dövlətlərinin təmsilçiləri arasında keçirilə bilsəydi...

Bu zaman Türkistan valisi Ömürzak Əhmədoğlunun açıqlamaları bizi sevindirdi. Əsl Qazax ziyalısı olan Əhmədoğlu, “Bizlər ev sahibləri olaraq hazırlıq görürük, ancaq bu toy yalnız Qazaxıstanın deyil, bütün

Türk Dünyasının toyudur. Türkistanın toyuna Türk Dünyasının hər yerindən iş adamlarını və ayrı-ayrı şəxsləri dəvət etdik. Bu çağırışımızın Türk Dünyasının hər yerində əks-səda verəcəyini düşünürük. Biz Türkistan şəhərinin əhalisi olaraq onun toyunda bütün Türk Dünyasından təmsilçiləri aramızda görmək istəyirik".

Türk aləminin yenidən qovuşduğu və qucaqlaşdığı günümüzdə bu birliyin artaraq davam etməsi üçün ortaq dəyərlərimizi bərabər yüksəltməyə ehtiyacımız var. Türkistan şəhərinin 1500 illik yubileyi bu istiqamətdə böyük bir fürsətdir. Türk Dünyası Türkistana sahib çıxmalı və bu toya hər kəs öz qatqısını etməlidir.

Dünən könülləri birləşdirən mesajlar, bu mübarək şəhərdən yüksəldi. Özü ayət olan, özü hədis olan hikmətlər şeir olub Yesəvi Həzrətlərinin dodaqlarından töküldü.

Hikmətlər Hacı Bektaş oldu, Geyikli Baba oldu, Taptuk oldu, Yunus oldu, dalğa-dalğa bütün Türk Dünyasına yayıldı.

Söz oldu, dil oldu, türkçə oldu.

Anamızın ağ südü kimi təmiz türkçəmiz, ulların əlində, dilində ucaldı, qorundu.

Türkistana sahib çıxmaq, "Türkəm" deyənlərə bir borcdur.

Türkistana sahib çıxmaq, "Türk Dünyası yaxınlaşmalı, qaynayıb-qarışmalı" deyənlər üçün bir vəzifədi.

Türkistan uğuruna malı olanlar malından keçməlidirlər;

Dili olanlar, bu il Türkistanın toyunda danışmalıdırlar;

Qələmi olanlar bunu yazmalıdırlar;

İmkanı olanlar gəlib bu toyda iştirak etməlidirlər;

Bunu da etməyənlər, Türkistanın toyunun qeyd ediləcəyi 2000-ci ilin oktyabrında, evində Divani Hikmətdən Yəsəvi şeirləri oxuyaraq könüllərindən Türkistana bir salam yollamalıdırlar.

2000-ci ilin oktyabr ayı Türkistan şəhəri Türk Dünyasının hər yerindən insanların görüşdüyü gün olmalıdır.

Türkistan yenidən Türklüyü birləşdirən nöqtə olmalıdır.

Qeyd: Bu yazı 2000-ci ilin aprel ayında qələmə alınmışdır.

YESƏVİ TÜRBƏSİNDƏ FƏRQANƏLİ ÖZBƏK ANA

Türkistanda dini həyatın böyük təntənə ilə bayram edilən günləri qəndillərdir və xüsusilə Mövlud Qəndilidir. Bu gecəyə digər qəndillərdən daha çox önəm verilir. Bu vəziyyəti yalnız Türkistan şəhərində deyil, Ulu Türkistanın hər yerində müşahidə etmək mümkündür.

Məsələn, Özbəkistanın müxtəlif yerlərində yaşayan Nəqşibəndi sufiləri bu qəndildə Əhməd Yesəvini ziyarətə və Türkistan şəhərinə 3-4 km məsafədəki Ökeş Ata Türbəsində zikir etməyə gəlirlər. Qəndil gecəsindən əvvəlki gün Yesəvi Türbəsində Fərqanə, Səmərqənd, Buxara kimi, Özbəkistanın hər yerindən insanlar və əlbəttə ki, Qazaxların axın-axın ziyarətə gəldiklərini görmək mümkündür.

Xoş bir təsadüflə yenə belə bir gündə Türkiyədən dostum və Xocam prof. Hüseyn Karadağ Türkistana gəlmişdi. Daha sonra dəfələrlə gələcək olan Xocanın bu ilk gəlişiydi və təbii olaraq Yesəvi Türbəsini görmək istəyirdi. Türbəyə girdiyimiz zaman qiyafətlərindən Özbək olduqları bilinən kişili-qadınlı bir qrup da ziyarətə gəlmişdi. Hüseyn Xoca aralarından yaşlı bir xanımı mənə göstərərək "bu qadın bibimə nə qədər çox bənzəyir" dedi. Onların oxşarlığına çox heyrət etdiyi bəlliydi və biz Türbəni gəzərkən Xocanın göz ucu bu oxşarlığa diqqət etdiyini müşahidə edirdim.

Onlar ayrı, biz ayrı gəzərkən muzey adlanan kiçik bir salona birlikdə girdik və o andan etibarən biz də qrup üzvlərinin arasına qarışdıq. Bayaqdan gözlədiyim fürsəti tapdığımı düşünərək söhbətə başladıq: Özbəkistandan - Fərqanədən gəlirdilər. Mövlud Qəndili səbəbiylə ziyarət edib Ökeş Ata Türbəsinə keçəcəkdilər. Biz də özümüzü təqdim etdik. Bu arada mən bir yol tapıb qadına və qrupa "bizlərin eyni millətdən olduğumuzu, hamımızın Türk olduğunu, dilimizin, dinimizin, tariximizin eyni olduğunu" anladan bir zəmin üçün, Xocanın bibisini xatırladan bu qadının fiziki bənzərliyindən dolayı, çox yaxşı bir fürsət əldə etdiyimi düşünərək Özbək Anaya dönüb:

-Xoca sizin Türkiyədəki bibisinə çox oxşadığınızı söyləyir. Sizi görüncə bibisini görmüş kimi oldu, dedim.

Doğrusu, heyrət dolu üz hərəkətləri və sözlər gözləyirdim. Bax, bundan sonra mənim üçün Türklüyün ortaq tarixi və dolayısıyla ortaq gələcəyi olmasının zəruriliyi ilə bağlı nitqim üçün tam bir zəmin əldə etmiş olacaqdım. Lakin gözlədiyim heyrət duyğularını və çaşqınlığı yarada bilməmişdim. Hətta "burda təəccüblü nə var, övladım" - deyə Özbək Ana bir ifadə ilə üzümə baxmışdı.

-Gənclər, özündən çox razı bir ədayla dedi. Siz köhnə kitablara baxın. Buraxın bu yeni yazılanları. Oxşaya bilərik, təbii ki. Nə olub ki? Hamımız Türkük. Biz də Türkük. Siz köhnə kitablara baxın və onları oxuyun.

Sözlərini bir yandan Hüseyn Xocaya tərcümə edir, bir yandan da sevinc və heyrət duyğuları içində özümü güclə saxlayırdım. Duruşundakı ciddiyyət bu qədər yüksək olmasaydı və mən utanmasaydım, boynuna sarılardım.

BASLIK BOLAMIN

Baş olmaq istəyi, yəqin ki, Türk mədəniyyətinin insanları hərəkətə gətirən ən təməl prinsiplərindən biridir. Bu istək Türk sosial həyatının da bəzən çox qurucu, bəzən də ən dağıdıcı ünsürlərindən biri halına gəlir. Bu tutqunun tarixini Anadoluda da "baş ol da, soğan başı ol" deyimiylə anladırlar.

Türkistana gəldiyim ilk günlərdə bu istəklə qarşılaşmağım məni həm çaşdırmış, həm də düşündürmüşdü.

Kiçik bir piştaxtanın üstündə başında siqaret, biskvit kimi kiçik şeylər satan 10-11 yaşlarında Qazax uşağı ilə, alış-veriş edərkən ürəyimdən zarafatlaşmaq keçmişdi.

-Böyüyəndə nə olacaqsan?-deyə soruşdum.

Uşaq bir az düşündü və:

-Başlık bolamın (baş polis, məmur) dedi.

Bu heç gözləmədiyim cavab çox xoşuma gəlmişdi. Bax, bu millətin ən böyük dəyəri də budur, öz-özümə dedim. Gülmək istəyimin üzümdə bilinməməsi üçün də üz-gözümə zorla hakim oldum.

-Çox gözəl, ancaq müəllim, həkim, mühəndis kimi bir sənət sahibi ol, sonra yenə "baslık" olarsan dedim.

Başını bir az yana çevirib gözlərini boşluğa dikərək bir müddət düşündü. Hər halda fikrimi ciddiyə almadığı üçün qərar verməsi çox uzun çəkmədi.

-Baslık bolamın, deyərək təkrarladı. Bunu söyləyərkən göz qırpma hərəkətiylə birlikdə çıxardığı "çık" səsi isə qərarından əmin olduğunun işarəsiydi.

Rəhmətlik Osman Turan Xocanın "Türklər dünyanı idarə etmək üçün gəlmişlər" fikrinə haqq verməmək mümkün deyil...

Bu millətin hamısı birdən idarəedici olmaq istəyir. Hətta deyəsən məslək sahibi olmanı belə idarəçi olmalarını asanlaşdıran vasitə hesab edirlər.

BİZNİQ ULUQ TÜRKİSTAN BAR

Türkistan coğrafiyasında nə zaman, hansı şüurlu insanlarla qarşılaşacağımızı təxmin etmək çətindir. Bu torpaqlarda edilən səyahətlər kimi, insanlar da adətən gözlənilməz hadisələrlə doludurlar. Buralarda bir yolçuluğa çıxarkən heç bir şeyin gözlənilən və planladığınız kimi getməyəcəyinə başdan hazır olmalısınız. Səyahətin uğurlu keçməsinin bəlkə ilk on şərti yəqin ki, budur. Tanış olduğunuz insanlar haqqında qabacadan fikir yürütməməlisiniz. Onlar da səyahətlər kimi sürprizlərlə sizləri çaşdıra bilərlər.

Bir gün şirniyyat mağazasında oturub qəhvə içirdim. Demək olar ki, hər gün eyni vaxtda baş çəkdiyimiz bu məkanda ofisiantlar soruşmadan qəhvəmi gətirirdilər. Gözəl bir bahar günündə, divarın dibindəki masamda gündən və günəşdən zövq almağa çalışarkən, birdən tanımadığım iki nəfərin mənə yaxınlaşdıqlarını hiss etdim.

"Oturmaq olarmı?" deyə soruşdular. Doğrusu, çaşqın və bir az da dilxor idim. Digər masaların çoxu boş idi. Niyə mənim əyləşdiyim masaya oturmaq istəyirdilər ki? Olmaz demək nəzakətsizlik olardı, məcburən "buyurun" dedim. Oturdular.

Onlar mənim Türkiyəli olduğumu bilirdilər. Bunu təxmin etmək çox çətin deyildi. O zamanlar üst dodağımın üstündə qalın və qapqara bığlarım özünü o dəqiqə tanıtdırırdı. Onlar da özlərini təqdim etdilər: Biri Özbək, digəri isə Qazax idi.

Bu məcburi qonaqpərvərliyimə etiraz olaraqmı, yoxsa səhra adamlarının, pəhləvanların qarşısındakını yoxlayaraq başlayan söhbət ənənəsindəndirmi, bilmirəm Özbək:

-Əmir Teymur mənim atamdır, deyərək sözə başladı. Bir Özbək belə başlayarsa söhbətin necə gedəcəyi də məlumdur. Bu oyuna düşməmək üçün:

-Əmir Teymur mənim də atamdır dedim.

Etmək istədiyi tikanlamağı anlamadığımı düşünərək "damarıma" basmaq istəyirdi:

-Əmir Teymur Anadoluya gedərək Bəyazidi məğlub etdi, dedi və arxasına söykəndi.

Çox sakit bir tərzdə:

Doğrudur, dedim. Əmir Teymur Bəyazidi Ankarada məğlub etmişdi. Bəyazid mənim atamdırsa da, ancaq Əmir Teymur da həmçinin atamdır. Tarixdə belə şeylər olmuşdur.

O ana qədər söhbətə heç qarışmayan Qazax:

- Dayanın görüm. Özbəkə dönüb "Əmir Teymur sənin atan isə, o zaman siz bir-birinizin nəyi olursunuz?"

- Məndən soruşma dedim, ondan soruş.

Özbək bir az dayandı, taktikası alınmamışdı. Bu dəfə başqa bir yol sınamağa başladı.

- Bizim Ulu Türkistanımız var (Biznig Ulug Türkistan bar)

Bax, bu söz məni canlandırmışdı. Yetmiş il boyunca Ulu Türkistan sözünü ağzına alanların turançılıq, pantürkizm iddialarıyla başlarına gəlməyənin qalmadığı bir ərazidə, heç gözləmədiyim bir anda bir adam masama oturur və Ulu Türkistandan bəhs edir. Necə həyəcanlanmaya bilərdim?... Lakin üzümdəki ciddiyyəti dəyişməməyə çalışaraq:

-Ulu Türkistanı bilirəm, dedim.

Özbək dostum mənim Ulu Türkistandan xəbərdar ola biləcəyimi heç ehtimal etmirdi. Öyrətmək istəyən bir tərzdə:

-Türkistan, bir şəhər demək deyil. O çox böyükdür. Ulu Türkistan bugünkü Qazaxıstan, Özbəkistan və Türkmənistanın hamısı deməkdir. Hətta Tacikistanı belə saymaq olar.

Artıq bu gözlənilməz qonaqlardan həddindən artıq məmnundum. İndi artıq növbə mənimdi:

-Yaxşı, dedim. İndi sən cavab ver. Türkistan nə deməkdir?

O hələ də mənə Ulu Türkistanı başa salmaq dərdində idi. "Bir zamanlar" deyirdi "bu yerlər bir dövlət idi. Sonra Stalin biz güclü olmayaq deyə böldü, müxtəlif dövlətlər yaratdı".

Məni tanıyanların asanca təxmin edə biləcəkləri kimi, bir Türkistanlıdan bu sözləri duymaqla məst olmuşdum. Amma yenə də bu halımı bəlli etməməyə çalışırdım.

- Yaxşı dedim, bu söylədiklərinin heç birinə etirazım yoxdur, amma sən söylə, Türkistan nə deməkdir?

Bu suala cavab vermək istəmirdi, mənim sualımı eşitməmiş kimi:

- Əmir Teymur da "Biz ki Əmür-ül Türkistanız, Biz ki Turanın başbuğuyuz" demişdir. Ulu Türkistan çox böyük bir ölkədir.

Səbir kasam daşırdı. Ayağa qalxıb bu adamı öpmək istəyirdim, ancaq Bektaşi misali iş bir az inada minmişdi:

-Yaxşı, dedim. Qazaxıstan Qazaxın yurdu demək, Özbəkistan Özbəkin Vətəni deməkdir. Bəs Ulu Türkistanın mənası nədir?

Sual çox aydın verilmişdi. Yenə də o ana qədər sözə heç qatılmayan Qazax araya girdi:

-Məsələ aydın oldu, ağa (ağabəy) dedi. Bu Özbəyin inadı tutdu. Sən bizə bir-bir yüz qram söylə, o hər söylədiyinə razı olar.

"Yüz qram" bu yerlərdə jarqon ifadə sayılır və araq anlamına gəlir. Amma bu sürpriz deyildi, çünki bir çox söhbətin sonu bu yerlərdə "yüz qrama" gəlib çıxa bilirdi. Bu xoş söhbətin də cəriməsi yüz qram olsun, nə edək? Ofisiantı çağırıb qonaqlarıma "nə istədiklərini soruşmasını" söylədim.

QAZAXLARIN İSTİQLAL ARZUSU

Qazax tarixini bilməyənlər bu qardaşlarımızın rus hakimiyyətini qəbul edəndən sonra sadiq təbəə olaraq Çar Rusiyasına və sovetlərə vətəndaşlıq etdiklərini zənn edə bilərlər. Halbuki əslində həqiqət heç də belə deyil və Türkistanı anlamaq üçün ümumi vəziyyəti bilmək çox vacibdir.

Qazax Türklərinin istiqlal hərəkatları Ebulhayır Xanın 1731-ci ildə, Rusiyanın himayəsini qəbul etməsindən sonra başlayır və davam edir. Qazaxlar rus imperializminə ilk etirazlarını məşhur Puqaçov üsyanına köməklik edərək göstərdilər. Gənclər rus qalalarına basqınlar təşkil etdilər. Tatar, Çuvaş, Başqırd və Kalmık kimi başqa xalqların da qatıldığı bu üsyana Qazaxlar 1773-cü ildə dəstək verdilər. Rusların Xəzər dənizi ətrafındakı Qazax torpaqlarını xüsusi mülkiyyət adı altında xalqın əlindən almağa başlamaları və qalalar inşa etmələri üsyanın güclənməsini təmin edirdi. Dosqali və Şergazi Sultanların liderliyi altında hərəkat 1775-ci ilə qədər davam etdi. Təəssüf ki, bu hərəkat nəticəsiz qaldı və tarixə Qazaxların ilk istiqlal mübarizəsi olaraq yazıldı.

Puqaçov üsyanının yatızdırılmasından on il ötəndən sonra döyüşlərdə böyük xidmət göstərmiş və xalq içində geniş şöhrət qazanmış Sırım Datoğlunun liderliyi ilə istiqlal hərəkatı başladı. 1785-ci ildə başlayan bu hərəkat qısa müddət ərzində 6000 əsgərə sahib oldu. Bir il ərzində o, Rusiyaya bağlı olan Nurqali Xanın nüfuzunu yetərincə zəiflətdi. İstiqlal mücahidləri gah rus qalalarına basqınlar edir, gah da ruslarla işbirliyi edən bəyləri öldürürdülər.

Çar Yekaterina fərman verib Nurqali xanın əvəzinə 1790-cı ildə Erali Sultanı xan təyin etdi. Dörd il xanlıq edən Erali da Datoğlu hərəkatının qarşısını ala bilmədi və 1794-cü ildə öldü. Onun yerinə ruslar Esim adlı bir nəfəri taxta çıxartdılar. Esim var gücüylə Sırım Datoğlunun üzərinə hücuma keçdi, lakin nəticə əldə edə bilmədi. 1796-cı ildə bütün Qazaxıstanı yandırıb yaxan qıtlığı xalq "xanın uğursuzluğuna yozdu" və Esim Xanın malikanəsinə hücum edib onu öldürdülər.

Sırım Datoğlu hərəkatının on ikinci ilində ruslar hərbi güclə üsyanı yatıra bilməyəcəklərini anlayıb hiyləyə əl atdılar. Qazax

adətincə xan boy bəylərinin qurultayında seçilirdi. Bu qurultaya Qazaxlar, "Xan seçmə qurultayı" deyərdilər. Rusiya satın aldığı boy bəylərinin üstünlük təşkil etdiyi xan qurultayı çağırdı. Qurultaya Sırım Datoğlu da dəvət edildi. Adətə uyğun olaraq bu qurultayda iştirak edən Datoğlunu mübarizəni dayandırmağa inandırdılar. Beləliklə, on iki il sonra 1797-ci ilin avqustunda bu istiqlal hərəkatı də dayandırılmış oldu. Qurultaydan beş il sonra, 1802-ci ildə Hivədən dönərkən vəfat edən Datoğlunun qəbri, xalq tərəfindən ziyarətgaha çevrildi. İnsanlar xalqın övliya dərəcəsinə yüksəltdiyi bu istiqlal qəhrəmanının qəbrinin şəfa verdiyinə inanırdılar.

Datoğlu hərəkatından sonra Qazaxlar, bu dəfə də İsatayın liderliyi ilə yeni bir mübarizəyə başladılar. 1835-38-ci illərdə, üç il davam edən hərəkat sürətlə yayıldı. İstiqlal mücahidləri 15 oktyabr 1836-cı ildə Terek şəhərini rusların əlindən alaraq paytaxt elan etdilər. Buradan müqəvva xanın mərkəzinə hərəkət etdilər. Məqsədləri müqəvva xanı taxtından endirib müstəqil bir dövlət qurmaq idi. Xanın paytaxtı Jaskusta dörd kilometr qalmış Xan İsataydan möhlət istədi. Qardaş qanı tökülməməsi üçün buna razı olan İsatay rus qüvvələri tərəfindən aldadıldığını əvvəlcədən hiss etməmişdi. Aldadıldığını anlayan İsatay Jamankuma tərəf çəkildi. Burada təkrar güc toplayan İsatay 1838-ci ildə Ağbulaq ətrafında rus əsgərləri ilə qarşılaşdığı döyüşdə şəhid oldu. İsatayın əsgərləri Kenesarı Xanın liderliyi ilə başlayan hərəkata qoşuldular. Kenesarı Xan Orta Cüzün xanı Abılay Xanın nəvəsi idi və 1802-ci ildə dünyaya göz açmışdı. Kenesarı hələ 35 yaşında ikən Aktav ətrafında rus qoşunlarıyla qarşılaşdığı döyüşdə rus ordusuna qalib gəldi və çoxlu miqdarda silah-sursat ələ keçirdi.

1838-ci ilin 26 aprelində Akmola qalasını mühasirəyə alan Kenesarı onu fəth etdi. Daha sonra Akmoladan Torqaya qədər olan bölgəni özünə tabe etdirərək cənuba tərəf yola çıxdı. Ruslarla işbirliyi edən boy bəylərini həbs etdi və cəzalandırdı. Cənubda Buxara Əmirliyi ilə dostcasına münasibətlər yaradan Kenesarı Çinlə də diplomatik münasibətlər qurdu. Kenesarı Xan özünü bütün Qazaxların xanı elan etdi. Xalq arasındakı etibarı hər gün bir az da artırdı. Nizamlı ordu və kəşfiyyat təşkilatı da yaratmışdı. O, 1841-45-ci illərdə bütün Qazaxıstanı idarə edirdi. Ruslarla apardığı müharibələrdə yalnız qələbə çalırdı. 1844-cü ildə rusların böyük güclə hücum etdikləri zaman da Kenesarı Xan böyük bir zəfər qazandı. Bu müharibədən sonra xarici

nüfuzu da yüksələn Kensarı xana Hivə xanı və Buxara Əmirlərindən də hərbi yardımlar gəlirdi, lakin Hokant xanı ilə problemlər hələ də həll edilməmişdi.

1845-ci il Hokant Xanına qarşı hərəkət edən Kenesarı rusların şimaldan Baykal gölü ətrafındakı hücumlarına qəflətən yaxalandı. Mühasirədən qırğızların köməyi ilə xilas ola biləcəyini düşünən Kensarı xan qardaş xalqa müraciət etdi. Halbuki ruslar bunu daha əvvəldən təxmin etdiklərindən qırğız bəylərini "Kenesarının onları Çinə tabe etdirəcəyi" yalanı ilə aldatdılar. Qırğızlardan dəstək almayan Kenesarı ordusu ilə birlikdə rus hücumunun ortasında qaldı. Yüz nəfərlik güclə hücumu yaracağını bilsə də, o, bunu qəbul etməyərək əsgərləri ilə birlikdə şəhid oldu. Kenesarı xandan sonra Qazaxıstan yenidən rusların tabeçiliyinə daxil oldu. Kenesarı xanın şəhid olmasından beş il sonra, Ural gölü ətrafında yeni bir hərəkat başladı. Eset Batırın liderliyi ilə olan bu hərəkat 1850-53-cü illəri əhatə etdi. Eset Batır xanlıq iddiasında deyildi. O, bölgə Qazaxlarını Hivə Xanlığına tabe etdirərək vahid dövlət qurmaq istəyirdi.

Sonrakı illərdə Oral və Torqay vilayətlərində 1869-cu ildə başlayan yeni mübarizənin liderliyini, böyük qəhrəman Sırım Datoğlunun nəvəsi Seyil etdi. Hərəkat 1873-cü ildə rus əsgərləri tərəfindən yatızdırıldı.

Daha sonrakı böyük istiqlal hərəkatı isə 1916-cı ildə başladı. Bu hərəkat bütün Orta Asiyaya yayılmışdı. 1916-cı ildə Qazaxlar səksən min şəhid verdilər. Ancaq "Qazax qəzeti" ətrafında toplanan ziyalılar, xalqın bu hərəkatını zaman nöqteyi-nəzərindən erkən hesab edirdilər. 1910-cu ildən etibarən "Qazax qəzeti" ətrafında toplanan Mustafa Çokay, Magjaan Cumabay, Ahmet Baytursun, Mir Jakıp Devlet, Alihan Bökeyhan kimi ziyalılar, xalqı istiqlal hərəkatına hazırlamağa çalışırdılar. Rusiyada siyasi nüfuzun zəifləməsi ilə "zamanın gəldiyini" düşünərək fəaliyyətə başladılar. 1917-ci ildə Orenburq şəhərində çağırdıqları "Qazax qurultayları" nəticəsində "Alaş Partiyasını" yaratdılar. Partiya qısa müddət sonra Alaş hökumətini formalaşdırdı və əsgər toplamaya başladı. Rusiyadakı qırmızılar və ağlar arasındakı mübarizədən istifadə edərək istiqlala doğru addımlayırdılar. Bir müddət sonra həm qırmızıların, həm də ağların düşməni halına gələn Alaş hərəkatı, bolşeviklərlə yaxınlaşmaq məcburiyyətində qaldı. Sonrakı

illərdə bu hərəkatın üzvləri sistemli şəkildə sürgün və edamlarla şəhid edildilər.

Bu tarixi yaxşı bilən ziyalılar Qazaxıstanın hazırkı müstəqilliyinin fikir təməllərinin o günlərdə atıldığı qənaətindədirlər.

Qazaxların istiqlal tarixinə 1930-31 illərdə Sozak və Aday hərəkatlarını da əlavə etmək lazımdır. Sovetlər dönəmində baş verən bu hərəkatda Aday Boyu xan seçilərək müstəqillik elan etmişdi.

Kiçik üsyanlar və Dükci İşan Hərəkatı kimi Türkistanın başqa bölgələrində başlayan üsyanlara verilən dəstəkləri saymasaq, Qazaxların istiqlal mübarizələri yeddi böyük hərəkat ətrafında cəmlənir.

İstiqlal hərəkatlarının müvəffəqiyyət qazanmamağının və ya Kensarı hərəkatında olduğu kimi əldə olunan uğurların qorunmamağının səbəbləri arasında çox geniş əraziyə yayılan Qazaxların bir yerə yığılmasındakı çətinlik mühüm yer tutur. Digər yandan, cüz adı verilən Qazax qruplarının müxtəlif tarixlərdə müstəqilliklərini itirmələri istiqlal hərəkatlarına kiçik qrupların qatılmasına səbəb olurdu. Hivə Xanlığı və Buxara Əmirliyinin qardaş Qazax xalqının istiqlal mübarizəsini dəstəkləmələri ilə yanaşı, Hokant Xanlığına, şimalda ruslara qarşı aparılan mübarizələr, cənubdan zəiflətmələr də hərəkatın müvəffəqiyyətinə maneçilik törədirdi.

Qazaxıstanın 1991-ci ildəki müstəqilliyinə qədər səkkiz dəfə istiqlal hərəkatına qoşulan Qazaxlar, demək olar ki, hər 25 ildən bir tapdandılar. Rusların tabeçiliyinə daxil olduqdan sonra istiqlal hərəkatlarına qatılmamış, bu hərəkatların yandırdığı atəşi ürəyində duymayan Qazax nəsli yoxdur. Bunu çox gözəl bilən ruslar, planlı şəkildə Qazax əhalisini yox etməyə çalışdılar. İyirminci əsrin əvvəlində Türkistanın əsas xalqı olan Qazaxlar öldürülə-öldürülə azaldılar. Bu qırğınlar bəzən savaşlarda atəşli silahlarla, bəzən atom sınaqları kimi gizli metodlarla həyata keçirildi. Hazırda Qazax əhalisinin qırx faizi radiasiya yüksək olan ekoloji fəlakət zonasında yaşayır.

Bütün bunlara baxmayaraq, Qazaxlar yox olmadılar və istiqlal istəklərini də itirmədilər. 1986-cı ilin dekabr ayındakı hərəkatla Sovetlər Birliyinin təməllərini yenidən sarsıtdılar. Əsrlərdir arxasınca qaçdıqları müstəqilliklərini nəhayət əldə edən Qazaxlar indi onu qorumaq mübarizəsini davam etdirirlər.

QAZAX, GÖRDÜYÜN ƏZAB!

Bu bir Qazax deyimidir. Qazaxlar sıxıntıda olduqları zaman "Bu mənim deyil, soyumun taleyidir" deyib içlərinə çəkirlər və Qazax Türklərinin məruz qaldıqları böyük fəlakətləri xatırlayaraq "Qazax, görüdüyün əzab" deyirlər.

Qazax Türklərinin tarixdə məruz qaldıqları ən böyük fəlakətlərdən biri də 1928-1932-ci illəri əhatə edir. Anadolu türkcəsində bir deyimdir "dünyada ac məzarı yoxdur" deyilir. Xeyr, Qazaxıstanda vardır. Bir deyil, min deyil, milyonlarla ac məzarı vardır. 1928-1932-ci illərdə insanlar da, heyvanlar da aclıqdan öldülər. Bu bir soyqırımdı, həm də soyqırımda ən pis metoddan-aclıqdan istifadə olundu.

Qırmızıların "bərabərləşdirmə" adıyla 1928-ci ildə başladıqları proqram sürətlə həyata keçirilirdi. 1930-cu ildə Qazax xalqının əlindəki malların 50%-i dövlətə verilmişdi. Qırmızılar nə öz imkanlarını hesablayır, nə də xalqı düşünürdülər. "Varlı, kasıb yoxdur, hər şeydə ortağıq" şüarı ilə hərəkət edirdilər. 1929-cu ilin payızında heyvandarlıqla keçinən xalqın əlindəki qoyun, keçi, at, dəvə, nə varsa alınırdı. Qoyacaq yerləri yox idi, verəcək yemləri yox idi, amma onlar xalqın əlindən heyvanları alıb ərazinin ortasına toplamaya davam edirdilər.

Səhranın qışı üstlərini aldığı zaman mal-qara soyuqdan və aclıqdan ölürdü. Qazaxların sıx olduğu Çimkənd, Akməscid, Taraz, Övliya-Ata, Semey bəy kimi vilayətlərdə hər gün minlərlə insan cənazəsi götürülürdü. Hər vilayətdə, hər gün min kişi aclıqdan can verirdi. Onların öz əllərivlə, zəhmətləriylə saxladıqları heyvanlar isə, ərazinin ortasında yemsizlikdən və soyuqdan ölürdü. Kimsə xalqın öz malının, heç deyilsə ölməyəcək qədərinin xalqa geri verilməsi üçün əmr vermirdi. Bu bir vandalizmdi, soyqırımdı.

İnsanlar aclıqdan öldükcə, onlar "bərabərləşdirməyə" davam edirdilər. "Qazaxıstanın qoyunu, keçisi" nəqliyyat imkanları daxilində Rusiyaya doğru daşınırdı. Göndərilə bilməyənlər ərazinin ortasında saxlanılırdı.

Bərabərləşdirilirdi. Bu aclığın və ölümün ortaqlığı idi. Bərabərləşdirmə proqramı davam etdirilirdi. Qazaxıstanda 1928-ci ildə on doqquz milyon qoyundan 1932-ci ilin sonunda bir milyon yarım

qalmışdı. Keçilərin sayı isə yeddi milyon başdan, doqquz yüz əlli minə düşmüşdü. At, dəvə hamısı bərabərdi, onlar da qırılmışdı.

Qazaxlar üsyan etdilər. 1928-1932-ci illərdə Qazaxıstanda 200 müxtəlif üsyan oldu. Coğrafiya çox böyük idi, tapdalananlar güclərini birləşdirməkdə çətinlik çəkirdilər və üstəlik əllərində Qızıl Orduya qarşı mübarizə aparmaq üçün silahları yox idi. Üsyanların ən böyüklərindən biri Cənubi Qazaxıstanda Sozak şəhərində başladı. Ayrıca, Sozak etirazı üsyanların ən yaxşı təşkil olunanı idi. 1929-cu ildə noyabr ayında üsyanın hazırlıqlarına başlanmışdı. Üsyanın liderliyini Səfər Əli İbrahim edirdi və Alma-ata, Çimkənd, Jambıl, hər yerdən qatılanlar olurdu. 7 yanvar 1930-cu ildə sayıları 400-ə çatmışdı və üsyan başladı.

Bərabərləşdirmə planını həyata keçirənlər, idarəedicilər öldürülürdü. Ətraf ərazilərdən Sozaka qoşulmağa başladı. Üsyan yatızdırıla bilmirdi, etiraz edənlərin sayı sürətlə artırdı. Altı ay içərisində üsyana qatılanların sayı səksən minə çatmışdı.

Dövrünün modern silahları ilə təchiz olunmuş Qızıl Orduya qarşı qılıncla, baltayla döyüşürdülər. Ən yaxşı halda əllərində ev tüfəngləri vardı. Bir digər böyük üsyan da Qərbi Qazaxıstanda başladı. Aday boyu kütlə üsyan edib müstəqillik elan etdi.

Qızıl ordu xalqla sakitliyi təmin etməyə deyil, aclıq ilə öldürə bilmədiyini silahla öldürməyə gəlirdi. Adayların üsyanını yatızdırmağa gedən general "Son Adayın kəllə sümüyünü Moskva muzeyində görmədən, könlüm rahat olmaz" deyirdi.

Bir yandan aclıq, bir yandan silahsızlıq... Qızıl Orduya qarşı davam gətirmək çətin idi. 6 fevral 1931-ci ildə üsyanlar qanlı bir şəkildə yatızdırıldı. Bəzi üsyançı Qazaxlar Moyınkum çölünə doğru qaçdılar. Bir quşun belə uçmadığı bu geniş boşluqda Robinson Cruzo həyatını üstün tutdular. Yörə xalqı, bu gün belə Moyınkum çölünün ətrafında vəhşi həyat yaşayan insanların göründüyünü söyləyirlər.

1932-ci ildə artıq "Qazaxıstanın bütün zənginlikləri bərabər" olmuşdu, ancaq iki milyon Qazax ölmüşdü. Rəsmi statistikada Qazaxların sayı 1926-cı ildə 3.628 min, 1939-cu ildə isə 1.321 min göstərilirdi.

İki milyon insan, iki milyon can aclıqdan öldü, öldürüldü. Qazax nə desin: "Qazax, gördüyün əzab".

ZİRVƏDƏKİ DİLƏK DAŞI

May ayının sonu idi. Yesəvi Türbəsinin müdiri, dostum Temirxan "çox qiymətli bir rəssamın Türkistanda olduğunu və Əhməd Yesəvi Universitetinin Mədəniyyət Mərkəzində əsərlərinin sərgisini açmaq istədiyini" söylədiyi zaman bu rəssamın bizi haralara apara biləcəyini təxmin etməyimiz çətin idi.

Temirxanla söhbətimizdən yarım saat keçməmişdi ki, rəssam mədəniyyət mərkəzinə gəldi. Başında ağ rəngdə araqçın vardı. Köynəyi, şalvarı, hətta ayaqqabıları belə ağ idi. Başqa bir şəhərdə qəribə görünə biləcək bu geyim tərzinin Türkistana Əhməd Yesəvini ziyarətə gələn Qazaxlar üçün mənasını bildiyimdən təəccüblənmədim. Hamı deyil, amma Türkistana ziyarətə gələn Qazaxların çoxu, qadınlı kişili belə geyinirdilər. Xalq tərəfindən Türkistan ikinci Kəbə, Yesəvi ziyarəti yarım həcc olaraq qəbul edildiyindən, həcc ibadəti zamanı ağ rəngdə geyinildiyi üçün onlar da belə geyinirdilər. Məlumdur ki, qonağımız orta yaşlı olsa da, Qazax ənənələrini bilən biri idi. O, dodaqlarının kənarından aşağıya doğru buraxdığı incə bığlardan, qarabuğdayı, tipik bir Qazax idi.

Adının Abay, Türkistandakı vaxtının məhdud olduğunu söylədilər. Odur ki, qısa vaxt ərzində onun rəsm sərgisinin təşkilatçılığına başladıq. İki gün sonra sərgini açdığımız zaman rəsmlərin bu günə qədər çox rast gəlinməyən tərzdə olduğunu görərək çaşmışdım. Rəssam Abay Mirzə rəsmlərində "bəzi Quran surələrini və müqəddəs məkanların onda yaratdığı təəssüratları təsvir etməyə çalışdığını" söyləyirdi. Alma-atada bir klub açdığını və bura gələnlərin qısa müddət sonra eyni tərzdə rəsm çəkdiklərini söyləyirdi. Üstəlik bu adamların əvvəldən rəsm təhsili almaqlarının lazım olmadığını söyləyirdi. İnanmaq çox çətin idi. Lakin çox keçmədən bunu bizə isbat etdi. Sərgini gəzən 8-9 yaşlarında iki məktəbli ilə bir gün məşğul olduqdan sonra uşaqlar da Abay Mirzə tərzində rəsm çəkməyə başladılar.

QAZIQURD SEVDASI

Sərgini dolaşan zaman bir rəsmin qarşısında dayanıb: “Bu Qazıqurd dağının tərənnümüdür” dedi. Qazıqurdun onda buraxdığı təfərrüatı vəsf etməyə çalışmışdı. Sonra birdən döndü və “siz Qazıqurdu mütləq görməlisiniz” dedi.

Bir ay sonra Qazaxıstandakı vəzifəmdən ayrılıb Türkiyəyə qayıda bilərdim. Hələ dəqiqləşməmişdi. Lakin ehtimal olunurdu. Doğurdan da biz Qazıqurdu görmədən Türkiyəyə gedəcəkdik?

Dədə Qorqudun Salur-Qazan ilə qarşılaşdığı bu dağı görmədən Türkiyəyə dönəcəkdik? Qorqud Dədəmin:

“Qazıqurd dağından aşağı daş atdı,
Salur-Qazan qarşı çıxıb onu tutdu.
İt-beçene onu görüb ağlı getdi,
Qəhrəmanlar, bəylər görən varmı Qazan kimi....”

deyə soyladığı Qazıqurdu görməmək, həm də Qazaxıstanda uzun müddət qaldıqdan sonra heç mümkün deyildi. Qəlbimdə Türkiyədən gəlib və buralarda gəzib Qazıqurdu görmədən gedənlər üçün heyfsiləndim.

Hər Daşkənd və Çimkənd arasında səfər etdiyim zaman dağın arxasına yaslanmış şir heykəlləri diqqətimi çəkərdi. Baxmayaraq ki, heykəllərin qanadları yox idi, amma bu şirlər bir qanad taxınca Alpər Tunqanın simvolu olurdu. Türk mədəniyyətində şirə iltifat ta Alpər Tunqadan başlayırmı, bilmirəm, amma o gündən bu günə gəlib qanadlı halıyla Tatarıstanın dövlət simvolu olur, “aslanım” deyərkən bu varlıq dilimizdə tərif olur. Qazax sevgisi bu mədh edilmiş simvolu məşhur bir dağın bağrına yerləşdirmişdir. Bu dağ Qazıqurd dağıdır. Dağ Özbəkistanın sərhədinə çox yaxın olmaqla yanaşı, Qazaxıstandaydı və Qazaxlar üçün hələ də müqəddəsdir. Qazaxlara “Nuhun gəmisi haraya oturdu?” deyə sorulsa, hamıdan bir cavab eşitmək olar: Qazıqurd dağına. Qazıqurd Oğuzların mühüm yaylalarından biridir. Ebulqazi Bahadır Xan Türkmənlərin şəcərəsində Oğuz elinin gün doğuşu

anladılarkən İssız Göl, Almalık, Sayram və Qazıqurd dağını sayır. Oğuz Xan dastanında qəbilə adı da olur. Qəbiləmi adını dağdan alır, dağ qəbiləndənmi bilinmir. Radlof, Qazıqurdun mənasını "mübarək dağ" olaraq açıqlayır. Qazaxca lüğətdə isə "dərsi ulu, özü pak"dır Qazıqurdun mənasıdır. "Dersi ulu" Göy Tanrı dininin dağlara verdiyi müqəddəsliyi də anladır...

Qazıqurd içimdə böyüməyə başlamışdı. Dağ sehriylə sanki məni özünə çəkirdi. Amma Türkistanda da mühüm işlər var idi. Qazıqurd iki saatlıq məsafədəydi, ancaq gedib çıxa bilmirdim. Dağa çıxdıqdan sonra eniləcəkdi. Türkistandakı toplantıya çata bilməməyimizin nəticələri heç də yaxşı olmazdı. Abay Mirzə də mənim tərəddüdümü gördükcə israr edirdi: "Qazıqurd dağını görmədən Türkiyəyə dönmək olmaz". O gün axşam dəyərli Ali Akbaş Ağabəyimlə bu məsələni məsləhətləşdik. Nə etməli? Bu gün çərşənbə günü idi, sabah günortadan sonra yola çıxsaq, cümə günü saat axşam altıya yaxın Türkistana qayıda bilərdikmi? Bu qısa müddətdə Qazıqurda çıxmaq, enmək və üstəgəl yolçuluq hamısının bir arada bacara bilərdikmi? Şair könlü coşğun olur. Ali Ağabəyi də Qazıqurd sevdası bürümüşdü. Ertəsi gün günortadan sonra yola çıxmağa qərar verdik.

TÜRKİSTANDAN ÇİMKƏNDƏ

Abay Mirzə qalmaq üçün yerin problem olmayacağını söylədi. Hətta Qazıqurdun ətəyində Akbuğra türbəsinin düz yanında kiçik bir pansionat olduğundan bəhs edirdi. Abay Mirzə çox sevinmişdi. Bizə Qazıqurdu göstərəcəyi üçün sanki ibadət edirmiş kimi davranırdı. Yola çıxa bilməyimiz planladığımızdan daha sonraya qaldı. Rəsmlər haqqında məlumat almaq istəyən qonaqlar bizi gecikdirirdilər. Abay saat yarım Türkistan-Çimkənd, yarım saat qədər də Çimkənddən sonra yolumuz olduğunu söyləyirdi.

Türkistan və Çimkənd arasınadkı asfalt yol son günlərdə təmirdən çıxmışdı. Çuxurlar doldurulmuş, xarab yerlər düzəldilmişdi. Bu səbəbdən Abay söylədiyi müddətdə Çimkəndə çata bildik. Təmirdən əvvəl bu yolda hər an qarşımıza bir çuxur çıxa bilərdi. Bunlardan bəziləri təkərinizi partladacaq və hətta qəzaya səbəb ola biləcək qədər böyükdü. Türkistanın 1500 illik ildönümünə gələn xarici qonaqların eşqinə yollar da təmir edilmişdi.

Türkistan – Çimkənd yolu Qazaxıstanın bir çox bölgələrindəki yollardan bir az fərqlidir. Məsələn, Qızıl Ordaya və ya Tarazdan Almaataya doğru səyahət edərkən ucsuz-bucaqsız səhra gözünüzə yapışmış kimi sizi heç tərk etmir. Maşınınız nə qədər sürətlə getsə belə, ətrafınızdakı mənzərə heç dəyişmir. Bu yollarda qarşıdakı yaşayış mərkəzlərinə olan məsafələri göstərən tablolara da çox az rast gəlmək olur. Yollarda naşı olanlar itmək qorxusuna da qapıla bilirlər. Bu hissi ilk səyahətlərimdə mən də yaşamışdım. Türkistan Çimkənd arasında yol tez-tez kəndlərin arasından keçir. Doğrusu, bu kənd adlanan yerlər Anadoluda olsalar qəsəbə statusu alarlar. Qazaxıstanda kəndlər Anadolu kəndləri ilə müqayisədə daha yaxşı vəziyyətdədir. Bu kəndlərin su, elektrik, yol kimi problemləri yoxdur. Hətta bəzilərində təbii qaz belə var. Məktəb, mədəniyyət mərkəzi, tibb məntəqəsi olmayan kəndə rast gəlmək olmur. Kəndlərə getdikcə yolçuluğun monotonluğu da aradan qalxır.

Türkistan-Çimkənd arasındakı kəndlər İntımaqla başlayır, İntımaqla bitir. “Sülh, rahatlıq” mənasına gələn İntımaq sözünün bu

maraqlı təsadüfü, mənə əsrlərdir müharibələrdən rahat nəfəs almayan bu yerin adamlarının sakit həyat arzusunun timsalı kimi gəlmişdir.

Yol İntımaq kəndindən sonra, buranın ən mühüm mərkəzlərindən biri olan İkana gedir. İkan çox qələbəlik bir məkan olub, əhalisinin hamısı Özbəklərdən ibarətdir. İkan keçmiş xanlıq mərkəzlərindən biridir, hətta adının da Xan sözündən yarandığı rəvayət edilir. Rusların bu bölgəni işğalı zamanı uzun müddət rus qərargahının mərkəzi olmuşdur. Keçmiş İkan dedikləri yer isə Qaradağa daha yaxın və yoldan nisbətən uzaqdadır. İndi əhalinin böyük hissəsi yeni İkanda yaşayır. Keçmiş İkan rus işğalı zamanı dağıdılmış və bundan sonra məskunlaşma daha yaxın bir yerdə olmuşdur. İkan bu gün də Qazaxıstanda yaşayan Özbəklərin mərkəzinə çevrilib. Bu rayondakı televiziya antenalarının istiqaməti Daşkəndə tərəfdir və Özbəkistan televiziya kanalları istifadə edilir. Bölgədəki Özbəklərin sənət, mədəniyyət və hətta siyasi əlaqələri həmişə İkanla bağlıdır.

Bu ərazinin üç, dörd yerində kəndlərin girişlərində səyahətçilər üçün qurulmuş səyyar satıcı piştaxtaları, şişlik manqallarından ibarət olan kiçik bazarlar da bu yolçuluğa gözəllik verir. Gündə 10 dollar pul qazanmaq üçün yayın yandırıcı istisində, qışın soyuğunda onlar müştəri gözləyirlər. Satıcılar adətən orta yaşlı xanımlardır, ya da 20 yaşlarında gənclərdir. Amma kişilərin sayı hər bazarda olduğu kimi, qadınların sayından azdır.

Kiçik piştaxtaların üzərində biskvit, siqaret, qımız, qımran, qurud və koji şorbası tapa bilərsiniz. Sadalananların son dördü Türk mədəniyyətinin tarixi yeməkləri və içkiləridir. Məşhur qımızımız məlum olduğu kimi, at südündən maya qatılaraq hazırlanır. Qımran isə qımızın dəvə südündən hazırlanan növüdür. Onu bəyənənlər üçün qımızdan daha xoş içki sayılır. Dəvənin inadı insana da keçir, düşüncəsiylə Qazaxlar qımranı hamilə qadınlara içirmirlər. İnanclara görə hamilə qadın qımran içərsə, doğuşu həm gec, həm də çətin olar.

Qurud və qurudulmuş ət Türk ordularının qitədən-qitəyə səfər edərkən ərzaq sıxıntısı çəkmələrinin qarşısını alırdı. İkisi də xarab olmayan qida, dəyəri yüksək və əsgərlərin çox sevdiyi yeməklər olduğundan kifayət qədər qurudu və quru əti olan ordu yemək sıxıntısı çəkmədən istədiyi qədər səfərə çıxa bilirdi. Ət qurutma adəti azalmış olsa da, qurud hələ də qıpçaq boyunun çox sevdiyi yeməklərdən biridir.

Yağı alınmış qatığa duz qatıb qurudaraq qurud hazırlanır. Quruda qatılan duz faizi və qurutma dərəcəsi tayfalara görə dəyişir. Cənubi Qazaxıstanlı Qazaxlar qurudun duzunu çox qatarlar, ancaq çox qurutmazlar. Şimallıların qurudu isə daş kimi bərkdir. Birinin yeməyinə alışan, digərlərini çox sevmir. Mən də cənubun qurudunu sevirəm. Quş yumurtası böyüklükdə yumrulanmış quru qatığı ağzınıza ilk aldığınız zaman hiss edilən dad kəskin bir duz dadıdır. Qurudun əsl ləzzətinin damağa yayılması üçün isə ağızda bir müddət gözləmək lazımdır. Bax, o ləzzətin dadına doyulmur. Bu ləzzətin ömrünü uzatmaq üçün qurud şəkər kimi ağızda sorularaq yeyilir. Bir gün yolunuz Qazaxıstana düşsə və bir yanağı şişmiş uşağa rastlaşsanız bilin ki, o qurud yeyir.

Koji şorbasına gəlincə, o bu ərazinin ən geniş yayılmış yeməyidir. Anadoluda geniş yayılan adı "toga" olaraq tanınan bu şorba, Orta Asiyanın ən sevimli yeməklərindən biridir. Ankara-Qızılcahamam ətrafında bu şorbanın adının "köce" olduğunu öyrənincə doğrusu, çox çaşmışdım. Əsl tərkibi buğda və qatıqdan ibarət olan şorbaya noxud və nanə qatırlar. Novruz bayramında qaynadıldığı zaman adı Novruz kojesi olur və demək olar ki, hər evdə hazırlanır. Novruz günlərində hər evə getdiyiniz zaman bu şorbadan mütləq içməlisiniz. Digər zamanlar isə bu şorbanı piyalə adlandırdıqları kasalara tökərək satırlar. İsti günlərdə onu sərinləyir.

TÖRTKÖL VƏ QOVUN

Orta Asiya ərazisinin ən geniş yayılmış meyvəsi nədir, soruşulsa, hər halda cavabı qovun olur. Qovun mövsümü gəldiyi zaman bütün ərazi qovun qoxusuna bürünür. Bu ətrafda qovunun min bir çeşidi yetişir. Hər il mövsümü uşaq başı boyda tez yetişən növlər açır. Qabıqları sapsarı olan bu kiçik qovunlar çox şirin kimi görünürlər. Halbuki qabıqlarındakı o rənglə dadlarının heç bir əlaqəsi yoxdur. Əsl şirin qovunlar iyulun sonlarına doğru yetişir və qabıqları yaşıl rəngdədir. Ankaranın yuva qovununu xatırladır. Bunların dadına doymaq olmur.

Qovunun ən dadlısı isə bu tərəfdə Törtköldə yetişir. Bunu bilənlər Törtköldən keçərkən mütləq dayanıb qovun alırlar. Onsuz da Törtköl yol qovşağı cərgə-cərgə qovun satan piştaxtalarla doludur.

Qovun bu qədər geniş və çox yetişdirildiyindən hamısını mövsümündə istifadə etmək mümkün deyil. Bu səbəbdən buranın insanları qovunu da qurudub qışa saxlayırlar. Quruyan qovun qəhvə rənginə çalan qırmızı bir rəng alır və şirinliyi artır. Qışda bazarlarda qovun qurusu tapmaq mümkündür. Maraqlandığım üçün bir iki dəfə qovun qurusunun dadına baxdım, lakin bəyənmədim.

TEYMURUN ÇAYI: ARIZ

Türkistan – Çimkənd ərazisinin ən mühüm xüsusiyyəti isə Arız çayının buradan keçməsidir. Çayın düz kənarında adını böyük Türk hökmdarı Əmir Teymurdan alan Temirlan adlı bir yaşayış mərkəzi də vardır. Altın Ordu, Anadolu və Hindistan səfərlərindən sonra Əmir Teymur ən böyük səfəri olan Çinə sonda çıxmışdır. Qış mövsümü yaxınlaşdığından əsgərin və komandirlərin arasında səfər vaxtının yaxşı seçilmədiyinə dair şikayətlər olur. Əmir Teymur bunları eşidir. Böyük ordu Arız çayının sahilinə gəldiyi zaman Əmir onları dayandırır və çayda çimməyə qərar verir. Məqsədi əsgərlərə ruh vermək və dedi-qoduların qarşısını almaq idi. Havanın və suyun soyuqluğuna fikir vermədən ordunun gözləri qarşısında Arızın sularına atılır. Lakin şiddətli bir burulğana yaxalanır və qurtarıla bilmir. İndiki adı Temirlan olan ərazidə Haqqın rəhmətinə qovuşur. Buradan keçərkən qoca Türk Əmirinin ruhuna fatihə göndərmək lazımdır.

Temirlan ətrafında iqlim də fərqlidir. Türkistanın yayı çox quraq və isti olan iqlimi Çimkəndə doğru getdikcə yumşalır. İyun ayının sonlarında Türkistandan yola çıxarkən ətraf saralmış mənzərə ilə örtülü ikən Temirlandan etibarən təbiət yaşıllaşmağa başlayır. Türkistan şəhəri Çimkənd əyalətinə bağlı olmasına baxmayaraq, iqlim nöqteyi-nəzərdən cənubdakı Səmərqənd, Buxara iqlimlərinə daha yaxındır. İqlimin bu dəyişməsində Qara Dağlar mühüm rol oynayır və şimali və cənubi Qazaxıstanı bir-birindən ayırır. Şimalın iqlimi Sibir iqliminin bir sıra xüsusiyyətlərini daşıyarkən, cənub bölgələr tipik Orta Asiya iqliminə bənzəyir. Qazax coğrafiyaçılarının dediklərinə görə Sibirdən gələn hava qurşaqları Qara Dağlara toxunaraq dayanır. Lakin Qara Dağların arasında olan dərin kanyondan bir qədər hava axını bu dağ silsiləsini ötərək Temirlan ətrafından cənuba keçir. Bu soyuq küləklər isə Qazıqurda və Sırdəryanın üzərindəki buxar kütləsinə toqquşaraq dayanırlar. Bax, buradan sonra Orta Asiyanın o məlum olan isti və quraq havaları başlayır.

Türkistan ətrafında bu istilərin ən çoxu iyul ayının başlaması ilə gəlir və 40 gün davam edir. Qazaxlar bu dönəmə şildə (çilə) ayı deyirlər. Həqiqətən də kölgədə 46-47 dərəcəyə çatan istilərin

öhdəsindən gəlmək insana əzab olur. Amma sözün əsli farscadan alınmışdır. Farsca 40 demək olan şildə sözü bu aya adını vermişdir. Şildə sözü "şildəxana" olaraq coğrafiyada bəzi məscidlərin adı olmuşdur. Şildəxanalar divarlarının yarısı torpaq qazılaraq yerə gömülən ibadətxanalardır. O yüksək istilərdə hər halda buralar üstünlük verilən məkanlar olmuşdur. Şildəxanalar yarısı yerə gömülmüş olduqlarından onların içərisi sərin, qışın soyuğunda isə isti olur.

Temirlanı keçincə ard arda düzülmüş kiçik vadilər sıralanır. Orta Asiyanın dümdüz ərazi quruluşu içərisində bu vadilər diqqəti çəkir. Ali Ağabəylə bölgədəki müharibələrdə komandirlər lazım gəldiyi zaman öz əsgərlərini vadilərin içində gizlədirmişlər, deyə düşünürük.

VƏ ÇİMKƏND

Çimkəndə yaxınlaşarkən əvvəlcə Çimkəndlilərin "daçaları" görünür. Daça çoxmənzilli binalardan bezən insanların torpaqla, ağacla, çiçəklə birlikdə olduqları məkanlardır. Demək olar ki, hər sovet şəhərinin ətrafında belə yerlərə rastlamaq mümkündür. Buralarda adətən hər kəsin 500 metr torpaq yeri vardır. 60 və ya 70 metr torpaq üzərində evlər tikilmiş, qalan ərazi isə bağçaya çevrilmişdir. Varlıların daçaları güclərinə uyğun olaraq villa şəklindədir. Varlı, yoxsul demək olar ki, hər daçanın ortaq xüsusiyyəti isə bağçanın bir kənarında tikilmiş saunalardır. Sovetlərin hər yerində insanlar saunaya girməyi çox sevirlər. Hətta saunalara görə daçalar qışda da istifadə olunur.

Çimkənd çox qədim bir Türk şəhəri olmasına baxmayaraq, şəhərin içində onunla bağlı məlumat almaq mümkün deyildir. On üçüncü əsr Qaraxanlılar dönəmindən qalmış məscid kimi bir neçə tarixi əsər də, ancaq maraqlananların axtarmaqla tapa biləcəkləri yerlərdir. Bura tipik bir sovet şəhəridir. Böyük və heç bir memarlıq xüsusiyyəti olmayan mənzil bloklarının arasında yeriyərkən geniş meydanlar və mərkəzdəki bəzi yerlər insan nisbətən rahatlıq tapır.

Yol boyunca Abay Mirzə bizlərə Qazıqurdun müqəddəsliyini izah edirdi. O şirin Qazax ləhcəsi ilə "Khasiyetli Tav" deyirdi. "Çox mühüm xüsusiyyətləri var bu dağın" deyə söhbət edirdi. Gün axşama yaxınlaşırdı. Ali Ağabəylə gecəni Çimkənddə keçirməyi qərarlaşdırdıq. Bu fikrimizi Abay Mirzəyə söylədik. Lakin onun özünə həddindən artıq inamı qarşısında israr etmədik. Doğrusu, bir az narahat idik. Bu dərviş tipli Qazaxın arxasınca gedirdik. İstiqamətimiz bir dağ idi. Orada harada qalacaqdıq? Abay Mirzənin bəhs etdiyi yerlərdə doğurdanmı qalmaq olardı? Yoxsa Qazıqurd sevdasını bir az şişirtmişdik?

Çimkəndin çıxışında tərk edilmiş kimi dayanan gübrə zavodunun görüntüsü narahatçılığımızı bir az da artırırdı. Bura, keçmişdə 5000 işçinin çalışdığı gübrə zavodu idi. Bir müddət bağlı qalmış və çox aşağı istehsal gücüylə çalışırdı. Amerika filmlərindəki mafiya hesablaşmalarının aparıldığı məkanları xatırladırdı. Artıq yollar da xarab olmuşdu. Hər an qarşımıza bir çuxur çıxa bilərdi. Yolların xarablığı sürətimizi aşağı salırdı. Çimkəndin ana asfalt yolundan çıxıb

ara yollara keçmişdik. Günəş yavaş-yavaş üfüqdə görünməz olurdu, hava qaralmağa başlamışdı. Çimkənddə qalmağı planlaşdırmasaq da, ikimizin də ağlından "niyə gecəni Çimkənddə keçirmədik" sualı keçirdi.

"QAYİB EREN – 40 ŞİLTƏN"

Bu arada Abay Mirzə "**Qayib Eren – 40 Şiltən**" adlı bir yerdən bəhs edirdi. Yolumuzun üzərində olduğunu söylədiyi bu yeri mütləq gedib görməyimiz lazım olduğunu vurğuladı. "Bax, gəlib çatdıq" deyə kənd asfaltına çıxaraq, ara yola keçməyimizi söylədiyi zaman günəş batmaq üzrə idi. Yarım kilometr getmədən yolumuz Orta Asiya şəhərlərinin girişlərində tez-tez rast gəlinən kəmərə çatmışdı. Ətrafda yaşayış yeri görünmürdü. 500 metrə irəlidə iki mərtəbəli bir evdən başqa, heç kimsənin olmadığı yerə, ayaqları yolun iki tərəfində və 40-50 metr yüksəklikdə bu kəməri niyə tikmişdilər? "Bax, buradır" Abay Mirzə dedi. Qazaxların bu yeri çox müqəddəs saydıqlarını söylədi. Ali Ağabəylə birlikdə maşınımızdan düşüb, bir fatihə oxuyub yolumuza davam etmək niyyətində idik. Çünki məsafələr dostumuzun dediyindən daha uzun olmağa başlamışdı. Bundan sonra hava da qaralacaqdı, sürəti azaltmağa məcbur olacaqdıq. Gedəcəyimiz yerə vaxtında çatmağın xeyri var idi. Maşınımızdan düşüb fatihə oxumağa başlamışdıq ki, orta yaşlı bir Qazax bizlərə işarə edərək yanımıza gəldi: "Xeyr" dedi, "beş-on dəqiqə səbir etməlisiniz. Baxın, günəş batır. Günəş batarkən dua etmək olmaz". Söylədikləri doğru idi. Günəşin doğması və batması zamanı heç bir ibadət etmək olmazdı. Dinin bu xırda detalına diqqət edən birisinə rastlaşdığımız üçün çox məmnun olmuşduq. Abay Mirzə "Türkiyəli qardaşlarımız" deyərək bir az da qürurla bizləri tanış etdi. Türkiyədən gəlib də, onların müqəddəs saydıqları yerlərə dəyər verən, bunun üçün zəhmətə qatlanmağı gözə alan insanlara himayədarlıq etməsindən son dərəcə məmnun idi. Bizi dayandıran adamın buranın türbədar ailəsindən olduğunu öyrəndik. Qazaxıstandakı bir çox müqəddəs yerdə rastlandığı kimi, bu ailə də özünü Qayib Eren–Qırx Şiltənin baxımına məsul sayırdı. Daha sonra vaxt itirməmək üçün əl kamerası ilə ətrafı çəkməyə çalışdım. Orta boylu iki təpənin arasında bir vadi vardı. Sağdakı təpənin üzəri qayalıqla örtülmüşdü. Kamera ilə qayaları çəkirdim ki, görüntüdəki daş sanki bir aslanı xatırladırdı, bir digəri sanki daşdan buğa idi. Bu vəziyyəti günəşin başındakı işıq oyunlarına və ya təbiətin qəribəliyinə yazıb, kameranı söndürüb, söhbətə qayıtdım. Abay Mirzə sözü türbədara vermişdi. Türbədar "Nuh

peyğəmbərin gəmisi Qazıqurd Dağına endikdən sonra ona inananlar ilə buraya gəldiklərini və Nuh Peyğəmbərin burada Allaha: Mənim hümmətimə yol ver, deyə dua etdiyini" anladırdı. "Allah bu duanı qəbul edib onlara elm yolu, sənət yolu, qoyunçuluq, keçicilik kimi müxtəlif yollar açmışdır".

Digər bir rəvayətə görə isə İmam Gazali təhsil görməyə gedərkən burada həramilərlə qarşılaşmışdır. Yeddi yaşında bir uşaq olan Gazali atası tərəfindən bir karvana əmanət edilir. Dəyərli əşyalarını anası alt paltarlarının içində gizlədir. Burada karvan haramilərlə qarşılaşdığı zaman kiçik Qazali gizli pullarını bir-bir yerlərindən çıxararaq haramilərə verir. Bu vəziyyətə çaşan harami dəstəsinin başçısı ondan niyə belə etdiyini soruşur. Qazali "Atam mənə əgər möhtac insanlar səndən bir şey istəyərlərsə onlara əlindəkiləri ver deyə öyrətdi. Sizlər də hər halda möhtacsınız ki, karvan önünə keçib istəyirsiniz. Mən atamın nəsihətini yerinə yetirdim" cavabını vermişdir. Quldurbaşı bu sözdən çox təsirlənir və "bizim üçün dua et" deyir. Qazalı də onlara dua edir və qırx həraminin hər biri, Nuh Peyğəmbərin duası ilə açılan yollara girərək yaxşı insan olurlar.

Kamera görüntüsündəkilər işıq oyunlarından olmaya bilərdi. Günəş təpənin arxasında batdığından, təpənin bizim görə bildiyimiz üzü kölgələnmişdi və tam görə bilmirdik. Təkrar kameranın yaxınlaşdırma xüsusiyyətindən istifadə edərək təpəni yoxlamağa başladım. Həqiqətən də təpənin üzəri müxtəlif canlılara bənzəyən daşlarla doluydu. Aslan və qurbağadan sonra iti, dəvəni xatırladan qayalar da vardı. Türbədar on beş gün sonra burada böyük bir ehsan təşkil edəcəklərindən bəhs edib bizi də dəvət etdi. Hər il iyun ayının əvvəlində xalqa ehsan verilirmiş. Türbədar bu işə Qazaxıstanın müstəqilliyindən başladıqlarını danışarkən, bu ənənəni bərpa etdikləri üçün də qurur duyduğu hər halından bəlli idi. Ətraf kəndlərdən, şəhərlərdən hər il yüzlərlə insan bu ehsana qatılırmış. Vaxt keçirdi. Günəş də artıq batmışdı. Madam ki, bu yerlər müqəddəs idi, bir duanın heç kəsə zərəri olmazdı. Duamızı oxuyub icazə istədik. Qalacağımız yerə mümkün qədər tez çatmalı idik. Bəlkə də qalacağımız yerdə problem çıxa bilərdi. O zaman Çimkəndə geri qayıtmalıydıq. Bir yandan bəlli etməməyə çalışdığımız tələşimiz davam edərkən, digər yandan da Abay Mirzə sayəsində özümüzü içində olduğumuz "Qazax xalq inanclarını tətbiq etmək kursu" dan çox

məmnunduq. Bu qədər xalq inancını öyrənə bilmək üçün aylarla çalışmaq lazım idi. Hətta bu inancların bəziləri ya kitablarda yoxdu, ya da bizim onları əldə etmək imkanımız məhdud idi.

SƏHRANIN ORTASINDAKI GECƏ

Artıq qaranlıq əmməli-başlı düşmüş, sürətimiz azalmışdı. Abay Mirzə Qazıqurd dağının kəramətindən danışırdı. Nə qədər müqəddəs bir dağ olduğunu söyləyirdi. Hətta bizim gəlişimizdən məmnun olub-olmadığına dair bizə işarələr verəcəyindən bəhs edirdi. Ali Ağabəylə təkrar göz-gözə gəldik. Gecəni qalacağımız yerlə bağlı narahatlığımız azmış kimi, bələdçimizə nə qədər etibar etməyimizlə bağlı tərəddüd edirdik. Baxmayaraq ki, Göy Tanrı dininin xalq arasında yaşayan ritual və inanclarına Qazaxlar arasında tez rastlanmasını bilməyimiz bu vəziyyəti nisbətən rahatlıqla qarşılamağımıza imkan verirdi. Yolumuza davam edirdik və ətraf qaranlıqlaşmışdı. Abay Mirzə birdən: "Baxın işarə orada göründü. Bu Qazıqurdun bizi qəbul etdiyinin, ona gəlişimizdən məmnun olduğunun işarəsidir"deyə həyəcan içində barmağı ilə göy üzünü göstərdi. İşarə etdiyi yerdə buluda bənzər bir şey dayanmışdı. Quyruğu həm ulduzun quyruğuna, həm də şahzadənin əmmaməsinə də bənzətmək mümkündü. Sanki Qazıqurdun zirvəsi Şahzadənin başı idi və yerə doğru başına bağladığı əmmamə sallanmışdı. Amma Abay Mirzə "Baxın, bu işarədir. Baxın, bu bulud deyil". Bulud olsa yerə paralel durmalıydı. Bu isə yerə perpendikulyar dayanırdı. "Siz heç yer üzünə perpendikulyar dayanan bulud gördünüzmü?" deyə soraraq öz fikrini qüvvətləndirməyə çalışdı. Bu bacadan çıxan duman ola bilər, deyə ətrafda bir ev və ya zavod axtarmağa başladıq. Xeyir, səhranın ortasındaydıq. Ətrafda nə bir ev, nə də bir zavod var idi. Dostumuz onunla həmfikir olmadığımızı anlamışdı və bunun Qazıqurd işarəsi olduğu istiqamətindəki qənaətini qüvvətləndirən hadisələri danışır, daha əvvəlki ziyarətlərində də oxşar işarələri gördüyündən bəhs edirdi. Ali Ağabəylə bunun bir bulud olduğundan əmindik, ancaq buludun necə belə düz dayandığını izah edə bilmirdik. Abayın fikrini qəbul edirik kimi görünməkdən başqa çarəmiz qalmamışdı. Üstəlik dostumuzun dediyinə görə Qazıqurd hər kəsi işarə göstərərək qarşılamazdı. Bu işarə bizim təmiz qəlbli və yaxşı niyyətli insanlar olduğumuzun işarəsiydi. Etiraf etməliyəm ki, bu dəyərləndirmədən xoşum də gəldi. Amma yenə də bu qəribə duruşlu şey hər halda bulud idi.

Abay Mirzənin “bax, bu kənddə gecəni keçirəcəyik” dediyi yerə gəldiyimiz zaman saat gecə on biri keçmişdi. Yol onsuz da kəndin içindən keçirdi. Evlərin pəncərələrindən sızan işıq kənddə elektrik olduğundan xəbər verirdi. Qazaxıstanın bu iqtisadi sıxıntıları içərisində şəhərlərdə belə elektriklər tez-tez kəsildiyi halda, elektrikin bu kəndə gəlməsi bir şans idi. Kəndin küçələri bomboş idi. Maşınımızın səsi və işığı ilə künclərinə çəkilmiş itlər bir-bir başlarını qaldırıb ortalığı gurultuya salmışdılar. Abayın işarəsiylə bir evin qarşısında dayandıq.

Qazaxlar sanki uzun illər çadırda yaşamağın acığına geniş evlər tikirdilər. Əlbəttə, evlərin genişliyində qohumluq əlaqələrinin hələ də çox qüvvətli olmasının rolu da böyükdür. Evin qarşısındakı eyvana 8-10 pilləli bir nərdivanla çıxılırdı. Qazaxıstandakı kənd evlərinin demək olar ki, hamısı bu evə oxşayırdı. Bura bir mərtəbəli geniş bir ev idi. Evdə heç bir işıq görünmürdü. Burada da bizi ev sahibinin iki iti qarşıladı. Bu səhranın ortasında gecə yarısı qalmaq ehtimalımızın olduğu evdə kimsə yox idimi? Türkistanda ikən “qalacağımız yerlərə telefonla xəbər verək” təklifimizə “lazım deyil” deyərək Abay etiraz etmişdi. Qazıqurd sevdasının arxasınca tamamilə bir səhra adamı kimi davrandığım üçün bir az da utanırdım. Bu səbəbdən Ali Ağabəylə göz-gözə gəlmədən, gözucu onun halını anlamağa çalışdım. Gözləmək və evdə bizi gülər üzlə qarşılaya biləcək birinin olmasını arzu etməkdən başqa bizim üçün çıxış yolumuz yox idi. Ali Ağabəy də səbirlə gözləyirdi.

TÖRƏNİN GÜCÜ

Evdəkilər itlərin səsinə oyandılar, işıq göründü və qapı açıldı. Evdə qonaq qalmağa imkan var idi, yox idi, bilmirdik, yenə də evdə adamın olması bizi bir az rahatlatdı. Abay maşının pəncərəsini açaraq salam verdi. Ev sahibi Abayı tanımışdı. Ev sahibinin yanında bir nəfər də göründü. Birlikdə gəlib itləri sakitləşdirdilər və bizi içəri dəvət etdilər. Bu adət-ənənənin gücündən başqa bir şey deyildi: ev sahiblərimiz Tanrı qonağını qarşılamağın şərəfi ilə bizi içəri dəvət etdilər. Nərdivanlardan evin eyvanına çıxıb, mavi rəngli qapıdan içəri girdik. Bura evin salonu idi. Salondan pərdəylə ayrılmış bir qapıdan bizi otağa apardılar. Çadır ənənəsi bu qapılara asılan pərdələrdə də özünü göstərirdi; salondan otaqlara açılan qapılar tipik çadırın qapısındakı kimi pərdə ilə örtülüydü.

Abay bizi ev sahibi ilə tanış etdi. Uzun boylu, iri bədənli, adətən bir dastan qəhrəmanını xatırladan bu orta yaşlı adamın üzünə, mimikasına diqqət edirdik. Gecə yarısı gələn gözlənilməz qonaqları görəsən necə qarşılayacaqdı? Heç öyrəşmədiyimiz bu vəziyyətimizdən çox narahat idik. Adının Muxtar olduğunu öyrəndiyimiz ev sahibi olan ”uşaqlar evdə deyilmi?” deyə Abay soruşdu. Evdə bizi qarşılayan iki nəfərdən başqa heç kim yox idi. Muxtar “kənddə bir toy olduğunu, xanımının və qızının ora getdiklərini” söylədi.

Evdə xanımların olmaması bizi rahatlatmışdı. Heç olmasa universitet tələbəçiliyimiz zamanı subay evlərinə etdiyimiz ziyarətlərlə bir oxşarlıq vardı. Əslində bu oxşarlıqdan çox Muxtarın üzündə ən kiçik bir narazılıq ifadəsinin olmaması bizi rahat etmişdi. Abayla dostluğunun çoxdan olduğu hərəkətlərindən bəlli idi. Oturduğumuz otaq ənənəvi Qazax üsulu ilə döşənmişdi. Qapının olduğu tərəf xaric, digər divarlara böyük Qazax xalıları asılmışdı. Bu Türklərin çadırda yaşadıqları dövrlərdən qalan bir ənənəydi. Bu gün də Qazaxlar “jurt” dedikləri çadırlarını qurunca onun divarlarını xalılarla bəzəyir. Xalı bayırdan gələn istinin və soyuğun qarşısını aldığı kimi, çadırın içinə də gözəl bəzək verir. Çadırdan oturaq evlərə yaşanmağa keçildiyi zaman isə xalı yerini qoruyub, bu dəfə də evin divarlarını bəzəmiş olub. Qazaxlar arasında olduğu qədər geniş yayılan olmasa da, Anadoluda da

divara xalı asan kəndlərə rast gəlmək mümkündür. Divarların dibi isə bir metrdən bir az geniş, "körpeşe" adlanan döşəkcələrlə əhatələnmişdi. Otaqdakı televizor otağın dizaynındakı ənənəvi vəhdəti pozan tək element idi. Ev sahibimiz ilk çaşqınlığını tamamilə üstündən atmış, sanki gözlədiyi qonaqlar gəlmiş kimi isti münasibətlə bizi əyləşdirdi.

Ali Ağabəyə əliylə işarə edərək baş hissəni göstərdi. Söhbət zamanı oturmaq qaydasının Qazax adətində çox mühüm olduğunu bilirdik. Qazaxlar baş hissəyə "tör" deyirdi və o sırada ən yaşlı kim varsa o, törə otururdu. Törə oturan o məclisi idarə edən də sayılırdı. Onsuz da qazaxcada sədr mənası "törə ağadır. Törə adəti tətbiq edənin oturduğu yerdir. Muxtar, Ali Ağabəyə "törə çıxın" dedi və hələ oturar-oturmaz döşəkcələrin üzərində olan geniş yastıqlardan dirsəyimizin altına qoymağımız üçün ikisini birdən uzatdı. Özü qapıya ən yaxın yerdə oturmuşdu. Qazax adətinə görə ev sahibi qonaqdan əsla yuxarıda oturmur.

Abay Mirzə bizləri tanış edərkən Muxtarın Qazaxıstanın çox məşhur sənətçilərindən olan Bavurcanın böyük qardaşı, bu evin də Bavurcanın ata ocağı olduğunu söylədi. Bu taleyə baxın: deməli biz məşhur sənətçinin kənddəki evinə qonaq olmuşduq. Bavurcan məşhurluğu baxımından Türkiyədəki Levent Kırca ilə müqayisə edilə bilərdi. Ali Ağabəyin də, mənim də çox sevdiyimiz sənətçilərdən idi. Onun tamaşalarının video və maqnitofon kasetlərini hər kaset satılan mağazada tapmaq olardı. Xalq onu çox sevirdi. Hətta bir kasetini də Ali Ağabəylə almış və ara-sıra avtomobildə dinləyirdik.

Bavurcan çıxışlarında gündəlik məsələlərə də yer verirdi. Rüşvəti tənqid edən çıxışına Ali Ağabəy ilə çox gülürdük: "Qazaxlar böyük bir bina tikməyə qərar vermişlər. Türk tikinti firması üç milyona tikərəm demişdir. Arxasınca ingilis firması gəlmiş və altı milyon dollara işi görəcəyini söyləmişdir. Ən son Qazax firması gəlmiş və iş üçün doqquz milyon dollar istəmişdir. Tenderi keçirən çaşıb qalmış və demiş ki: Türklər üç, ingilislər altı milyon istədilər. Sən niyə doqquz deyirsən? Təklifi edən Qazax gülmüşdür. Ağa demiş, nə var bunda başa düşülməyəcək, üç milyon sənə, üç milyon mənə, qalan üç milyonu da Türk qardaşlarımıza verib işi gördürəcəyik".

Bavurjan iki həftə əvvəl şəhərin yaranmasının 1500 illik bayram tədbirləri səbəbiylə Türkistana gəlmiş və iki konsert vermişdi.

Universitetin Mədəniyyət Mərkəzi müdiri olaraq mənim də sənətçilərin Türkistana gəlməsi və Türkistandakı bəzi məsələlərin həllində payım olmuşdu. Teatr truppasının menecerindən bəhs etdim. "O, mənim böyük oğlumdur" Muxtar dedi. İsti bir mühit yaranmışdı. Hətta mən ev sahibinə "Muha", o da Ali Ağabəyə "Aləkə" deməyə belə başlamışdıq. Qazaxlar özlərinə yaxın bildikləri böyüklərə adının ilk hecasının ardına "Ağa" sözünün qısaldılmışı-a və ya yenə "ağabəy" mənasını verən –ə-kə əlavə edərək səmimiyyətlərini ifadə edərlər. İsmin ilk hecasına görə bunu müəyyənləşdirərlər. "Muha" Muxtar Ağa, Aləkə isə Əli Əkə mənasını verirdi. Bu gözlənilməz təsadüfdən hər halda ən çox Abay Mirzə məmnun olmuşdu. Bu arada ortalıqda görünməyən gənc ev sahibi qaşla-göz arasında çay suyunu qaynatmış, bal, kərə yağı, qoz, fıstıqla serviz hazırlayırdı. Bu da bir Qazax adətiydi: evdə söhbət edilərkən mütləq bu cür şeylərə qonaq edilirdi. Təbii ki, qımızda.

QAZIQURD QIMIZI

Qazıqurd hər şeyə adını verirdi: “Qazıqurd qımızı” Muxtar dedi və əlinə aldığı çömçəni qımızla doldurdu. Çömçəni qımızla doldurduqdan sonra yarım metr qədər qaldırıb, sonra təkrar qabına tökürdü. “Bu yuvaş qımız” dedi. “Yuvaş” Anadoludakı “yavaş” sözünün eynisiydi və yeni mayalanmış qımıza yavaş qımız deyilirdi. “Yuvaşsa, bu şəkildə etməyə ehtiyac varmı?” deyə soruşdum. “Olsun” dedi, “yavaş olsa da, belə etdikcə qımız ləzzətlənir”. Bu cür etdikcə qazlar ayrılır və həqiqətən də qımızın ləzzəti artırdı. “Biz həmşəri sayılırıq” Muxtar dedi. Zarafat ola bilər deyə diqqətlə dinləyirdik. Çünki Qazaxlar arasında səmimiyyət artınca zarafatlar başlayardı. Nüansı tuta bilməmək gülüşməyə səbəb oldu. Biz də bu sözün arxasından nüansı tutmaq üçün gülüşməni başlayan tərəf olmaq arzusuyla diqqətlə qulaq asırdıq. Sən demə muxtar bir nüansı deyil, bir hadisəni anlatmaq niyyətində imiş. “Babam Güney Azərbaycandan buraya gəlmiş və bir Qazaxla evlənmişdir. Yəni məndə oğuz qanı vardır. Bu qıpçaqların içində özünüzü tənha hiss etməyin” deyərək Abay Mirzəyə sataşdı. Yenə də gözlədiyimiz olmuş, hadisənin arxasından qoca Qazax nöqtəsini qoymuşdu. Bir az çaşmış halda bu nüansa gülürdük. O da sözünün bizdəki təsirindən çox məmnun halda gülüşməyə qoşuldu.

Bavurcanı bizim çox sevməyimizin səbəbləri yalnız yüksək aktyorluq qabiliyyəti və ağıllı zarafatları deyildi. Bavurcan eyni zamanda hər oyununa Türk xalqlarının qardaşlığı, yaxınlığı, Türkiyə-Qazaxıstan dostluğu, Özbək-Qazax qardaşlığı kimi mövzuları mütləq yerləşdirirdi. Bu qədər məşhur və sevilən bir sənətçinin hər zarafatı xalq üzərindəki təsiri nöqteyi-nəzərindən cildlərlə kitaba bərabər idi. Baxmayaraq ki, Türk Dünyası şüurunda olan ziyalılar Qazaxıstanda az deyildi, amma mən yenə də Bavurcanın israrlı mövqeyində Güney Azərbaycanlı babasının təsiri nə qədərdir? deyə düşünürdüm. Muxtar qımızı köpükləndirərək yoruldu və çömçəni gənc ev sahibinə verdi. Biz çaylarımızı içərkən qımız köpüklənməyə davam edirdi. İki Türkiyəlinin Qazıqurdu görməyə gəlmələri Muxtarı çox məmnun etmişdi. O da Qazıqurdu tərifləyirdi. Daha öncə Abayla birlikdə ora çıxmışdılar.

Süfrədə olan bal kasasına işarə edərək “Qazıqurd balıdır, yeyin” dedi. Qımızda Qazıqurd dağının nə təsiri vardı, hələ görməmişdim, amma bal həqiqətən də dadlı idi. Qazaxıstanın cənubunda pambıq ballar geniş yayılmışdır. Geniş yayılan pambıq təsərrüfatçılığından arılar bal toplayırdılar. Pambıq ballar həm ağ rəngli olur, həm də tez kristallaşırdı. Qarşımızda dayanan Qazıqurd balı isə qızılı rəngi ilə həqiqi çiçək balı idi. Hələ Qazıqurdu görmədən çiçəkləri gəlmişdi bizi görməyə. Çömçəsi əldən - ələ gəzərək bir saatdan çox köpükləndirilən qımıza Muxtar “Qazıqurd qımızı” deyərək bizə verdi. Əlindəki çömçə ilə qımızı piyalələrə tökərkən, bir yandan da qımızın süfrəyə verilməsindən bəhs edirdi. Qımız əsla səs çıxartmadan piyaləyə tökülməli imiş. Əgər çömçədən axıdılarkən şırıltı səsi çıxarsa bu qonağa təhqir sayılırmış. Bir yandan danışır, o biri yandan qayda ilə piyalələri doldururdu.

Yuvaşlığın təsirimi, bu qədər köpükləndirilməsinin nəticəsimi, yoxsa Qazıqurdun əsəri olduğundandırmı bilmirəm, amma bu içdiyim ən gözəl qımız idi. Ev sahibi qımıza bal qarışdırmağımızı tövsiyə etdi. Biz də əməl etdik. Ay, Allah! Bu qarışıq dünyanın ən gözəl içəcəklərindən biri olmuşdu. Yarım litr böyüklüyündəki kasalardan beşmi içmişdik, altımı, hesabı qarışdırmışdıq. Bu xoş ləzzətə dayanmayıb, bir az çox içdiyimiz dəqiq idi. Rəhmətlik professor Əbdülməcid Doğru Xoca Pamirdə Türk Dağçıları kitabında “çox miqdarda qımız içib, əsəb sistemi pozulmayanların Türk olduqlarına qərar verə biləcəyini” yazır. Ali Ağabəylə Xocanı xatırlayıb “baxaq görək səhərə türklük testindən necə çıxa biləcəyik” deyərək zarafatlaşdıq. Saat ikiyə yaxınlaşırdı. Ertəsi gün yorucu bir gün olacaqdı. Bizim üçün hazırlanmış tərtəmiz yer yataqlarında istirahət etməyə getdik.

ÖNCƏ AKBUĞRA

Səhər qalxmağımız istənildiyi vaxt saat beşə yaxınlaşırdı. Dan yeri ağardı. Üzümüzü yumaq üçün həyətə çıxdıq. Səyyar əlüzyuyanın üzərində yerləşdirilmiş dörd litrlik bir qabdan axan suda əllərimizi yuyacaqdıq. Silindrin altında on beş santimetrlik bir metal çubuq vardı. Əlinizlə bu çubuğu yuxarıya itələdiyiniz zaman su axmağa başlayır, ovcunuz suyla dolub, əlinizi çəkdiyinizdə çubuq öz ağırlığıyla təkrar yerinə gəlir və üzərindəki diyircək suyun axmasını əngəlləyirdi. Bu su qabları Orta Asiyada çox geniş yayılmışdı. Şəbəkə suyuna bağlı olmayan hər bir evin qarşısında bunlardan var idi. Nə zaman bu qabları istifadə etsək, Ali Ağabəy heyfsilənirdi. Yenə bir yandan ovucunun içiylə çubuğa basıb suyu axıdır, bir yandan da "Anadoluda bu adəti niyə bilməzlər! Halbuki nə qədər praktikdir. Bunlar bizim kəndlərdə çox işə yarayar. Türkiyədə də bu adət tanıdılmalıdır. Antəpli ustalara bir tərif etsən, bunu gözü qapalı hazırlayarlar..." Bu cümlələri Ali Ağa bəydən bəlkə 40-cı dəfə eşidirdim. Amma hər səfərində ilk dəfə eşidirmişəm kimi maraqla dinləyirdim. Ali Ağabəy Anadolu insanını o qədər sevirdi ki, kəndlərimizin halı gözünün qabağına gəlirdi.

Gecədən qabın içində qalıb yaxşıca soyumuş suyu üzümüzə vurmağımızla yuxumuz qeyb olurdu. Bu arada bir az da tərəddüdlə Ali Ağabəyə Məcid Xocanın testini xatırlatdım. İkimizə də test müsbət nəticə vermişdi. Tələş ediləcək bir şey yox idi. Tələsik çayla kiçik səhər yeməyi yeyib yola başladıq. Öncə Akbuğra Türbəsini ziyarət edəcək və oradan Qazıqurda çıxacaqdıq. Kənddən çıxar-çıxmaz "bax, Qazıqurd" dedilər. Gecə çox fərq etməmişdik, qaldığımız ev Qazıqurd Dağının düz ətəyində idi. Kazıkurdun heybətli bir görüntüsü vardı. "Bu Ata Qazıqurd" dedi Abay. "Daha irəlidə Ana Qazıqurd var. Vaxtımız olsa, oraya da çıxarıq". Qazıqurd Dağının iki zirvəsi vardı, tipik Böyük Ağrı və Kiçik Ağrı kimi. Biz böyüyünün, Ata Qazıqurdun ətəklərindəydik. Yolumuz dağın ətəyindən qıvrılaraq davam edirdi. Dağın ətəklərindəki sürülə biləcək hər yeri kəndlilər əkmişdir. Tarlaların arasında irəliləyirdik. İki və ya üç kiçik vadidən keçdikdən sonra böyüklüyü əvvəlkilərdən çox fərqlənməyən, amma yamyaşıl bir vadinin içində özümüzü gördük. Demək ki, digərlərində olmayan burada vardı:

vadinin ortasından bol su axırdı. Vadinin düz başladığı yerdə kiçik, onun bir az aşağısında isə iki mərtəbəli bir tikili var idi. Abay "bura Ağ Buğra Övliyanın Türbəsi olmalıdır" dedi. Bu, vadinin başındakı çox da möhtəşəm olmayan, Qazax məzarlıqlarında belə rastlana biləcək növdən, daşdan kiçik bir tikiliydi. Bütün sevimliliyi ilə vadinin başına qurulmuşdu. Quruluş tarixini indi xatırlamıram. Amma bəlkə də müstəqillikdən sonra əhya edilən müqəddəs yerlərdən biri də ola bilərdi. Yanında da iki mərtəbəli bir ev var idi. Vadiyə həyat verən su bu tikilinin divarının düz yanında fışqırırdı. Yerin altından gurul-gurul fışqıraraq bayıra çıxan su, sanki Akbuğra Türbəsinin içindən tökülürdü. Bu suyun çıxışını seyr etmək çox gözəl idi. Gözlərimiz suyun qabarıb çəkilməsinə dalıb gedirdi. Doğrusu, yalnız bu suyun çıxışını seyr etmək üçün bu yolçuluğumuzun zəhmətlərinə dəyərdi. Abay bu sudan abdəst almağımızı təklif etdi. Bu abdəst türbə ziyarəti üçün idimi, yoxsa bir az sonra çıxacağımız Qazıqurd üçünmü, aydın deyildi, amma mənə qalarsa Abay hər ikisi üçün də bunun lazım olduğunu düşünürdü. Məmnuniyyətlə qollarımızı sıvamağa başladıq. Bu bulağa toxunmaq bambaşqa bir zövq olacaqdı. Türbəyə girdiyimiz zaman adətə görə dua etmək vəzifəsi ən böyüyümüz olaraq Ali Ağabəyə düşürdü. Ali Ağabəy qəbir ziyarətinin təsiri altında fatihə oxuyacaq və türkcə dua edəcəkdi. Belə etmək adət idi. Qazaxlar qısa arzu cümlələrini qafiyələrə uyğunlaşdırıb şeir kimi dua edirlər. Bu duaları ərbabından dinləmək çox zövqlü olur. Hətta gözəl duaların kitabları belə vardır. Üzərində "Akbata" yazılı kitabçaları hər yerdə görmək mümkündür. Qazaxlar "Bata" sözünü, dua mənasında istifadə edir. Çox geniş etimoloji biliyi olan Ali Ağabəy Bata sözünün "fatihə" kəlməsinin dəyişilməsindən gəlməsini detallarıyla izah edir və hər dəfə də "başqa dildən alınan bir kəlmə ancaq bu qədər dəyişdirilə bilər" deyir və gülürdü. Qəbirin başına çatdığımız zaman Abay "Aləkə Bata ber" dedi. Bata vermək bizim adımızdan dua etməsi deməkdi. Ali Ağabəy usula uyğun olaraq fatihə oxumuş və türkcə duaya başlayacaqdı ki, Abay gur səslə araya girdi. Bu da adətə uyğun idi: ikinci, üçüncü, hətta dördüncü adam da surələr oxuya bilərdi, amma arzu hissəsi mütləq orada olan ən böyük, yəni Qazax təbiriylə ağsaqqal tərəfindən edilməliydi. Bizim ağsaqqalımız Ali Ağabəydi. Bura qədər hər şey normal idi. Amma Abayın Quran oxuma tərzi bizi çaşdırmışdı. Ali Ağabəylə göz-gözə

gəldik. Mən dua etməyi dayandıraraq çiynimdəki kameranı götürdüm, bunu qaçırmamalıydım. Abay adətən bir baksıya dönmüşdü. Quran oxumasındakı musiqi şaman melodiyası idi. O da fatihə surəsini oxuyurdu. Qazaxların adətən tələffüz etməkdə çətinlik çəkdikləri səsləri saymasaq, surənin oxunuşunda xəta yox idi, amma o melodiya, sanki əsrlər əvvəldən keçib gəlirdi. Mədəniyyətin gücünü izah etmək hərhalda dünyanın ən çətin işlərindən biridir. Abay oxumasını bitirib dayandı. Bu, dua sırasının gəldiyini və sözün Ali Ağabəyə keçəcəyinin işarəsi idi. Ali Ağabəyin dualarına qoşularaq türbədən çıxdıq. Biz türbədə ikən iki maşın da gəlmişdi. Qadınlı, kişili qrup sağa, sola qaçırdılar. İki mərtəbəli binanın alt mərtəbəsi də açılmışdı. Bura geniş bir salon idi. Bir küncündə bir balon qaz və ocaq, digər tərəfdə isə bir-iki masadan başqa bir şey görünmürdü. Abay "əgər dünən gecə Muxtar Ağanı evdə tapa bilməsəydik, biz də bu binanın üst mərtəbəsində qalacaqdıq" dedi. Üst mərtəbədə nələr vardı, onu görmək imkanımız yoxdu. Lakin alt mərtəbənin, qurban kəsənlərin ətləri bişirib qonaq etmələri üçün yer olduğu başa düşülürdü. Yeni gələnlər də qurban kəsməyə hazırlaşırdılar. Abay maşından bir şüşə götürərək bulaq suyundan doldurdu. "Yuxarıda ehtiyacımız olur" dedi. Çörək, bir neçə pomidor və tərəvəzdən ibarət olan torbamız Muxtarın əlindəydi. Artıq Qazıqurda dırmanmağa hazırdıq.

BUDUR, QAZIQURD

Akburğadan hərəkət etdiyimiz zaman kiçik bir təpəni dırmanaraq geniş düzlüyə çıxdıq. Buraların iç Anadolu dağ yamaclarından fərqi yox idi. Otlar, yovşanlar və kiçik dağ çiçəklərinin arasında uzanan bir cığırda yeriyirdik. Qazıqurdun ətəyində bu kiçik təpə belə nəfəsimizin zorlanmasına yetmişdi. Bu düzlükdə yeriyərkən nəfəsimiz də yerinə gəldi. Sonra bir vadini, daha sonra o birini keçdik. Bax, budur Qazıqurdun ana zirvəsinin önündəyik. Buraya qədər olan məsafə belə bizi yormaya yetmişdi. Üstəlik paltarlarımız havaya heç uyğun deyildi. Bu mövsümdə istilərin kifayət qədər yüksək olduğu Türkistan iqliminə görə geyinmişdik. Günəşin yüksəlmiş olmasına baxmayaraq, hava hələ də üşüyəcək qədər sərindi. Qazıqurdun zirvəsi daha da soyuq olacaqdı. Ali Ağabəy buradan geri dönmək istədi. "Siz çıxın, mən maşının yanında gözləyəcəyəm" dedi. Maşınımızı Akbuğrada saxlamışdıq. Başa düşdük və o geri döndü. Muxtar düz yolda yeriyirmiş kimi dağa dırmaşırdı. Arxasınca ona çatmağa çətinlik çəkirdim. Abay da Ali Ağabəyin geri dönmək məcburiyyətində qaldığına heyfsilənirdi. Biz yeridikcə Qazıqurdun zirvəsi sanki yuxarı qaçırdı. Bəlkə yarısına gəlmişdik və ya o qədər olmamışdı ki, artıq mən də Ali Ağabəy kimi geri dönmək istədiyimi söylədim. Əslində bunu çoxdan söyləmək istəyirdim. Amma inadla dırmaşmağa çalışırdım. Lakin artıq zirvəyə baxdıqca gözlərim qaralırdı. İkisi birdən etiraz etdilər. "Bura qədər gəlib dönmək olmaz" dedilər. Çarə yoxdu, dözməliydim. Artıq zirvəyə yaxınlaşmışdıq. Bitki örtüyü də nazikləşmişdi. Ətraf kiçik daş parçalarıyla doluydu. Son taqətimizi də toplayaraq nəhayət Qazıqurdun zirvəsinə çatdıq. Günəş xeyli yüksəlmiş, sərin külək hələ də davam edirdi. Abay "Nuh Peyğəmbərin Gəmisinin oturduğu yer, bax, budur" dedi. İki yanda yeddi-səkkiz metr yüksəkliyində qayalıq sütunlar vardı. İki sütununun arası on beş metrə yaxındı. "Bu şəkli gəmi yaratmışdır" deyə Abay izah etdi. "Tufan zamanı sular bu dağı da aşmışdır. Suların çəkilməyə başlamasıyla gəmi gələrək dağa çarpmış, öz şəklini verərək buraya oturmuşdur". Günəşin qarşısında, soldakı qayalığın dibində oturduq. Həddindən artıq yorğun olduğumuzdan oturan kimi yatmışam. Oyandığım zaman bütün yorğunluğum keçib getmişdi. Hər halda

yoldaşlarım uzun müddət yanımda gözləmək məcburiyyətində qalmışdılar. Bunun görə utanırdım. Saatıma baxdım. Sən demə cəmi 10 dəqiqə yatmışam. Lakin bu nə qədər rahatladıcı bir yuxu idi. Bu zaman Muxtar torbanı açıb pomidorları və tərəvəzləri çıxarıb süfrə açmışdı. Abay isə bu yuxudan son dərəcə məmnundu: "Qazıqurd səni qəbul etdi" sevincək dedi. Oturduğumuz qayalıqdakı 3 metrəyə yaxın bir budağın üzərində tuğ bağlanmışdı. Bu tuğ övliya qəbirlərinin başına qoyulan növlərdəndir. Orta Asiyada qəbirdə yatanın övliya olduğunu göstərmək üçün belə tuğlar qoyulduğunu bilirdim. Yesəvi Türbəsinin qədim fotolarında da bu cür tuğlar var idi. Teymur Xan şeyxinin qəbrinin başında və Şahı Nəqşibəndin qəbrinin başında da bu tuğdan vardı. Görəsən Qazıqurdun zirvəsində də bir övliya qəbri yerləşirdimi? Abaydan soruşdum. Bir az gülümsəyərək oturduğumuz yerin düz üzərində asılmış bir mərmər lövhədəki yazını mənə göstərdi. Lövhədə qazaxca "Nuhun gəmisi Qazıqurda oturdu - heç kəraməti olmasa Nuhun gəmisi bura oturardımı " yazırdı. Amma Abay lövhəni oxuyarkən "heç övliya olmasa oturardımı?" deyə oxuyurdu. Başa düşdüm. Qazax xalqı bu müqəddəs dağa "övliya hörməti" ilə yaxınlaşırdı. Torosların övliya təpələri kimi. Acmışdım. Bir yandan gətirdiklərimizi yeyir, bir yandan da Abayı dinləyirdk. Muxtar yalnız onun danışdıqlarını təsdiqləmək üçün söhbətə qarışırdı. Abay qarşımızdakı qayalıq sütunundan bir deşik göstərərək "bu qayaların arasındakı deşikdən keçənlərin günahları təmizlənir" deyirdi. "Əgər pis niyyətli və çox günahkarsansa, qayalar səni sıxar və keçə bilməzsən" deyə əlavə etdi. Anadolunun Hacıbektaş Türbəsini xatırlamamaq qeyri-mümkün idi.

Bir az sonra köynəyini çıxararaq bəhs etdiyi aralığın bir yerindən girib, digər yandan çıxdı. Çıxış yeri dar idi və iri vücudu qayalara sürtünmək məcburiyyətində idi. Çıxdıqdan sonra dərin bir nəfəs aldı, bəlli ki, psixoloji olaraq çox rahatlamışdı. Mənə də aralıqdan keçmək üçün çox israr etdi. Bunun üçün köynəyimi çıxarmamağım şərt idi. Mən geyimli halda üşüyürdüm. Bir də vücudumun soyuq qayalara toxunacağını düşünüb ürpərdim. Təklifini qəbul etmədim. Muxtar da keçməyə təşəbbüs etmədi. Gəminin oturduğu söylənən ərazidən irəliyə doğru yeridik. Qazıqurdun bu ərazisi çox sərt bir qayalıqdı və dimdik aşağıya doğru enirdi. Dədə Qorqudun Salur Qazana yuvarlanan qayanı tutdurduğu yer bura olmalıydı. O igid bax, bu cür mədh edilirdi. Bu

dimdik yamacdan yuvarlanan qayanı yaxalayan ər, necə bir ər ola bilər ki!

Buradan şimalda bir dağ sırasına qədər üfüq uzanırdı. Bu dağlar isə Dədə Qorqudun "qarşı yatan qara dağlar" dediyi yerlərdir. Hətta Sibir küləklərinə keçid verən kanyon da buradan açıq görünürdü.

Qərbə doğru isə ucsuz-bucaqsız düzlük vardı. Çimkənd şəhəri ayaqlarımızın dibindəymiş kimi yaxında görünür, ona təpədən baxırdıq. Sanki gözümüz seçə bilsə, Türkistan, hətta Qızıl Orda şəhəri belə görünəcəkmiş kimi dümdüz bir ovalıqdı. Dayanıb Türkistanın yerini tapmağa çalışdıq, xeyir, çılpaq gözlə görünmürdü. Abay Qazıqurdu anlatmağa davam edirdi: "Qorqud Ata" Qazaxlar Dədə Qorquda belə deyirdilər; "burada inzivaya çəkilmişdir". "Xalqın çoxu bilmir, o da ərənlərdəndir". "Yesəvi Atanın da bu zirvədə təvəkkül etdiyini" anladırdı.

Cənubda Ana Qazıqurd dağı görünürdü. Alpər Tunqanın aslanları onun bağrını taclandırırdı. Hələ balacaydı və arxasında görünən yerlər isə Özbəkistan torpaqlarıydı.

DİLƏK VƏ VİDA

Zirvədə olan bir-iki kola da xalq parçalar bağlayaraq, onları rəngbərəng etmişdilər. Dilək tutmanın bu şəklini bilirdim, amma bir də kiçik daş parçalarından üst-üstə qoyularaq əmələ gələn yığınlar vardı. Bunlar dilək diləyənlər tərəfindən edilmişdi. Bunlar Abayın anlatdıqları idi. Bezlərin və daşların çoxluğundan məlum olurdu ki, niyyət tutmaq üçün Qazıqurda çıxanlar az deyildi. Ətraf yerlərdən, hətta Alma-atadan, Qızıl Ordadan gələnlərin olduğunu Muxtar söyləyirdi. "Artıq ta Türkiyədən gələnlər olduğunu siyahıya əlavə edə biləcəklərini" söyləyərək yığınların üzərinə bir daş da mən qoydum. Nə dilədiyimi soruşmadılar, çünki onlar da "diləyin açıqlanması halında həyata keçməyəcəyinə" inanırdılar.

Artıq enirdik. Enmək çıxmaqdan daha çətindi. Muxtar bir dərə yatağına doğru girmişdi. O bu yerləri çox yaxşı tanıyırdı. Abayla mən çıxdığımız cığırdan enməyə çalışırdıq. Abay bir az geridə qalmışdı. Özümü saxlaya bilmədiyim yerlərdə qaçaraq enirdim. Ara-sıra Abayı görürdüm. Muxtar isə heç görünmürdü. Hər halda Abaydan çox geridədir, deyə düşündüm. Enməyə davam edirdim. Xeyli enmişdim ki, gələrkən keçdiyimiz dağa yaxın iki dərənin arasındakı düzlüyə bir qoyun sürüsü daxil olmağa başladı. Arxadakılar çatsın deyə yeriməyi yavaşlatdım. Vadiyə yaxınlaşınca dayanıb gözləməyə başladım. Abay görünürdü, amma Muxtar isə hələ də yox idi. Sürünün arxasında olduğu vadiyə tamamilə yaxınlaşmışdım ki, qoyunlara yaxın bir yerdə başını qoluna dayayıb yatan birinin olduğunu gördüm. "Yəqin ki, çoban sürüsünün başında, hər halda itlərinə də nəzarət edir" deyə bir az rahatladım. Artıq dayanıb yoldaşlarımın gəlməsini gözləyəcəkdim. Bir müddət sonra Abay da gəlmişdi, amma Muxtar hələ də görünmürdü.

Abaya "Muxtarı da gözləyək" dedim. Hərhalda başa düşmədi "Görünmür belə, geridə qaldı. Bir şey ola bilərmi?" soruşdum. Abay güldü. "Vadinin qarşısında yatan adam Muxtardır" dedi. İnanmaq çətindi. Muxtarın keçdiyi dərə yatağında cığır belə yox idi, daşların arasında yeriməsi daha çətin olmalı deyildimi? Vadinin kənarına gəlmişdik artıq, qarşı tərəfdə yatan həqiqətən də Muxtar idi. İlk müşahidəmdə haqlı idim: Muxtar dastan qəhrəmanı kimiydi. O, sanki

uçaraq Qazıqurda enmişdi. Bu qədər tez başqa cür enilməzdi. Ali Ağabəyin yanına gəldiyimiz zaman onu Akbuğranı ziyarətə gələnlərlə münasibət yaratdığını gördük. Hətta uşaqlarla belə dost olmuşdu. Bu səhranın ortasında, vahədə bülbülləri dinləyərək vaxtını keçirmişdi. Kəndə gəldiyimiz zaman Muxtar qalmağımız üçün israr etdi. Evə girib bir çay içməyi qəbul etdik. Bu səbəblə evdəkilərlə də vidalaşmış olacaqdıq. Səhər biz ayrıldığımız zaman xanımlar hələ də toydan qayıtmamışdılar. Qazıqurdun ətəyində tapdığımız bu "həmşərilərimizlə" bu qısa müddətdə nə qədər qaynaşmışdıq. Axşam mütləq Türkistanda olmağımız lazım olduğunu anlatmağa çalışdıq. Abay da dediklərimizi təsdiq etdi. Onun da dəstəyiylə izn almağı bacardıq. Muxtarla qucaqlaşıb ev xalqıyla vidalaşaraq kənddən ayrıldıq. Türkistana döndüyümüz zaman toplantıya çox az vaxt qalmışdı. Çatmışdıq. Bütün yorğunluğumuza dəymişdi. Bu qısa müddət ərzində nə qədər çox şey qazanmışdıq. Bir ay sonra Türkiyəyə qayıdacağımız dəqiqləşmişdi. Üç illik Türkistanda xidmət müddətimiz başa çatmışdı. Ali Ağabəyin də vəziyyəti eyni di. Hər nə qədər gedəcəyimiz yer doğulub böyüdüyümüz ölkəmiz olsa da, bu çox sevdiyimiz coğrafiya və insanlardan ayrılmaq bizi məyus edirdi. Abay bu dəfə də haqlı çıxmışdı: "Heç deyilsə, Qazıqurdu görmədən qayıdanlardan deyildik".

Təşəkkürlər, Abəkə!

Təşəkkürlər, Muha!

Sağlıqla qal, Qazıqurd!

Sağlıqla qal ,Türkistan!

Arzu edirəm ki, dilək daşım sonsuzadək Qazıqurdun zirvəsindəki yerində qalsın!...